Xalqın qəzeti

# Xalq qəzeti

№ 133 (30827) 3 iyul 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan–Özbəkistan dostluğu və strateji müttəfiqliyi ortaq hədəflərlə möhkəmlənir

### Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri



səhifə ⇨ 2

*Azərbaycan Prezidenti İlham ƏLİYEV: "Keçən il Daşkənddə Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Bu, istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəddir. Biz artıq bir ilə yaxındır ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirdiyimiz konkret plan və layihələrlə nümayiş etdiririk".*

## İrəvanın yeni təhlükəsizlik oyunu



səhifə ⇨ 10

## Rusiya, Şvıdkoy və mədəni yoxsullaşma



səhifə ⇨ 10

## Rusiya üçün müttəfiqlik anlayışı – "Zatulin indiqatoru"

*Tarixə baxışdan Kremlin acizlik mesajınadək*



**Rusiya Dövlət Dumasının MDB ölkələri və xaricdəki həmvətənlərlə iş komitəsinin sədr müavini Konstantin Zatulinin Bakı və Moskva arasında yaşanan hazırkı gərginliyə münasibət bildirərkən dilə gətirdiyi fikirlərdən yalnız birinin üzərində dayanaq. Qatı erməniпərəst mövqeyi ilə seçilən bu məxluq deyib ki, Azərbaycan heç vaxt Rusiyanın müttəfiqi olmayıb. Əlbəttə, mahiyyəti saxtakarlıqdan yoğrulmuş Zatulinin hər fikri kimi, bu fikri də özündə cəfəngiyyat parametrlərini və erməni təəssübünü daşıyır. Söhbət hansı anlamdakı cəfəngiyyatdan gedir, yazımızda ona diqqət yetirəcək, bir sıra əlaqəli nüanslara nəzər salacağıq.**

Bəribaşdan bunu böyük hərflərlə bildirək: Rusiyanın tarix boyu heç vaxt gerçək müttəfiqi olmayıb. ox` da uzaq olmayan keçmişə nəzər salaraq vurğulayaq ki, İkinci Dünya müharibəsi illərində Qərbin SSRİ-yə dəstəyi olmuşdu. Ancaq bu dəstək Sovetlər Birliyinin nasist Almaniyası qarşısındakı üstünlüyünün qeydə alınmasından sonra gerçəkləşmişdi.

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan qazı 18 ildir Türkiyədə alovlanır




səhifə ⇨ 11

## Milli özünüdərk və istiqlal şairi



səhifə ⇨ 13

## "Solovyov üçün cəhənnəmdəki VİP qazanda yer hazırlanıb"

*Xalq yazıçısı Anarın açıq məktubu*



səhifə ⇨ 12

## Sülhü kim qoruyacaq?

*Qlobal güc balansını tənzimləyəcək ortaq qaydalar sisteminin çöküşü*



**Qlobal geosiyasi sistem XXI əsrin ikinci onilliyindən etibarən əhəmiyyətli struktur dəyişikliyi yaşayır. "Soyuq müharibə"dən sonra formalaşan və ABŞ-ın hegemonluğu ilə özünü göstərən təkqütblü dünya nizamı artıq parçalanma mərhələsinə qədəm qoyub. ABŞ-ın nisbi güc itkiləri, Avropa İttifaqının daxili siyasi parçalanmaları, Çin və Rusiyanın qlobal iddialarla çıxış etmələri, Hindistan və BMT üzvü bəzi regional güclərin yeni koordinat sistemində öz maraq sahələrini müdafiə etməyə başlaması çoxqütblülüyə keçidin təzahürləridir.**

Amma bu keçid prosesi, sadəcə, "tarixi inkişafın labüd mərhələsi" deyil. O, özündə həm də böyük risklər, gərginliklər və qlobal təhlükələrin aktivləşməsini ehtiva edir. Məhz bu baxımdan, günümüzün aktual suallarından biri belə səslənir:

*(ardı 7-ci səhifədə)*

## Rusiyada media azadlığı iflasa uğrayıb




səhifə ⇨ 8

# Azərbaycan–Özbəkistan dostluğu və strateji müttəfiqliyi ortaq hədəflərlə möhkəmlənir

## *Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri*



### *Rəsmi qarşılanma mərasimi*



**İyulun 2-də Azərbaycana dövlət səfərinə gələn zbəkistan` Respublikasının Prezidenti Şavkat Mirziyoyevin rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham liyev` zbəkistan` Prezidenti Şavkat Mirziyoyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi zbəkistan` Prezidentinə raport verdi. zbəkistan` Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham liyevin` və zbəkistan` Prezidenti Şavkat Mirziyoyevin qarşısından keçdi.

Sonra rəsmi foto çəkdirildi.

## Azərbaycan Prezidenti İlham liyevin` zbəkistan Prezidenti Şavkat` Mirziyoyevlə təkbətək görüşü



İyulun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin zbəkistan` Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə təkbətək görüşü olub.

## Heydər liyev Beynəlxalq` Aeroportunda qarşılanma



**zbəkistan` Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyulun 2-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər liyev` Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

zbəkistan` Prezidenti Şavkat Mirziyoyevi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

## Bakıda Azərbaycan–Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib



**İyulun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və zbəkistan` Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-zbəkistan` Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib.**

**İclasda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

` Hörmətli Şavkat Miromonoviç, əziz Qardaşım, bir daha Azərbaycana xoş gəlmisiniz deyirəm. Sizi və nümayəndə heyətinin üzvlərini salamlayıram.

minəm` ki, zbəkistan` Prezidentinin dövlət səfəri ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafında daha bir mühüm mərhələ olacaq. Biz dostuq, qardaşıq, Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalandığı andan artıq müttəfiqlərik. Keçən il Daşkənddə biz rəsmən müttəfiq olduq. Müttəfiqlik münasibətləri haqqında Müqavilə dövlətlərarası münasibətlərin ali formasıdır.

Bu gün Dövlətlərarası Şuranın ikinci iclası çərçivəsində biz hesabatları dinləyəcək, qəbul etdiyimiz qərarların yerinə yetirilməsi üzrə növbəti tapşırıqlar verəcək və minimum yaxın bir neçə ay müddətinə tədbirlər proqramını müəyyənləşdirəcəyik.

lkələrimizi` həm tarix, həm mədəniyyət, həm ortaq dil və etnik yaxınlıq birləşdirir. Bu, möhkəm bünövrədir. Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik. lkəmizə` göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim.

Hökumət üzvləri və müxtəlif strukturların rəhbərləri səviyyəsində də müntəzəm təmaslar həyata keçirilir. Bu yaxınlarda Hökumətlərarası Komissiyanın növbəti iclası olub. Artıq dediyim kimi, bu gün nəticələri dinləyəcəyik. minəm` ki, onlar prinsipcə bizi sevindirəcək. Həm də Sizinlə razılaşdığımız kimi və hökumətlərimizin üzvlərinə verdiyimiz tapşırıqlara əsasən, biz bütün qərarlara və onların yerinə yetirilməsinə nəzarət edirik.

Həmçinin qardaş zbəkistanı` tarixi hadisə - futbol üzrə zbəkistan` yığmasının dünya çempionatının final mərhələsinə çıxması münasibətilə təbrik etmək istərdim. Bu, zbəkistanın` dünyanın aparıcı idman dövlətləri sırasında olduğu Yay Olimpiya Oyunlarından sonra son dövrlərdə idmanda ikinci tarixi nailiyyətidir. Bu nailiyyət həm də çox böyük potensialdan - insan potensialından, gənclik potensialından və təbii ki, dövlətin və Prezidentin düzgün siyasətindən xəbər verir. Biz buna öz uğurumuz kimi sevinirik. minəm` ki, siz orada, o cümlədən Azərbaycanı da təmsil edəcəksiniz.

**Prezident Şavkat Mirziyoyev:** Mütləq.

**Prezident İlham Əliyev:** Beləliklə, əziz Qardaş, bir daha xoş gəlmisiniz. Sizə yaxşı vaxt keçirməyi arzulayıram və əminəm ki, bizim Dövlətlərarası Şuranın nəticələri yaxın vaxtlarda öz bəhrəsini verəcək. Bir daha xoş gəlmisiniz `

*

**zbəkistan` Prezidenti Şavkat Mirziyoyev dedi:**

` Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım, çox sağ olun.

Həqiqətən də bu, gözlədiyimiz səfərdir. Biz Azərbaycana məmnuniyyətlə, öz evimizə, yaxın qardaşlarımızın yanına gəldiyimiz kimi gəlirik. Şəxsən öz adımdan, nümayəndə heyətimizin adından təyyarənin endiyi andan təkcə mənə deyil, həm də bütün nümayəndə heyətimizə göstərilən çox təntənəli qəbula görə minnətdaram. Mən buna görə ayrıca təşəkkür etmək istəyirəm.

lbəttə,` son illər münasibətlərimiz indi Sizin də dediyiniz kimi, tamamilə başqa səviyyəyə yüksəlir. Bizim real uğurlarımız var. Sizin də qeyd etdiyiniz kimi, biz artıq müttəfiqik. Bu, artıq bütün mətləblərdən xəbər verir. Hökumətlərarası səviyyədə, müttəfiqlik diplomatiyasında bunlar onu göstərir ki, biz artıq yaxın qonşular, yaxın dostlarıq. Bütün razılaşmalarımız da yüksək səviyyədə olacaq, Sizinlə razılığa gəldiyimiz kimi, nəzarət olunacaq və həllini tapacaq.

Biz iki yaxın xalqıq və tarixdə ortaq tərəflərimiz, ruhən, əxlaq, dünyaya baxış nöqteyi-nəzərindən çoxlu ümumi cəhətimiz var, dilimiz birdir, mədəniyyətimiz birdir, bir çox məsələni həll edirik. Bu gün məhdud dairədə tariximizi çox xatırladıq. lbəttə,` çox şey əldən verilib. Amma biz Sizinlə onların yerini doldururuq. Biz bu gün göstəriş verəcəyik, onların yerini dolduracağıq və nəzarətə götürdüyümüz bütün məsələlər mütləq yerinə yetiriləcək.

lbəttə,` demək istəyirəm ki, dünən tarixdə ilk parlamentlərarası forum uğurla keçirildi. Mənə məruzə etdilər, sizin və bizim deputatlar danışdılar. Bu da münasibətlərin artıq başqa fərqli səviyyəsidir. Hökumətlərarası Komissiya çox yaxşı səviyyədə keçdi. İki sədr görüşür, bir-birini çox yaxşı başa düşürlər. Mənə çox xoşdur ki, onların real nəticələri var. Son vaxtlar Təhlükəsizlik şuralarının görüşləri oldu, bir yol xəritəsi imzalandı. Bu da çox məsələdən xəbər verir.

İlham Heydər oğlu, mən də Sizi təbrik etmək istəyirəm - Azərbaycanın minifutbol komandası dünya çempionudur. Böyük futbola bir addım qaldığını gördük və həqiqətən də sevindik.

*

Ali Dövlətlərarası Şuranın ikinci iclası çərçivəsində Hökumətlərarası Komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, zbəkistanın` investisiya, sənaye və ticarət naziri Laziz Kudratov Azərbaycan və zbəkistan` prezidentlərinin tapşırıqlarına uyğun olaraq həyata keçirilən layihələr barədə məlumat verdilər.

Sonra nəqliyyat, energetika, mədəniyyət nazirləri Azərbaycan-zbəkistan` strateji müttəfiqlik əlaqələrinə uyğun olaraq öz sahələri üzrə məruzələrlə çıxış etdilər.

Daha sonra dövlət başçıları tərəfindən mövcud layihələrin icrası, əməkdaşlığımızın inkişafı baxımından yeni perspektiv layihələrin müəyyən edilməsi ilə bağlı tapşırıqlar verildi.

# Azərbaycan–Özbəkistan dostluğu və strateji müttəfiqliyi ortaq hədəflərlə möhkəmlənir

## Azərbaycan ilə zbəkistan` arasında imzalanmış sənədlər mübadilə edilib

**İyulun 2-də Azərbaycan Respublikası ilə zbəkistan` Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və zbəkistan` Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə mübadiləsi mərasimi olub.**



Azərbaycan Respublikasının Prezidenti İlham liyev` və zbəkistan` Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının və zbəkistan` Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə zbəkistan` Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2025-2027-ci illər üçün kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlığın gələcək inkişafı üzrə Praktiki Fəaliyyət Planını ("Yol xəritəsi")" Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və zbəkistanın` kənd təsərrüfatı naziri İbroxim Abduraxmonov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında gəmiçilik və gəmiqayırma sahələrində əməkdaşlıq haqqında Niyyət Protokolu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın nəqliyyat naziri İlxom Maxkamov mübadilə etdilər.





"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə kompleks tədbirlərin və layihələrin formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi üzrə Fəaliyyət Planı"nı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və zbəkistanın` investisiya, sənaye və ticarət naziri Laziz Kudratov mübadilə etdilər.

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında 2025-2027-ci illər üzrə sənaye əməkdaşlığı Proqramı"nı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və zbəkistanın` investisiya, sənaye və ticarət naziri Laziz Kudratov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə zbəkistan` Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş"i Azərbaycanın elm və təhsil naziri Emin mrullayev` və zbəkistanın` ali təhsil, elm və innovasiya naziri Konqratbay Şaripov mübadilə etdilər.

"Azərbaycan Respublikasının mək` və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə zbəkistan` Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun icrası ilə bağlı 2025-2027-ci illər üzrə Tədbirlər Planı"nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və zbəkistanın` xarici işlər naziri Baxtiyor Saidov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə zbəkistan` Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında səlahiyyətli iqtisadi operator institutlarının qarşılıqlı tanınması haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və zbəkistanın` xarici işlər naziri Baxtiyor Saidov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə zbəkistan` Respublikası Hökuməti arasında surəti köçürülmüş, oğurlanmış, itirilmiş və cinayət fəaliyyəti ilə əlaqəli mobil cihazlar üzrə məlumat mübadiləsinin təşkili haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və zbəkistanın` xarici işlər naziri Baxtiyor Saidov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə zbəkistan` Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov mübadilə etdilər.

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol xəritəsi"ni Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və zbəkistanın` xarici işlər naziri Baxtiyor Saidov mübadilə etdilər.

Qeyd edək ki, səfər çərçivəsində, həmçinin "Sumqayıt şəhəri ilə Daşkənd vilayəti arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol", "Qəbələ şəhəri ilə Nəvai şəhəri arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol", "Azərbaycan Respublikasının mək` və halinin` Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə zbəkistan` Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin "İMKON" reabilitasiya mərkəzli dövlət çoxsahəli ixtisaslaşdırılmış məktəbəqədər təhsil müəssisəsi arasında xüsusi qayğıya ehtiyacı olan uşaqlara xidmətlərin göstərilməsi sisteminin inkişafı sahəsində əməkdaşlıq haqqında Protokol" və "Azərbaycan Respublikasının mək` və halinin` Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə zbəkistan` Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin yanında "nternational` nclusive` Hub" Beynəlxalq inklüziv peşə baza təhsili mərkəzi arasında xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə əhalinin sosial cəhətdən həssas qruplarına aid olan şəxslərə xidmətlərin göstərilməsi sisteminin inkişafı sahəsində əməkdaşlıq haqqında Protokol" imzalanıb.

# Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər

**İyulun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxış etdi.**





## Prezident İlham Əliyevin bəyanatı

` Hörmətli Şavkat Miromonoviç, əziz Qardaşım.

Hörmətli qonaqlar, əziz dostlar.

Bu gün zbəkistan` və Azərbaycan münasibətlərinin tarixində əlamətdar gündür. zbəkistan` Prezidentinin dövlət səfəri layiqincə, qardaşlıq və qarşılıqlı anlaşma ab-havasında keçir. Bu gün biz həm ikitərəfli görüş, həm də Dövlətlərarası Şuranın iclası çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinin geniş spektrini müzakirə etdik, münasibətlərimizin strateji, müttəfiqlik xarakterini bir daha təsdiqlədik. Keçən il Daşkənddə Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Bu, istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəddir. Biz artıq bir ildir ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirdiyimiz konkret plan və layihələrlə nümayiş etdiririk.

Bu gün görüşümüzə başlayarkən mən, ilk növbədə, Şavkat Miromonoviçi öz adımdan və bütün Azərbaycan xalqı adından tarixi nailiyyət ` futbol üzrə Özbəkistan yığmasının dünya çempionatının final mərhələsinə çıxması münasibətilə təbrik etdim və dedim ki, bu uğur təsadüfi deyil. Bu, özbək idmançıların beynəlxalq arenada, o cümlədən Yay Olimpiya Oyunlarında nümayiş etdirdikləri şanlı idman qələbələrinin davamıdır. lbəttə,` bu, həm də rəhbərliyin və Prezidentin gənclərin təlim-tərbiyəsi və ölkənin inkişafı üzrə müdrik siyasətinin nəticəsidir.

Biz Özbəkistanın sürətli inkişafını, bütün sahələrdə genişmiqyaslı islahatların həyata keçirilməsini böyük maraq və sevinclə müşahidə edirik. zbəkistanın` beynəlxalq arenada imicinin ildən-ilə artmasına, iqtisadi potensialının güclənməsinə, sosial həyatın bir çox məsələsinin həll olunmasına şadıq. Bütün bunlar Prezidentin, zbəkistan` rəhbərliyinin düşünülmüş siyasətinin nəticəsidir. Bunların hamısı konkret proqramlarda da öz əksini tapır. Dost və qardaşlar olaraq, biz buna ürəkdən sevinirik.

Bu gün sahə nazirlərinin qarşılıqlı fəaliyyətimizin müxtəlif istiqamətləri üzrə hesabatları dinlənildi. Biz bu gün həm əmtəə dövriyyəsini, həm də qarşılıqlı investisiyaların həcmini əhəmiyyətli dərəcədə artırmaq niyyətini bir daha təsdiqlədik.

Bir müddət əvvəl yaradılmış birgə İnvestisiya Fondu artıq praktiki olaraq layihələrlə təmin edilib. Bu gün 10-dan çox layihənin artıq investisiya qərarlarının qəbulu mərhələsində olduğu barədə məruzə edilib. Amma təbii ki, biz bunu yalnız başlanğıc kimi qiymətləndiririk, çünki İnvestisiya Fondunun nizamnamə kapitalı 500 milyon dollardır. Bizim planlarımız bu rəqəmi bir neçə dəfə üstələyir və əminəm ki, energetika, mehmanxana biznesi, tikinti, kənd təsərrüfatı və bir çox digər sahələrdə artıq konkret perspektivi olan və razılaşdırılmış layihələrin, imzalanmış müqavilələrin birgə həyata keçirilməsi təbii olaraq qarşılıqlı investisiyaların əhəmiyyətli dərəcədə artmasına gətirib çıxaracaq. Bu da bizim niyyətimizi əks etdirir, ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin ruhuna və xarakterinə uyğundur. Həm zbəkistan,` həm də Azərbaycan öz ölkələrimizin iqtisadiyyatına fəal surətdə investisiya qoymaqla yanaşı, həm də artıq dost ölkələrə də sərmayələrlə çıxırıq. zbəkistana` investisiyalar bizim üçün prioritetdir. Birincisi, ona görə ki, bu, dost, qardaş ölkədir.

(ardı 4-cü səhifədə)

# Azərbaycan–Özbəkistan dostluğu və strateji müttəfiqliyi ortaq hədəflərlə möhkəmlənir

(əvvəli 3-cü səhifədə)

İkincisi, çünki zbəkistan` Prezidentinin düşünülmüş islahatları nəticəsində ölkədə çox yaxşı investisiya mühiti yaradılıb. Bunu təkcə biz deyil, həm də aparıcı maliyyə institutları və bir çox ölkə qeyd edir. Təsadüfi deyil ki, zbəkistan` bu gün investisiyalar üçün çox cəlbedici ölkədir.

Biz bugünkü imkanları nəzərə alaraq, həmçinin gələcək layihələr baxımından Xəzərdən Azərbaycana, oradan isə Qərb istiqamətinə çıxışı olan Mərkəzi Asiya regionunda daha geniş və şaxələndirilmiş nəqliyyat infrastrukturunun yaradılmasına gətirib çıxaracaq nəqliyyat-logistika sahəsini ətraflı nəzərdən keçirdik. Biz infrastrukturumuzun böyük həcmdə yükləri qəbul etməyə hazır olması baxımından layihələrimizi ikitərəfli formatda əlaqələndirməyi davam etdirməklə yanaşı, həm də qonşu ölkələrlə çoxtərəfli formatda nəqliyyat siyasətinin əlaqələndirilməsi üzrə müntəzəm dialoq və iş aparmağa razılaşdıq. ünki` Orta Dəhliz layihəsi ya istismar, ya hazırlıq, ya da tikinti mərhələsində olan bir neçə qola malikdir. Təbii ki, Mərkəzi Asiya məkanında Orta Dəhlizin bütün şaxələndirilmiş marşrutları üzrə son nəticədə yükləri qəbul edəcək nəqliyyat infrastrukturu, - mən Azərbaycanın nəqliyyat infrastrukturunu nəzərdə tuturam, - xeyli böyük həcmdə yük qəbul etməyə hazır olmalıdır.

Biz özbək dostlarımıza məsləhət yardımlarına və kənd təsərrüfatı, ilk növbədə, pambıqçılıq və ipəkçiliklə bağlı layihələrə sərmayə qoyduqlarına görə minnətdarıq. zbəkistan` şirkətlərinin bu sahədə təcrübəsi bizim üçün çox qiymətlidir. Bu gün, həmçinin konkret olaraq həm Azərbaycanda, həm də zbəkistanda` kənd təsərrüfatı müəssisələrinin, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin inkişafı üzrə iri layihələri xüsusi müzakirə etdik.

Qarabağın bərpasına göstərdiyi köməyə görə xüsusi minnətdarlığımızı ifadə edirik. zbəkistan` bu sahədə birinci ölkə, öz təşəbbüsü ilə Qarabağ bölgəsinin bərpasına dərhal yardım edən Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Sosial təhsil infrastrukturunun ilk obyekti məhz Özbəkistanın tikdirdiyi məktəbdir və mən Şavkat Miromonoviç ilə onun açılışını etmişik. O, özbək xalqının böyük oğlu Mirzə Uluqbəyin adını daşıyır və burada öz əcdadlarının torpağına qayıdan uşaqlar təhsil alırlar.

Erməni işğalından azad edilmiş ərazilərdə ikinci mühüm layihə isə Xankəndi şəhərindəki tikiş fabrikidir. Yenə də özbək qardaşlarımızın sərmayələri və texnologiyaları sayəsində bu gün 200-dən çox insanın çalışdığı müəssisə yaradılıb və gələcəkdə orada çalışanların sayı dəfələrlə artacaq. Yəni bu, sosial infrastruktura, sənaye istehsalının yaradılmasına yardım göstərilməsi, eyni zamanda, əhalinin məşğulluğunun təmin edilməsidir. Biz buna görə çox minnətdarıq və bunu çox yüksək qiymətləndiririk.

Bugünkü tədbirdən sonra işimiz davam edəcək, biz zbəkistanın` Azərbaycandakı səfirliyinin yeni binasını birlikdə açacağıq. Yenə də Şavkat Miromonoviçə həmin binanı tikmək qərarına görə minnətdarlığımı bildirmək istəyirəm. Bu yerin tarixi artıq kifayət qədər qədimdir.



**Prezident Şavkat Mirziyoyev:** 2001-ci il.

**Prezident İlham Əliyev:** Bu yer Heydər lirza` oğlu tərəfindən ayrılıb, şəhərin mərkəzində, böyük dövlətlərin səfirliklərinin yerləşdiyi ərazidə, eyni zonada, amma ən azı iki onillik, yox, bir qədər az müddətdə, sadəcə, orada boş qalıb, düzünü deyim ki, bu yer üçün çoxlu "ovçular" olub. Mənə dəfələrlə dedilər ki, görürsünüz, Özbəkistan səfirlik tikmir, yer yaxşıdır, layihə budur. Deyirəm, bütün layihələri yığışdırın, atam bu yeri qardaş ölkəyə verib. Qərar veriləndə, əminəm ki, bu bina tikiləcək və Şavkat Miromonoviç bundan xəbər tutan kimi, biz aktiv şəkildə qarşılıqlı fəaliyyətə başlayanda, qərar qəbul etdi və indi gözəl bina tikilib. Amma bu, indi təkcə Özbəkistan torpağının bir hissəsi olmayacaq, həm də bu gün Bakı şəhərinin mərkəzi yerlərindən birində təməli qoyulacaq "zbəkistan"` parkının, ən perspektivli, müasir urbanizm layihəsi olan "Ağ şəhər"də, bu layihənin tam mərkəzində, demək olar ki, 5 hektara yaxın ərazidə "zbəkistan"` parkı yaradılacaq. Bu layihənin təqdimatı keçən il mənim dövlət səfərim zamanı olmuşdu. Bu müddət ərzində layihənin razılaşdırılması, torpaq sahələrinin ayrılması, infrastrukturun yaradılması istiqamətində işlər görülüb, ərazi artıq köhnəlmiş tikililərdən təmizlənib. minəm` ki, qısa müddətdə Bakı şəhərində zbəkistanın` gözəl guşəsi yaradılacaq. Bu, həm də vətəndaşlarımızın, xarici turistlərin məmnuniyyətlə gələcəyi bir yer olacaq. Burada yeganə, bəlkə də mənfi cəhət o olacaq ki, xarici turist Bakıya gəlib bu parka gedirsə, sonra zbəkistana` getməyə bilər, çünki o, hər şeyi əsasən burada görəcək. Düşünürəm ki, bu, əlbəttə, bir zarafatdır. Bu, bir daha bizim qardaşlıq münasibətlərimizin təzahürüdür. minəm` ki, belə layihələr çox olacaq. Özbəkistanda daha çox turizm infrastrukturu layihəsi həyata keçiriləcək. Bu gün hələ çox işimiz var. Beləliklə, ölkələrimizin ictimaiyyətini məlumatlandıracağıq.

Şavkat Miromonoviçlə ilk görüşümüzdən sonra biz hökumət üzvlərinə tapşırıq verdik ki, öz işlərini ləyaqətlə yerinə yetirsinlər. Bilsinlər ki, biz mütəmadi olaraq monitorinq aparıb yoxlayacağıq, bunu da edirik. Səfərlər müntəzəmdir, həm də biz beynəlxalq təşkilatlar, sammitlər və digər konfranslar çərçivəsində tez-tez görüşürük. Tez-tez telefonla əlaqə saxlayırıq, ona görə də hamı bilir ki, bütün göstərişlər yerinə yetirilməlidir.

Mən bir daha əziz qardaşıma ölkəmizə belə xoş münasibətə, bu səfərə görə minnətdarlığımı bildirmək istəyirəm. Sabah biz Qarabağda birlikdə olacağıq. Bu, Şavkat Miromonoviçin Qarabağa ilk səfəri deyil və biz bundan sonra da birlikdə çalışacağıq, dost, qardaş olacağıq.

Hörmətli Şavkat Miromonoviç, bir daha xoş gəlmisiniz.

*

Sonra zbəkistan` Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatla çıxış etdi.

## Prezident Şavkat Mirziyoyevin bəyanatı

` Hörmətli İlham Heydər oğlu, belə səmimi qəbula və qonaqpərvərliyə görə bir daha dərin təşəkkürümü bildirmək istəyirəm. ünki` ilk dəqiqələrdən etibarən həm mən, həm də nümayəndə heyətimizin üzvləri çox isti münasibəti hiss edirik. Biz qardaşlarımızın yanına gəlmişik və bu gün burada hər şey öz evimizdəki kimidir. lkə` inkişaf edir, böyük dəyişikliklər müşahidə edirəm. ziz` qardaşlar, dostlar və çox yaxın xalqlar olaraq biz zbəkistanda` Azərbaycanın uğurlarına ürəkdən sevinirik.

İqtisadiyyat artır, investisiyalar artır və bütün bunlar Azərbaycan Prezidenti, dostum və qardaşım İlham Heydər oğlunun gündəlik, yorulmaz əməyinin bəhrələridir. Azərbaycanda həyata keçirilən bir çox işləri öyrənir, təhlil edir və bu təcrübəni mənimsəyirik. Keçən il İlham Heydər oğlunun tarixi səfərindən sonra biz Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Siz bilirsiniz ki, bu, diplomatiya və siyasətdə ən böyük nailiyyətdir. Nə barədə razılaşırıqsa, onu da icra edirik, həll edirik.

Bugünkü səfər də tarixi xarakter daşıyacaq. Biz səfirliyin binasını açırıq. Bu, çox şeydən xəbər verir. Bu, tamam başqa bir layihədir. Mən bu layihəni dəfələrlə müzakirə etmişəm, çünki o, Azərbaycanın standartlarına uyğun olmalıdır. Bu gün səfirliyin binasını açacağıq və İlham Heydər oğlu da bunu qiymətləndirməlidir. Bizim inşaatçılar çox çalışdılar, çünki biz Bakının



və bütün şəhərlərin necə tikildiyini görürük. İndicə Qarabağ haqqında söhbət açıldı. Füzulidə məktəb tikməyə başlayanda Azərbaycan layihələrinə layiq olmalı idik. Biz istəyirdik ki, bu, uşaqlar üçün ən gözəl yer olsun. Fikrimcə, buna nail olduq, çünki açılış zamanı uşaqların gözlərindəki sevinci gördüm və bu, bizim birlikdə nail olduğumuz ən böyük işdir.

Bu gün biz danışıqlarda bütün məsələləri` beynəlxalq, regional, ikitərəfli, həssas məsələləri müzakirə etdik. ünki` bugünkü qeyri-sabit dünyada məsləhətləşmək, fikir mübadiləsi aparmaq lazımdır. Məmnuniyyətlə demək istəyirəm ki, ciddi məsələlər üzrə fikirlərimiz üst-üstə düşür. Biz bu fikirləri bütün platformalarda irəli aparacağıq, çünki bu gün birləşməli, Azərbaycan və zbəkistan` xalqları üçün vacib olan məsələləri həll etməliyik. Biz bütün istiqamətlər üzrə ətraflı danışdıq. Buraya energetika, nəqliyyat kommunikasiyaları, dağ-mədən sənayesi daxildir. Mədəniyyət və təhsil mübadilələri barədə danışdıq. Bilirsiniz, mən çox məmnunam. Mən İlham Heydər oğluna, həmçinin dedim ki, biz telefon danışıqlarımızda, beynəlxalq platformalarda görüşlərimizdə, oradakı vəziyyət necə olursa-olsun, ikitərəfli hədəflərimi - dən danışırıq.

Bu gün məmnuniyyətlə qeyd etmək istəyirəm ki, real nəticələr var. Bütün razılaşmalarımız icra olunur. Bu gün də qarşıya iddialı hədəflər qoyduq, layihə portfelimiz böyük idi. Fondumuz işləyir, bir çox layihələr əməldə həyata keçirilir. Real nəticələr var. Belə ki, biz bütün bu məsələləri həll etdik.

Hörmətli jurnalistlərə demək istəyirəm ki, gələcək üçün çox böyük iddialı bir proqramımız var. Bir daha İlham Heydər oğluna təşəkkür edirəm ki, Azərbaycanda olan sahibkarlarımızı və bütün birgə layihələrimizi dəstəkləyir. Bilirsiniz, bu, iki ölkənin qarşılıqlı dəstəyidir. Bu gün sevinclə demək istəyirəm ki, ötən ay Xivədə "Baxşı" müsabiqəsi keçirildi və Azərbaycandan gələn ansambl Qran-Pri qazandı. Bu da göstərir ki, biz birlikdə irəliləyirik.

Mən, həmçinin futbol komandamıza görə də İlham Heydər oğluna çox təşəkkür edirəm. Bu, təsadüfi deyil, çünki biz İlham Heydər oğlu ilə idman barədə çox danışırıq. Azərbaycanın minifutbol üzrə yığmasını bir daha təbrik edirəm. Onlar dünya çempionu oldular. Təbrik edirəm. Biz Azərbaycan futbolçularının uğurlarına sevinirik. Qərara aldıq FIFA-ya birlikdə müraciət edək ki, Azərbaycan və zbəkistan` bu kateqoriyada futbol üzrə dünya çempionatını birgə təşkil etsinlər. Düşünürəm ki, bu, gənclərimiz üçün ortaq uğur olacaq.

Qeyd etmək istəyirəm ki, danışıqlarımızdan, nailiyyətlərimizdən, birgə işlərimizlə bağlı bütün məsələlər üzrə perspektivli qərarlarımızdan çox məmnunam. ziz` qardaşım İlham Heydər oğluna belə məzmunlu, dostcasına və qarşılıqlı faydalı əməkdaşlığa görə təşəkkürümü bildirirəm. İlham Heydər oğlu bizə başqa cür yanaşır və biz bütün bunları qiymətləndiririk. Özbəkistan və zbəkistan` Prezidenti də eyni münasibət bəsləyir. Bizim yaxşı nəticələrimiz var. Mən əminəm ki, gələcək üçün yaxşı perspektivlərimiz olacaq.

Çox sağ olun!

# Bakıda "Özbəkistan" parkının təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyulun 2-də Bakıda "zbəkistan"` parkının təməlini qoyublar.**

"zbəkistan"` parkı böyükmiqyaslı mədəni-rekreasiya layihəsidir. Burada Özbəkistanın, o cümlədən Daşkənd, Səmərqənd, Buxara, Xivə və Kokand regionlarının zəngin tarixini, memarlığını və mədəniyyətini əks etdirəcək nadir mühit yaradılacaq. Sahəsi 5 hektar olacaq park zbəkistanın` xəritəsi formasında salınacaq. Burada muzey, kinoteatr, amfiteatr, qüllə, Özbəkistanın milli mətbəx nümunələrinin təqdim olunacağı restoran və kafelər, ticarət zonası, suvenir və hədiyyələr mağazaları, zoopark, mehmanxana da fəaliyyət göstərəcək. Parkın əsas obyektləri Buxara, Səmərqənd və Xivədəki memarlıq nümunələri olacaq.







Qeyd edək ki, "Bakı Ağ Şəhər"də salınacaq bu park Azərbaycan və zbəkistan` dövlətləri və xalqları arasında tarixən mövcud olan qardaşlığın, dostluğun rəmzidir. Bu parkın salınması ilə xalqlarımızın mədəni əlaqələri daha da möhkəmlənəcək.

*

Sonra Azərbaycan Prezidenti İlham liyev` və zbəkistan` Prezidenti Şavkat Mirziyoyev "Bakı Ağ Şəhər"də olublar.



# Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev Özbəkistanın Azərbaycandakı səfirliyinin yeni binasının açılışında iştirak ediblər

**İyulun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev bu ölkənin Azərbaycandakı səfirliyinin Bakıda yeni binasının açılışında iştirak ediblər.**

Dövlət başçıları zbəkistan` səfirliyinin yeni binasının açılışını bildirən rəmzi lenti kəsdilər.

Prezidentlər İlham liyev` və Şavkat Mirziyoyev səfirliyin binasının infrastrukturu ilə tanış oldular, burada diplomatlar üçün yaradılmış şəraitə baxdılar. Müasir tələblərə cavab verən yeni kompleks iki qardaş ölkə arasında çoxtərəfli strateji tərəfdaşlıq münasibətlərinin və müttəfiqliyin gələcək inkişafına yönəlib.

Bina ilə tanışlıqdan sonra Prezidentlər İlham liyev` və Şavkat Mirziyoyev səfirliyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.





# Azərbaycan və Özbəkistan prezidentləri "Sea Breeze" istirahət mərkəzində olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və zbəkistan` Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyulun 2-də Xəzər dənizinin sahilində yerləşən "Sea Breeze" istirahət mərkəzində olublar.**

"Sea Breeze"in təsisçisi Emin Ağalarov Azərbaycanın və zbəkistanın` dövlət başçılarına kurort ərazisində həyata keçirilən və qarşıdakı dövr üçün planlaşdırılan layihələr barədə məlumat verib.

Hazırda 500 hektar ərazini əhatə edən "Sea Breeze"də indiyədək 3 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. tən` dövr ərzində kompleksin ərazisində 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. razidə` artıq 20 min sakin yaşayır və 2028-ci ilə qədər onların sayı 50 mindən çox olacaq. Bütövlükdə layihə tam başa çatdırıldıqdan sonra burada 500 min sakin yaşayacaq. Bundan başqa, ümumilikdə, 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımadanın yaradılması nəzərdə tutulub.

İstirahət zonaları, parklar və çimərliklər üçün artıq 150 hektardan çox ərazi ayrılıb. Kurort-şəhərdə sakinlər və qonaqlar üçün rahat şəraitin yaradılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili məqsədilə zəruri infrastruktur qurulub, məktəb, uşaq bağçası, xəstəxana tikilib. Aparılan abadlıq işləri çərçivəsində təxminən 10 milyon bitki və ağac əkilib, nəticədə yaşıllıq sahələrinin ümumi ərazisi 300 hektara çatıb.

Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən və müxtəlif formatda çoxsaylı daşınmaz əmlak obyektlərini bir araya gətirən "Sea Breeze" dünya miqyasında nadir layihə hesab olunur. Onun əsas layihələri sahilboyu yerləşir.





Hazırda "Sea Breeze" ərazisində 6560 nəfər işlə təmin olunub, gələcəkdə bu rəqəmin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Layihəyə qoyulan ümumi investisiyanın həcmi artıq 3 milyard ABŞ dollarına çatıb, növbəti beş ildə isə 10 milyard dollardan çox sərmayə cəlb olunması nəzərdə tutulur. Qeyd edək ki, ərazidə məşhur özbək brendi olan "The Choyxona" restoranı da fəaliyyət göstərir.

Həmçinin Emin Ağalarov arvak` su anbarında həyata keçiriləcək "Sea Breeze Uzbekistan" layihəsinin yenilənmiş master-plan konsepsiyasını təqdim edib.

***AZƏRTAC***

# Azərbaycan–Özbəkistan strateji tərəfdaşlığı: ortaq tarixdən ortaq gələcəyə

**Azərbaycan bu gün Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və inkişafın əsas dayağına çevrilib. Uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz yalnız regionda deyil, qlobal miqyasda da etibarlı tərəfdaş kimi qəbul olunur. Bu reallıqlar fonunda Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əlaqələrin möhkəmləndirilməsinə xüsusi önəm verir. Bu sırada Özbəkistanla münasibətlər strateji mahiyyət daşıyır.**





Azərbaycanla zbəkistanı` yalnız siyasi və iqtisadi maraqlar deyil, həm də tarixi köklər, mədəni və dini ortaq dəyərlər birləşdirir. Hər iki xalq əsrlər boyu bir-birinə dayaq olub. lişir` Nəvainin Nizami Gəncəvidən ilham alması, Bakıda inşa edilmiş Buxara karvansarası, Qarabağdan çıxmış Yusif ibn Məhəmmədcan Qarabağinin Səmərqənddə dəfn olunması kimi faktlar ortaq yaddaşın göstəriciləridir.

Sovet dövründə də bu əlaqələr davam edib. 1930-cu illərin repressiyalarından qurtulan minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapıb. 1966-cı il Daşkənd zəlzələsinin bərpasında azərbaycanlı mütəxəssislərin iştirakı isə xalqlarımız arasında humanitar həmrəyliyin daha bir nümunəsidir.

Müstəqillik illərində bu münasibətlər yeni mərhələyə qədəm qoyub. mummilli` lider Heydər liyevlə` Prezident İslam Kərimov arasında qurulan dostluq bu əlaqələrin əsasını təşkil edib. 1997-ci ildə Ulu öndərin zbəkistana` səfəri strateji tərəfdaşlıq yolunda mühüm addım olub. Bu siyasət Prezident İlham liyev` və Prezident Şavkat Mirziyoyevin birgə səyləri ilə daha da güclənib.

İki ölkə daim bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib. Özbəkistan 2008-ci ildə Azərbaycanın işğal altındakı torpaqları ilə bağlı BMT qətnaməsinin lehinə səs verən yeganə Mərkəzi Asiya dövləti olub. 2021-ci ildə TDT Zirvəsində Prezident Mirziyoyev Azərbaycanı Qarabağın azad olunması münasibətilə təbrik edib. Füzulidə inşa edilən və 2023-cü ildə açılışı olan Mirzə Uluqbəy adına məktəb bu qardaşlığın əyani ifadəsidir.

Son illər ikitərəfli səfərlər intensiv xarakter alıb. Təkcə 2022-ci ildə Prezident İlham liyev` zbəkistana` üç dəfə səfər edib. Tərəflər arasında nəqliyyat, energetika, ticarət, logistika və humanitar sahələrdə əməkdaşlıq güclənib. "Azərbaycan və Özbəkistan hökumətləri arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm sənəddir.

2024-cü ilin avqustunda Prezident Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri əlaqələrin tarixində yeni səhifə açdı. Onun Füzuli və Şuşaya səfəri və imzalanan sənədlər strateji tərəfdaşlığın çoxşaxəli inkişafını təsdiqlədi.

Bundan əlavə, 2024-cü ilin noyabrında COP29 çərçivəsində Bakı şəhərində Azərbaycan, Qazaxıstan və zbəkistan` prezidentlərinin üçtərəfli görüşü baş tutdu. Görüş zamanı "yaşıl" enerji sahəsində strateji əməkdaşlığa dair saziş imzalandı. Bu sənəd gələcək texnoloji və ekoloji əməkdaşlıq üçün mühüm yol xəritəsidir.

tən` müddətdə Azərbaycan və Özbəkistan arasında 170-dən çox sənəd imzalanıb. Bu hüquqi baza, eləcə də liderlər arasında olan yüksək səviyyəli etimad münasibətləri gələcək əməkdaşlığın daha da möhkəmlənəcəyinə zəmanət verir. Eyni soy-kök və ortaq tarixə söykənən Azərbaycan–Özbəkistan əlaqələri bu gün Türk dünyasının həmrəyliyinə də real töhfə verir.

Şübhə yoxdur ki, bu qardaşlıq münasibətləri gələcəkdə də davam edəcək, xalqlarımızın rifahına və regionda dayanıqlı əməkdaşlığa xidmət göstərəcək.

# Əli Əsədov Əfqanıstanın Baş nazirinin müavini ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 2-də Əfqanıstanın Baş nazirinin müavini Əbdül Qani Baradarla görüşüb.**



Görüşdə Xankəndi şəhərində keçirilən İqtisadi məkdaşlıq` Təşkilatının (İT)` 17-ci Zirvə görüşünün əhəmiyyətinə toxunulub.

lkəmizin` 1992-ci ildə İƏT-ə qoşulduğu gündən regionda əməkdaşlığın inkişafına xidmət edən müxtəlif təşəbbüslərdə fəal iştirak etdiyi bildirilib. Qeyd edilib ki, Azərbaycanın müəllifi olduğu və iştirak etdiyi iqtisadi, enerji və nəqliyyat layihələri bütün İƏT ölkələri üçün faydalıdır.

Görüş zamanı Azərbaycan ilə Əfqanıstan arasında iqtisadi, ticarət, tranzit və humanitar sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub.

Eyni zamanda, Azərbaycan–Özbəkistan-fqanıstan` üçtərəfli əməkdaşlıq formatı çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər nəzərdən keçirilib.

*XQ*

# Əli Əsədov Şimali Kiprin Prezidenti Ersin Tatarla görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 2-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşüb.**

Görüşdə İqtisadi məkdaşlıq` Təşkilatında müşahidəçi dövlət statusuna malik olan Şimali Kiprin Prezidentinin İƏT-in Xankəndi şəhərində keçirilən 17-ci Zirvə görüşündə iştirakının önəmi vurğulanıb.

Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında son dövrdə müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirildiyi qeyd edilib.

Söhbət zamanı bir sıra sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

*XQ*

# Ersin Tatar AzTU-nun Fəxri doktoru oldu






**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatara Azərbaycan Texniki Universitetinin Fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilib.**

Ersin Tatarın Türk dünyası birliyi üçün xidmətlərindən danışan AzTU-nun rektoru Vilayət Vəliyev onun qardaş xalqların bir-birinə daha da yaxınlaşması, milli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl və qətiyyətli fəaliyyətini xüsusi vurğulayıb.

AzTU-nun elmi katibi Vəfa Rzayeva universitetin Elmi şurasının 2025-ci il iyunun 12-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatara Fəxri doktor diplomunun verilməsi ilə bağlı qərarını oxuyub. Vilayət Vəliyev Ersin Tatara Fəxri doktor diplomunu təqdim edib.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti bu mötəbər diplomu alması ilə bağlı təşəkkürünü bildirib. O, gündən-günə inkişaf edən Şimali Kipr Türk Cümhuriyyəti və Azərbaycan münasibətlərindən də danışıb. Bu münasibətlərin inkişafında Prezident İlham liyevin` böyük xidmətləri və dəstəyini xüsusi vurğulayan Ersin Tatar bir daha Azərbaycan dövlətinə, Prezidentinə və xalqına təşəkkürünü bildirib.

*XQ*

# Milli Məclisin komissiyası ölkəmizə qarşı informasiya kampaniyasını pisləyib

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmiz əleyhinə qarşı aparılan informasiya kampaniyasına dair açıqlama yayıb.**



Açıqlamanı təqdim edirik: "Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının öz səlahiyyətləri çərçivəsində apardığı monitorinqlər nəticəsində müəyyən edilib ki, Rusiyanın Yekaterinburq şəhərində həmvətənlərimizə qarşı edilən qanunsuz hərəkətlərdən sonra Rusiya mediasında, habelə teleqram platformasında müxtəlif xəbər kanalları və şəxslər tərəfindən Azərbaycana və Rusiyada yaşayan azərbaycanlılara qarşı geniş informasiya kampaniyası başladılıb.

Araşdırmalarımız zamanı soydaşlarımıza göstərilən aqressiv davranış və qeyri-insani münasibətin adıçəkilən resurslarda da geniş təbliğ olunması və Azərbaycana qarşı qeyri-dost addımların atılması ilə bağı təxribatçı çağırışlar müşahidə edilib.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya Milli Məclisin müvafiq komitələri, Aparatı və digər dövlət orqanları ilə əlaqələndirilmiş şəkildə ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyaları ilə bağlı qabaqlayıcı tədbirlər görür.

Komissiya davam edən informasiya kampaniyasının fonunda vətəndaşlarımızı və xaricdə yaşayan həmvətənlərimizi yalnız Azərbaycanın dövlət qurumları və rəsmiləri tərəfindən verilən məlumatlara istinad etməyə və inanmağa çağırır".

*XQ*

# Rusiyadan cinayətkarların cəzalandırılacağını gözləyirik

**Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.**



Xarici işlər nazirinin müavini Araz Əzimov ilə keçən görüşdə Rusiya tərəfinin iki ölkə arasında münasibətlərə xələl gətirən qeyri-dost hərəkətləri və addımları ilə bağlı etiraz qarşı tərəfin diqqətinə çatdırılıb.

İyunun 27-də Yekaterinburq şəhərində azərbaycanlıların yaşadığı evlərə Rusiya hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən basqınlar zamanı qanunazidd əməllər nəticəsində iki həmvətənimizin həlak olması və bəzilərinin ağır bədən xəsarətləri nəticəsində yaralanması ilə bağlı dərin narahatlıq bir daha diqqətə çatdırılıb.

Baş vermiş hadisə ilə bağlı Rusiyanın izahatının həlak olmuş həmvətənlərimizin üzərində olan kəskin zorakılıq izləri və ekspertiza rəyi ilə ziddiyyət təşkil etdiyi bildirilib. Reydlərlə bağlı Rusiya mediasında etnik dözümsüzlük təzahürlərinin müşahidə olunduğu, azərbaycanlılara münasibətdə "etnik cinayətkar qrup" kimi ifadələrdən istifadənin qəbuledilməz olduğu vurğulanıb. Həmçinin Azərbaycanın Rusiya hüquq-mühafizə orqanları tərəfindən yol verilmiş qanun pozuntuları ilə bağlı Rusiya tərəfindən hərtərəfli və obyektiv araşdırma aparılacağını və günahkarların cəzalandırılacağını gözlədiyi bir daha diqqətə çatdırılıb. Bununla bağlı Azərbaycan tərəfinin mövqeyinin Rusiyanın daxili işlərinə müdaxilə kimi qələmə verilməsinin əsassız olduğu qeyd edilib.

Görüş zamanı Azərbaycan tərəfindən "Sputnik-Azərbaycan"ın ofisində həyata keçirilən tədbirlərlə bağlı Rusiya tərəfinin iradlarının əsassız olduğu bildirilib, "Sputnik-Azərbaycan"a münasibətdə görülən tədbirlərin Azərbaycanın qanunvericiliyinə uyğun şəkildə həyata keçirildiyi və hazırda istintaq tədbirlərinin davam etdiyi qeyd olunub.

tən` ilin sonundan münasibətlərə mənfi təsir edən Azərbaycan Hava Yollarına məxsus təyyarənin Rusiyanın hava məkanında vurulmasından sonra zəruri müvafiq tədbirlərin görülməməsinin və real vəziyyətin təhrif edilməsi cəhdlərinin, eləcə də Rusiya mediasında bir sıra rəsmi şəxslər və media nümayəndələri vasitəsilə ölkəmizə qarşı dezinformasiya kampaniyasının aparılmasının qəbuledilməz olduğu bildirilib. lkəmizin` bu fəlakətlə bağlı Rusiya tərəfindən tam və şəaf` araşdırma aparılmasını, təqsirkarların müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmasını, zərərçəkənlərə kompensasiya ödənilməsini gözlədiyi, bu addımların ikitərəfli münasibətlərdəki mənfi əhvali-ruhiyyənin aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Görüşdə, həmçinin son 4-5 ayda Rusiyanın ictimai-siyasi nümayəndələri və media qurumları tərəfindən ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə, Azərbaycan xalqına qarşı bəyanat və çıxışlarının ikitərəfli münasibətlərə mənfi təsir edən amillər sırasında olduğu qeyd edilib. Beləliklə, Rusiya Federasiyasının yuxarıda sadalanan hərəkətlərinin iki ölkə arasında dostluq və qarşılıqlı hörmət ruhuna zidd olduğu, əlavə gərginliyin yaranmasına səbəb olduğu və ikitərəfli münasibətlərə mənfi təsir göstərdiyi səfirin diqqətinə çatdırılıb.

Rusiya tərəfi ölkələrimiz arasında ikitərəfli münasibətlərdə gərginliyin və mənfi əhvali-ruhiyyənin aradan qaldırılması məqsədilə müvafiq tədbirlər görməyə çağırılıb.

*

**Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibinin və Rusiyanın ölkəmizdəki səfirliyinin 2 iyul tarixli bəyanatlarında guya Azərbaycanda səfərdə olan Rusiya vətəndaşlarına və onların ailə üzvlərinə qarşı hüquq-mühafizə orqanları tərəfindən fiziki güc tətbiq edildiyi, habelə həbs olunmuş Rusiya vətəndaşlarına konsulluq dəstəyinin göstərilməsi ilə bağlı Rusiyanın rəsmi müraciətlərinə Azərbaycan tərəfindən cavab verilmədiyi iddiaları əsassızdır.**

Bu barədə Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.

"Azərbaycan tərəfindən saxlanılan və həbs edilmiş qruplaşmalar, eləcə də ölkəmizdə qanunsuz fəaliyyət göstərən "Sputnik-Azərbaycan" filialında çalışan Rusiya vətəndaşları ilə bağlı Azərbaycan tərəfinin rəsmi mövqeyi ictimaiyyətə açıqlanıb.

Konsulluq dəstəyi məsələsinə gəldikdə, Rusiya tərəfindən 30 iyun və 1 iyul tarixlərində XİN-ə daxil olmuş müraciətlər dərhal aidiyyəti dövlət qurumuna ünvanlanıb və həbs olunmuş şəxslərin kimliyi və təhqiqat aparan səlahiyyətli qurum barədə müvafiq məlumat Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Konsulluq Konvensiyasının 39-cu maddəsinin 1-ci bəndinə əsasən Rusiya tərəfinə təqdim olunub. mumilikdə,` konvensiyaya uyğun olaraq müraciətlərə baxılması müddəti Rusiya tərəfinə məlumdur", - deyə Ayxan Hacızadə bildirib.

Onun sözlərinə görə, Rusiyanın müxtəlif şəhərlərində saxlanılan və cəzaçəkmə müəssisələrində olan Azərbaycan vətəndaşları ilə konsulluq görüşlərinin təşkil olunması üçün dəfələrlə edilmiş müraciətlərimizə Rusiya tərəfindən cavabların həftələrlə gecikdirilməsini Azərbaycan tərəfi heç zaman ictimailəşdirərək siyasiləşdirməyib: "Qeyd edilənləri nəzərə alaraq, Rusiya tərəfini vəziyyəti süni şəkildə daha da gərginləşdirən addımlardan və bəyanatlardan çəkinməyə çağırırıq".

*XQ*

# Yekaterinburqda yeddinci azərbaycanlı həbs edilib



**Yekaterinburqun Lenin Rayon Məhkəməsi istintaqın vəsatətini təmin edərək Azərbaycan diasporunun üzvlərinə qarşı iş üzrə yeddinci təqsirləndirilən şəxs Kamal Səfərov barəsində həbs qətimkan tədbiri seçib.**

Bu barədə məhkəmənin mətbuat xidmətindən məlumat verilib. Rəsmi açıqlamaya görə, Səfərov barəsində 2025-ci il iyulun 19-dək müddətə həbs qətimkan tədbiri seçilib.

(əvvəli 1-ci səhifədə)

# Rusiya üçün müttəfiqlik anlayışı – “Zatulin indiqatoru”





lbəttə,` kağız üzərindəki müttəfiqliyə əsaslanmış dəstək prosesinin gec yaşanması ilə bağlı Qərbin riyakarlığı da vurğulanmalıdır. Ancaq həmin Qərb Moskvanın müttəfiqlik münasibətlərindən heç nə anlamadığını dərk edirdi. Ona dünyaya kommunizm bəlasını ixrac etməyə köklənmiş güclü və qəddar SSRİ-nin mövcudluğu sərf etmirdi. Buna görə maksimum çalışırdı ki, savaşda ölkənin resursları tükənsin və istəyinə çatdı. Deməli, ortada həqiqi müttəfiqlikdən söhbət gedə bilməzdi.

Digər tərəfdən, Rusiya müttəfiqliyi bacarmayıb. Məsələ yalnız rus dövlətinin deyil, eləcə də ictimai fikrinin anlayışında vassallıq kimi qəbul edilib. Daha doğrusu, Rusiya müttəfiq kimi qələmə verdiyi ölkəni özünün təbəəsi qiyafəsində görüb. Fikrimizin ən yaxşı örnəyi elə keçmiş SSRİ-nin özü, dövlətin strukturudur. Axı Rusiyanın hakim rol oynadığı bu imperiya müttəfiq respublikaların birliyi sayılsa da, birlik anlayışı yalnız sözdə idi.

Birincisi, hakim rus idarəçiliyi həmin respublikalara qurama strukturlar, ucqarlar olaraq yanaşır, onlardakı milli hissləri boğur, repressiyalar, qətllər törədirdi. İkincisi, SSRİ-nin ali rəhbərliyi müttəfiq respublikaların bir-biriləri ilə həqiqi dostluq münasibətləri saxlamalarına, əməkdaşlıqlarına imkan vermir, düşmənçilik toxumları səpir, imperiyalara xas ənənəvi “parçala və hökm sür” siyasəti yürüdürdü.

Rusiya eyni kursu Sovetlər Birliyinin süqutundan sonra da davam etdirdi. Nə rus dövləti, nə də ictimaiyyəti keçmiş müttəfiq respublikalara yanaşmada normal münasibətlər sistemi yaratmaq barədə nəinki düşündü, əksinə, əlinə düşən hər fürsətdə imperialist təfəkkürün müxtəlif təzahürlərini ortaya qoydu, iqtisadi və siyasi təzyiq üsullarını gündəmdə saxladı. Ermənistanla Azərbaycan arasındakı Qarabağ, Moldovada Dnestryanı, Gürcüstanda Abxaziya və Cənubi Osetiya ocaqları fikrimizin sübutudur. Hələ başqa konfliktli zonalar da olub və qalmaqdadır.

Nəhayət, onu da bildirək ki, SSRİ-nin süqutundan sonra Rusiyanın vassal münasibətinin ən parlaq nümunəsi Ermənistandır. Bu münasibətin otuz ilə yaxın davam etməsi nəticəsində Sovetlər Birliyindən miras qalmış qurama erməni dövlətçiliyi Kremlin dirijor çubuğu ilə hərəkətə gələn quldur qruplaşmadan başqa bir şey olmadı. Bu gün Rusiyaya bağlı iş adamı Samvel Karapetyan ağzını köpürdərək bəyanat verib sadə ermənilərə problemsiz həyat vəd edir. Problemlər hər dövlətdə var. Görəsən, Karapetyan bunun həlli üçün nə möcüzə icad edib` O, heç nə edə bilməz. ünki` Şimaldakı ağalarının məqsədi başqadır.

Həmin ağalar otuz ilə yaxın müddətdə Ermənistanı, erməni xalqının həyatını qara günə qoydularsa, siyasətdən anlamayan bir fiqurun hansısa inqilabi dəyişikliklərə imza atacağını gözləmək sadəlövhlükdür. Hesab edirik ki, ermənilər belə oyunlara rəvac verməyəcək və hələlik vermirlər. Bu səbəbdən Rusiyadan idarə olunan daxili müxalifət` revanşist və şovinist kəsim hərəkətə keçib. Həmin kəsimin məqsədi isə dövlət çevrilişi yolu ilə hakimiyyəti qəsb etməkdir. Hakimiyyətə qəsb etmək, Rusiyanı yenidən Ermənistana qaytarmaq, ikincini birincinin peykinə çevirmək, Moskvanın “səxavətinə” arxalanaraq yenidən “Qarabağ kitabı”nı açmaq. Beləcə, iki tərəfin uduşu nəzərdə tutulur. Rusiya Cənubi Qafqaza sahiblənəcək, Ermənistan isə Qarabağa. Moskva, eyni zamanda, Bakıya təsir imkanı qazanacaq, ölkəmiz hansısa güzəştlərə getmək məcburiyyətində qoyulacaq. Yəni, erməni revanşist-şovinizmi ilə Rusiyanın müştərək “planının” mahiyyətində məhz bu dayanır. Ermənipərəst Zatulinin də nəzərində canlandırdığı müttəfiqliyin göstəricisi məhz bu məkrdir.

Bəli, hazırda Azərbaycan–Rusiya münasibətləri zəminində yaşanan gərginlik, Rusiyada azərbaycanlılara qarşı start verilmiş etnik təmizləmə siyasəti rus dövlətinin və ictimai rəyinin acizlik nişanəsidir. Bu tendensiya fonunda zatulinlərin Azərbaycanı müttəfiqliyə sadiq qalmamaqda günahlandırmaları da həmçinin. sl` müttəfiqlik isə bərabərtərəfli münasibətlərdən qaynaqlanmalıdır. Azərbaycan və Rusiya arasında 2022-ci ildə imzalanmış sənəddə də belə qeyd olunub. Həmin bəyannamədə müttəfiqliyin konkret parametrləri açıqlanıb. gər` həmin parametrlər Rusiyanın anlayışında yalnız kağız parçası olmasaydı, ölkə ötən ilin dekabrında Qroznu səmasında vurduğu Azərbaycan təyyarəsinə görə məsuliyyəti öz üzərinə götürər, kompensasiyanın ödənməsini təmin edərdi. Amma etmədi.

vəzində` Rusiya ictimai rəyinin və mediasının təyyarə olayı ilə bağlı hər cür sərsəmliyə baş vurduğunu, mənasız versiyaları uydurduğunu gördük. Bütün bunların fonunda Azərbaycana qarşı hədyanlar yağdırıldığını da. Halbuki, problemin çox sadə həll yolu ola bilərdi. Görünür, təyyarə olayı ilə bağlı heç də sadə olmayan, xeyli mürəkkəb tərkibli məqamlar var ki, Rusiya üçün etiraf məntiqi həmin məqamlar qarşısındakı acizlik kimi qiymətləndirilməkdədir. Moskvanın “yeyə bilmədiyi” elə budur. Axı imperiya təfəkkürü var. Bu təfəkkürə görə ikinci, hətta üçüncü dərəcəli xalqlar və millətlər mövcuddur və onlar haqlı ola bilməzlər...

Rus imperializminin nəzərində ikinci dərəcəli xalqların inkişafa, tərəqqiyə çatmaları mümkünsüzdür. Həmin xalqlar yaxşı halda yalnız zarafat, habelə qeyri-ciddi münasibət predmetləridirlər. Bu baxış vaxtilə ermənilərin azərbaycanlılara qarşı münasibət konturlarını da müəyyənləşdirmişdi. Birincilər özlərini döyüşkən, bizi xırda ticarətçi qiyafəsində görürdülər. 44 günlük müharibə vaxtı sadə ermənilərin etiraflarına diqqət yetirəndə heyrətə gəlməyə bilmirsən. Elə düşünürmüşlər ki, azərbaycanlılar balacaboy, yöndəmsiz varlıqlardır. Məhz bu baxış və onun verdiyi arxayınlıq hissi Ermənistanın müharibə rüsvayçılığında öz rolunu oynadı.

Nəticə etibarilə, Rusiya müttəfiqliyi Ermənistana özünü arabanın kölgəsində yatıb həmin kölgəni özününkü bilən it obrazı qazandırdı. Qarabağ həmin obrazın leşləri üçün məzara çevrildi. Erməni cəmiyyəti bunu da nəzərə almalı, nəticə çıxarmalıdır. Nəticə çıxarmalıdır və dərk etməlidir ki, Rusiya müttəfiqliyi üçün dövlətçilik və erməni xalqı anlayışı yox, klan, qruplaşma baxışı var. Necə olur ki, Ermənistanda ruspərəst quldur klan hakimiyyətdə olanda ölkə müttəfiq idi, indi isə yox` Erməni cəmiyyəti bu barədə də ciddi düşünməlidir...

Rusiyanın, rus ictimai rəyinin Azərbaycana və azərbaycanlılara müttəfiqlikdən uzaq aşağılayıcı münasibətinin yanlışlığını tanınmış rusiyalı jurnalist Kseniya Sobçak da özünəməxsus şəkildə göstərib. O, 2013-cü ildə Bakıda keçirilmiş Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məzunlarının forumu ilə bağlı təəssüratlarını qələmə alarkən, paytaxtımızda gördüyü avanqard memarlığı Moskvada uzun illərdir hökm sürən “zövqsüzlük və nostalji memarlıq”la qarşılaşdırmış, Rusiyanın əsas şəhərinin durumunu “zövqə qarşı cinayət” adlandırmış və bunu sistemli idarəçilik problemindən doğan “estetik boşluq” kimi qiymətləndirmişdi. n` əsası isə xanım Sobçakın sözlərindən belə çıxmışdı ki, Rusiyanın vaxtilə ciddi qəbul etmədiyi, rişxənd və məsxərə predmetinə çevirdiyi azərbaycanlılar və Azərbaycan bu gün dünyanın ritmini tutur, inkişafa doğru gedir. Bunun fonunda isə Rusiya geriləyir.

Rusiya həm də müttəfiqlik əlaqələrini kölələrə münasibət zənn etdiyi üçün geriləyir. Axı müttəfiqlik həm də dostluq və əməkdaşlıq bağlarından qaynaqlanır. Dostluq üçün səmimiyyət, əməkdaşlıq üçün isə bərabərtərəflilik şərtdir. Rusiya nə səmimi olub, nə də hansısa dövləti özü ilə bərabər tutub. Müstəqillik illərində Rusiyada anti-Azərbaycan motivli qruplaşmalar mövcudluqlarını qoruyublar. O qruplaşmalar ki, “direktivlərini” birbaşa Kremldən alıblar. irkli,` üfunət qoxan ağızlarını yalnız Moskvanın göstərişi ilə açıb-bağlayıblar. Zatulin özü də həmin iyrənclərdəndir və indi bu iyrənc, şəxsiyyətini erməni lobbisinin “ianəsinə” təslim edən məxluq Azərbaycanı müttəfiqliyə xilaf çıxan ölkə kimi qələmə verir. Necə deyərlər, utanmayasan, oynamağa nə var ki` Amma utanmayan təkcə Zatulin deyil, eyni zamanda, beləsinin kəndirini açıb ortaya buraxanlardır. Onlar Azərbaycana mesaj verdiklərini düşünürlər. Nə deyirik düşünsünlər. Amma itin hürməsi karvanın keçməsinə mane ola bilməz.

***Ə.RÜSTƏMOV***
***XQ***

---

(əvvəli 1-ci səhifədə)

# Sülhü kim qoruyacaq?

### Çoxqütblü dünyaya keçid bəşəriyyəti hara aparır?

1991-ci ildən sonra ABŞ-ın siyasi, hərbi və iqtisadi gücü dünyada bir çox münaqişələrin qarşısını almaqda eektiv` vasitəyə çevrilmişdi. “Soyuq müharibə”nin başa çatması ilə yaranan geosiyasi vakuumu doldurmaq, yeni qayda və mexanizmlər qurmaq məsuliyyəti böyük ölçüdə Vaşinqtonun üzərinə düşdü. ABŞ liderliyində formalaşan beynəlxalq arxitektura` istər NATO vasitəsilə Avroatlantik məkanın





təhlükəsizliyinin təminatı, istərsə də BMT mandatlı hərbi əməliyyatlar çərçivəsində müdaxilələr` beynəlxalq münasibətlərdə “qoruyucu hegemonluq” anlayışını gündəmə gətirdi.

Balkanlardan Yaxın Şərqə qədər müxtəlif regionlarda tətbiq edilən bu model bir tərəfdən kütləvi qırğınların və etnik təmizləmələrin qarşısını alaraq qısa müddətdə nisbətən sabitlik yaratsa da, digər tərəfdən beynəlxalq hüququn selektiv tətbiqi, ikili standartlar və “kimin düşmən, kimin dost olduğuna” dair qərarların birtərəfli verilməsi ilə ciddi narazılıqlar doğurdu. İraqın işğalı, fqanıstanda` uzunmüddətli hərbi mövcudluq, Liviyada rejim dəyişikliyinə yönəlmiş müdaxilə siyasəti ABŞ-ın qlobal sabitliyin təminatçısı olmaq iddiasını zədələdi və “sülh naminə zorakılıq” dilemmasını aktuallaşdırdı.

Amma bütün tənqidlərə baxmayaraq, həmin dövrdə beynəlxalq nizamda müəyyən bir “aydınlıq” mövcud idi. Geosiyasi cəbhələşmələr, ittifaqlar və maraq zonaları konkret idi. Hegemon güc tərəfindən müəyyən edilən “qırmızı xətlər” daha aydın görünürdü. Bu isə paradoksal şəkildə olsa da, risklərin idarəolunan olduğu bir sistem yaratmışdı.

### Sabitlik, yoxsa hegemonluq?

Təkqütblülük dövründə sabitlik ABŞ-ın maraqları ilə uzlaşdığı qədər təmin edilirdi. İraqda, fqanıstanda,` Liviyada baş verənlər sübut etdi ki, bu sistem bəzən “nizamı qorumaq adıyla” xaos da yaradır. Amma bu sistemdə qüvvə balansı az-çox aydın idi. Kim dostdur, kim düşmən` bu məsələ aydın çərçivədə idi.

Hazırda dünya siyasətində ən azı beş əsas güc mərkəzindən danışmaq olar: ABŞ, in,` Rusiya, Avropa İttifaqı və Hindistan. Bundan başqa, Türkiyə, İran, Braziliya, Səudiyyə rəbistanı` kimi orta güclər də regional siyasətdə müstəqil manevr imkanları əldə ediblər. Mövcud vəziyyət isə yeni sualları gündəmə gətirir: Yeni güc mərkəzləri arasında “oyun qaydaları” varmı` Dünya artıq vahid beynəlxalq hüquq sisteminə tabe olmurmu?

oxqütblülüyün` ən böyük paradokslarından biri elə budur: qlobal güc balansı genişlənir, amma bu balansı tənzimləyəcək ortaq qaydalar sistemi zəifləyi . Bir vaxtlar “beynəlxalq hüquq” adlandırdığımız norma və prinsiplər toplusu indi artıq universal istinad çərçivəsi olmaqdan çıxıb. Hər bir güc mərkəzi` istər ABŞ, istər in,` istərsə də Rusiya və ya Avropa İttifaqı` öz milli maraqları fonunda “seçmə qaydalar” sistemi ilə çıxış edir.

Ukrayna müharibəsi bu təzahürün bariz nümunəsidir. ABŞ və Aİ Rusiyanın işğalına qarşı sərt sanksiyalar və hərbi dəstək strategiyası ilə cavab verir, bu isə onların “normativ güc” iddialarını gücləndirir. Digər tərəfdə isə in` neytrallığını qoruyaraq həm Rusiya ilə strateji tərəfdaşlığını saxlayır, həm də Qərblə iqtisadi əlaqələrini riskə atmamağa çalışır. Hindistan isə tamamilə fərqli bir yanaşma sərgiləyir` o, nə Qərbin siyasi basqılarına boyun əyir, nə də Rusiyadan enerji idxalını azaldır. ksinə,` bu fürsətdən istifadə edərək iqtisadi dividendlər toplayır.

Ortada vahid “oyun qaydaları” yoxdursa, deməli, oyunun özü də xaotik və proqnozlaşdırılmaz olur. Bəzi analitiklər bu durumu “post-liberal beynəlxalq nizam” kimi xarakterizə edirlər. Burada artıq nə Vaşinqton konsensusu işləyir, nə də BMT-nin normativ təsiri. Yeni reallıqda hüququn yerini maraq tutur, tərəfdaşlığın yerini isə müvəqqəti ittifaqlar alır.

Məhz bu fonda ən təhlükəli məqam odur ki, artıq heç kim tam şəkildə “doğru” və ya “yanlış” mövqe daşıyıcısı kimi qəbul olunmur. Hər bir aktor öz maraqlarını əsas tutaraq situativ yanaşmalar formalaşdırır. Bunlar isə beynəlxalq sistemin “norma əsaslı” deyil, “nəticə əsaslı” məntiq üzrə işləməsinə gətirib çıxarır.

Qısası, çoxqütblü dünyanın ilkin mərhələsi` qaydasızlıq mərhələsidir. Bu mərhələdə yaranan hüquqi qeyri-müəyyənliklər sabahın böyük geosiyasi toqquşmalarının zəminini hazırlaya bilər. Belə bir dünyada sabitlik təsadüflərə, sülh isə aktorların fərdi rasional davranışına bağlı olur.

### Yeni Dünya müharibəsi təhlükəsi

XX əsrdə baş verən iki dünya müharibəsi müəyyən sabitlik anlayışının olmaması, güc balansının pozulması və liderlik uğrunda rəqabət fonunda baş vermişdi. Günümüzdə də oxşar dinamika müşahidə olunur. ABŞ-la in` arasında Tayvan böhranı, NATORusiya` qarşıdurması, Yaxın Şərqdə İranİsrail` gərginliyi, HindistanPakistan` sərhəd mübahisələri` bütün bunlar regionallıq çərçivəsində qalsa da, qlobal münaqişəyə çevrilmək potensialına malikdir.

Bəs bəşəriyyət bu qədər nüvə silahının olduğu bir dünyada üçüncü dünya müharibəsinə gedə bilərmi` Bu, XX` əsrin ən fundamental və eyni zamanda, ən narahatedici suallarından biridir. Rəsmi cavab çox zaman belə səslənir: “xeyr, çünki qarşılıqlı məhvetmə bu ehtimalı praktiki olaraq sıfıra endirir”. Bu prinsipə əsasən böyük güclər arasında baş verəcək istənilən nüvə qarşıdurması təkcə bir tərəfin deyil, bütün bəşəriyyətin fəlakəti ilə nəticələnəcək. Elə bu qorxu, daha dəqiq desək, bu məhv perspektivi uzun onilliklər ərzində nüvə müharibəsinin qarşısını alıb.

Lakin müasir dünyada bu zəmanət əvvəlki qədər “zəmanətli” deyil. Birincisi, çoxqütblü və qeyri-sabit beynəlxalq sistemdə qərarların qəbul edilməsi prosesi daha da mürəkkəbləşib. Artıq təkcə iki supergüc (soyuq müharibə dövründə olduğu kimi) deyil, çoxsaylı regional və qlobal aktorlar oyun masasındadır və onların hər biri fərqli maraqlar, risk qiymətləndirmələri və siyasi impulslarla davranır. Bu amil isə səhv hesablamalar və gözlənilməz eskalasiyalar ehtimalını artırır.

İkincisi, müasir münaqişələr çox vaxt “nüvə eşiyində2 oynanır. Məsələn, Şimali Koreyanın nüvə testləri, Hindistan–Pakistan arasında Kəşmir böhranı zamanı hərbi ritorikanın sərtləşməsi, Rusiya ilə NATO arasında qarşılıqlı nüvə siqnalları` bunların hamısı göstərir ki, nüvə silahları, sadəcə, passiv qorxutma vasitəsi deyil, həm də siyasi alverin, psixoloji təzyiqin və strateji manipulyasiyanın alətinə çevrilib. Belə bir vəziyyətdə texniki səhv, kommunikasiya problemi və ya siyasi qərarsızlıq dramatik nəticələr doğura bilər.

çüncüsü,` “müasir dünya müharibəsi” artıq yalnız klassik anlamda` orduların qarşı-qarşıya gəldiyi, cəbhələrin müəyyən olduğu savaş formasında gözlənilmir. Bu gün kiberhücumlar, süni intellektin idarə etdiyi silah sistemləri, peyk rabitəsinin iflici və informasiya manipulyasiyası kimi “hibrid elementlər” nüvə müharibəsinin astanasına gətirə biləcək risklər yaradır. gər` süni intellekt və ya avtomatlaşdırılmış qərar sistemləri səhvən təhdid yaradarsa, insan nəzarətindən kənar destruktiv nəticələrə səbəb ola bilər.

Digər tərəfdən, bəşər tarixi göstərir ki, sülh heç zaman əbədi olmur. ksinə,` o, daim qorunmalı və yenidən qurulmalıdır. Beynəlxalq təşkilatların zəifləməsi, diplomatik institutların inamsızlıqla üzləşməsi və gücə əsaslanan siyasətin güclənməsi o deməkdir ki, heç bir təhlükə tamamilə istisna edilmir. Bugünkü texnologiyalar və silahlanma səviyyəsi konvension münaqişələrin qlobal fəlakətə çevrilməsi üçün yalnız bir neçə qərar məsafəsində olduğunu göstərir.

Nəticə olaraq qeyd edilməlidir ki, dünya çoxqütblülüyə doğru gedir, bu qaçılmazdır. Amma bu keçidin ən böyük təhlükəsi liderlik boşluğudur. Hər kəs özünü güc mərkəzi hesab etdikdə, universal maraqlar, ortaq dəyərlər və ümumi oyun qaydaları pozulur. Bəs o zaman yeni çoxqütblü dünyada kim sülhün daşıyıcısı olacaq?

BMT-nin zəiflə iyi, NATO-nun bir maraq dairəsinə xidmət etdiyi, in` və Rusiyanın isə öz standartlarını irəli sürdüyü bir mühitdə bu suala cavab tapmaq çətindir. Elə bu səbəbdən hazırkı dövr “nizamlı xaos” dövrü kimi dəyərləndirilə bilər. Sülh hələ də mümkündür, amma onun təminatı artıq tək bir gücün öhdəsində deyil. Bəlkə də ən vacib sual budur: Bəşəriyyət birlikdə idarə olunmağı, yoxsa parçalanaraq mübarizə aparmağı seçəcək` Bu suala veriləcək cavab gələcəyimizin istiqamətini müəyyən edəcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycanın “qırmızı xətti”: müstəqilliyimiz əbədidirÈ



**Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək.**

*Heydər ƏLİYEV,*
*Ümummilli lider*

**III MƏQALƏ**

## Siyasətin gücü

Müstəqilliyin qorunması və suverenliyin təmini güclü siyasət tələb edir. XX` əsrin gerçəklikləri elədir ki, dövlətin müstəqilliyinin təmini hər şeydən öncə aparılan siyasətdən asılıdır. Bəlkə də bu tezis keçən əsrin ortalarına qədər adi görünə bilərdi. Və ya, “tarixən belə olmuşdur”, kimi reaksiya verilərdi.

Ancaq XX əsrin ilk 50 ilində dünyada dövlətlərarası münasibətlərin tənzimlənməsində əsas rolu hansı faktorların oynadığına reallığın “gözü” ilə baxsaq, mənzərənin heç də sadə olmadığını görərik. 1914 ` 1918-ci illər ` Dünya müharibəsi və 1939-1945-ci illər II Dünya müharibəsi milyonlarla insanı məhv etdi. Siyasət səmərəli olmadığına görə. Hər iki müharibəni bəşəriyyət üçün fəlakət adlandırırlar və tam haqlıdırlar. Millətlər Liqasını da 1946-cı ildə müharibənin qarşısını ala bilmədiyinə görə ləğv etmişlər.

Deməli, verilən vədlərə, imzalanan sazişlərə, bağlanan müqavilələrə baxmayaraq, siyasətin yetərsizliyi bəşəriyyəti həmişə fəlakətə sürükləmişdir. Buna görədir ki, dahi Hüseyn Cavid “kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü”,` kəlamı ilə insan varlığının təməl şərtini ifadə etmişdir.

Dövlət səviyyəsində bu, real sülhyönlü siyasət aparmaq deməkdir. Konseptual səviyyədə isə dövlət başçısının aydın məqsədli və dəqiq siyasi kurs müəyyən etməsidir ki, onun ana xəttini bütün məsələləri siyasi-diplomatik yolla həll etmək təşkil etsin.

Eyni zamanda, lider həmin siyasəti davamlı olaraq müsbət nəticəverici istiqamətdə həyata keçirə bilsin. Azərbaycan Prezidenti İlham liyev` yeni tarixi mərhələ üçün ölkənin xarici siyasətinin qayəsini yığcam formada belə ifadə etmişdir: müharibə olmamalıdır, hər bir məsələ siyasi yolla həll edilməlidir`

razi` bütövlüyü və suverenliyin təmini üçün başlıca üsulun siyasi-diplomatik fəaliyyətin seçildiyini dövlət başçısı hər zaman nümayiş etdirir. İndi Azərbaycan regionda və regionlararası miqyasda sülh, barış və əməkdaşlığın əsas təşəbbüskarlarından biri kimi çıxış edir.

lbəttə,` müstəqillik və suverenliyin siyasətin gücü ilə qorunması çox ağır bir vəzifədir. Lakin yalnız bu üsul əbədiyyən müstəqil olmağın ən etibarlı yoludur. Müasir dünyada siyasətlə dövləti qoruyan və inkişaf etdirən liderlər uğurlu strateq hesab olunurlar.

K.Adenauer barış strategiyasına görə Almaniyanın xilaskarı sayılır, nvər` Sədat İsraillə münasibələri dinc yolla həll etmək strategiyasına görə (“transendent strategiya”) xilaskar hesab edilir, Riçard Nikson “tarazlı strategiyası”na görə qlobal miqyasda münaqişələrin tənzimlənməsinə xeyli fayda vermişdir, Li Kuan Yu “mükəmməllik strategiyası” ilə ölkəsini inkişafa qovuşdurmuşdir və s. Onların hər biri böyük hərbi toqquşmalardan sonra ölkələrinin xilasını siyasi-diplomatik uğurlarda görə bilmişlər.

Azərbaycan Prezidenti həmin mənada XX` əsr üçün çox maraqlı siyasi kurs həyata keçirir. Onun müxtəlif özəlliklərinin siyasi-nəzəri dərk edilməsi əhəmiyyətlidir.

## Təxribatlara qarşı dayanıqlıq

2020-ci ildən sonra, gözlənildiyi kimi, Azərbaycan Respublikasına qarşı müxtəlif istiqamətlərdən təxribatlar törədilir. Onların əsas məqsədi Azərbaycanın müstəqil dövlət kimi mövqeyinin davamlı olaraq möhkəmlənməsinə və nüfuzunun dinamik olaraq artmasına əngəllər törətməkdən ibarətdir. Bu prosesi zaman-zaman və müxtəlif aspektlərdə aparırlar. Burada müəyyən mənada “kaskad” xarakterli, yəni arada məkan, zaman və ritm məsafəsi olan pilləvari prosessuallıq görürük. Onların atdıqları addımlar ümumi məqsədə və məntiqə malikdir, lakin hər kaskad mərhələ özünəməxsus məzmuna, formaya və üsula malikdir. Bundan başqa, bir kaskadın ritmi digərindən fərqlənir, lakin bütövlükdə, prosesin məntiqinə əməl olunur.

Dövlətin müstəqil siyasətini və bütövlükdə müstəqilliyini qorumaq üçün olduqca mürəkkəb bir mənzərə alınır. Ona qarşı səmərəli siyasi-diplomatik fəaliyyət yolu seçilməlidir ki, hər kaskadda (onun özünəxas ritmi və məzmunu olur) uğurlu olsun və həm də, ümumiyyətlə, kompleks halında səmərə versin.

Azərbaycan Prezidenti yeni tarixi mərhələdə bu mürəkkəb vəzifənin öhdəsindən uğurla gəlir. Rəsmi Bakı hər mərhələdə qarşıya çıxan məsələləri siyasi diplomatik üsulla həll edir və həm də növbəti mərhələ üçün münbit zəmin formalaşdırır. Son ayların bir neçə nümunəsində bu ümumnəzəri tezisin praktiki tətbiqinə baxaq.

## “Laçın üçlüyü”

Laçında Azərbaycan-Türkiyə-Pakistan üçlüyünün strateji əməkdaşlığının mahiyyəti, miqyası və məqsədi haqqında Prezident İlham liyev` konkret tezislər irəli sürmüşdür. Onlar aşağıdakılardır:

` lkələrimiz` enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib.

- Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminikĄ

- Müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhü və sabitliyi gücləndirirĄ

- Biz, həmçinin rəqəmsal innovasiyalar, süni intellekt və kosmik texnologiyalar kimi yeni əməkdaşlıq sahələrini araşdırmalıyıqĄ

- Birgə mədəni tədbirlər, akademik tərəfdaşlıqlar və turizm əlaqələrinin fəallaşması xalqlarımız arasındakı bağları daha da gücləndirəcəkdirĄ

- Beynəlxalq platformalarda və təşkilatlarda həmrəyliyimiz gücümüzə güc qatır. Birləşmiş Millətlər Təşkilatı, İslam məkdaşlıq` Təşkilatı, İqtisadi məkdaşlıq` Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), habelə D-8 kimi beynəlxalq platformalarda birgə səylərimizi daha da möhkəmləndirmək əzmindəyik.

Bu tezislərdə üç qardaş dövlətin bütün istiqamətlərdə əməkdaşlıq etməsinin mahiyyəti ifadə edilmişdir.

## Rusiya məsələsi

Azərbaycan Rusiya siyasətində tutduğu müstəqil mövqeni son günlər daha aydın şəkildə nümayiş etdirir. Məlum təyyarə hadisəsindən sonra Moskva ilə münasibətlər milli maraqlar, müstəqil və suveren dövlət çərçivəsindən zərrə qədər də kənara çıxmadan davam etdirilmişdir. Rusiyanın bir sıra dairələrinin təhrikedici və şantaj xarakterli mövqeyinə baxmayaraq, rəsmi Bakı kifayət qədər təmkin və məntiqlə müstəqil mövqeyini saxlamışdır. Azərbaycan ancaq siyasi-diplomatik formaya üstünlük vermişdir.

Yekaterinburqda Rusiyanın güc strukturlarının qeyri-peşəkar davranışına da Azərbaycan kifayət qədər aydın münasibət göstərməkdədir. Bəlkə də, çoxları gözləmirdi ki, (o cümlədən, Kremldə) Bakı son dərəcə cəsarətli və müstəqil addım atsın. Eyni zamanda, Azərbaycan yalnız siyasi-diplomatik aspektdə fəaliyyətə üstünlük vermişdir. Bütün dünyaya aydın oldu ki, ölkə rəhbərliyi istənilən situasiyada milli maraqlara söykənən müstəqil mövqe tutur.

Şübhəsiz ki, Azərbaycan rəhbərliyinin bu cür dik duruşu və ağıllı, beynəlxalq hüquq çərçivəsində olan addımı bir sıra dairələri çaşdırmışdır. Onlar Cənubi Qafqazda artıq kimliyindən asılı olmayaraq, hər bir dövlətə münasibətdə müstəqil mövqe nümayiş etdirməyə qadir lider ölkənin mövcudluğunu görürlər.

Bundan öncə, Azərbaycan başqa böyük dövlətlərə də eyni iradəni göstərmişdir. İran bir neçə dəfə sərt hərəkət etməyə çalışdı, lakin sonucda Azərbaycanın müstəqillik iradəsini qəbul etməli oldu.

ABŞ-ın və Avropanın (xüsusilə, Fransanın) təzyiq cəhdləri də uğursuz oldu.

Qardaş Türkiyədə bəzi dairələr Bakıya təzyiq etməyə cəhdlər göstərdilər, lakin dərhal qətiyyətli cavab aldılar.

“İbrahim övladları” ilə bağlı kimlərsə, Azərbaycana yol göstərmək işinə girişdi. Onlar da lazım olan cavabı aldılar.

İndi də Kreml eyni qətiyyət və inamlı davranışla üzləşmişdir. Rəsmi Bakı müstəqil Azərbaycanın maraqlarını tam ləyaqətlə təmin etməkdədir.

Bütün bunlar maraqlı bir nəticə çıxarmağa əsas verir.

## Müstəqillik Azərbaycanın “qırmızı xətt”i kimi

Azərbaycan rəhbərliyi üçün dövlətin və xalqın müstəqilliyi ilə bağlı ulu öndər Heydər Əliyevin irəli sürdüyü əsas prinsip dəyişməzdir` Yəni Azərbaycan bundan sonra heç zaman heç bir dövlətin təsiri altında olmayacaq` Xalqın iradəsinə əsaslanan bu dahiyanə tezis dövlətin əbədi müstəqilliyini təmin edəcək.

Vurğuladığımız anlamda müstəqilliyin dövlətin “qırmızı xətti” olması dərin mənaya və məzmuna malikdir. Ola bilsin ki, anlayış olaraq müstəqilliyin “qırmızı xətti” bəsit və ya çox mücərrəd təsiri bağışlasın. Lakin həmin nəzəri anlamı konkret praktiki tətbiqi fəaliyyət müstəvisinə keçirdikdə son dərəcə məsuliyyətli və yaradıcı yanaşma tələb edən feili faktor göz önünə gəlir.

Prezident İlham liyev` bu konteksdə XX` əsrdə Azərbaycan Respublikasının müstəqil dövlət kimi mövcudluğu və təhlükəsiz inkişafının nümunəsini yaradır. Bu proses hazırda bütün dinamikası ilə davam edir. Onun siyasi-nəzəri və fəlsəfi dərkinin eksklüziv olması tarixin tədqiqatçılara verdiyi şansdır` Həm də şərəfli məsuliyyətdirÈ

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Rusiyada media azadlığı iflasa uğrayıb

**Rusiya Jurnalistlər İttifaqı (RJİ) Bakıda “Sputnik-Azərbaycan”ın iki əməkdaşının saxlanılması ilə bağlı bəyanat verib. Bəyanatda əməliyyatı həyata keçirən güc strukturlarının hərəkətini “jurnalistlərin hüquqlarının kobud şəkildə pozulması” kimi yozan RJİ Azərbaycan hakimiyyəti qarşısında “saxlanılanların təcili azad edilməsi”, rusiyalı diplomat və vəkillərin “onların yanına buraxılmaları” tələbini qoyur. Bəyanata siyasi çalar qatan RJİ hadisəni, “sadəcə, söz azadlığına vurulan zərbə” deyil, ölkələrimiz arasında münasibətlərin “pisləşməsinə doğru atılan addım” saydığını bəyan edir. Sonda RJİ ultimativ formada jurnalistlərin hüquqlarını qorumaq üçün beynəlxalq təşkilatlara müraciət etdiyini vurğulayır. Bəyanatın yuxarıdan edilən sifarişin icrası olduğu şübhə doğurmur. Bəs RJİ Azərbaycana qarşı irəli sürdüyü tələb və iddialarında beynəlxalq hüquqa nə dərəcədə əməl edib? Bu və digər suallarımızı Azərbaycan Jurnalistlər Birliyinin sədri, Əməkdar jurnalist Elçin Şıxlı cavablandırır.**



**– Elçin bəy, Rusiya Jurnalistlər İttifaqı Bakıda “Sputnik-Azərbaycan”ın əməkdaşlarının saxlanılmasını jurnalistlərin hüquqlarının kobud şəkildə pozulması kimi qələmə verməyə çalışır...**

` Rusiya urnalistlər` İttifaqının “Sputnik-Azərbaycan”ın iki əməkdaşının saxlanılması və məhkəmənin onlar barəsində dörd aylıq həbs qəti-imkan tədbiri seçməsinə etirazını haradasa başa düşmək olar, amma heç cür haqq qazandırmaq olmaz. Söhbət ondan gedir ki, bir müddət bundan əvvəl Azərbaycan hökuməti bu qurumun respublika ərazisində fəaliyyətini dayandırıb. Həmin iki adam isə orada qalıb işləyirmiş. Təbii ki, Azərbaycan xüsusi xidmət orqanları o adamlar bura gəldikləri gündən kimliklərini yaxşı bilirdilər. Sadəcə olaraq, müəyyən prioritetlər, oyun qaydaları var ki, onlara əsasən toxunmurdular. Bəlkə nəzarət altında saxlamaqla heç toxunmayacaqdılar da. Fəqət Rusiya özü “qaşınmayan yerdən qan çıxardı”. Hesab edirəm ki, Rusiya urnalistlər` İttifaqının heç nədən hay-küy salmasına bəraət qazandırmaq olmaz. Növbətçi bir bəyanat veriblər, onun da elə böyük əhəmiyyəti yoxdur. Yəni, görməli olduqları işlərini yerinə yetiriblər. Biz onların bəyanatı ilə razılaşmırıq. ünki` “Sputnik-Azərbaycan” fəaliyyəti dayandırılmış bir media subyektidir. Həbs olunan iki adamdan birinin jurnalistikaya aidiyyəti yoxdur. İcraçı direktordur. Bəli, saxlanılıblar, istintaq orqanı öz işini görəcək və əgər günahları yoxdursa, ədalət məhkəməsi buna müvafiq sözünü deyəcək.




**– Bəs RJİ-nin saxlanılanların təcili buraxlılması tələbi qanunvericiliyə nə dərəcədə uyğundur?**

` Rusiyalı jurnalistlərin təcili şəkildə azadlığa buraxılması ilə bağlı tələb heç bir qanunvericiliyə uyğun sayıla bilməz. Sadəcə olaraq, bu, Rİ-nin` qarışqadan fil düzəltmək cəhdidir. Təkrar edirəm, saxlanılanların fəaliyyəti istintaq tərəfindən araşdırılacaq və əgər ortada qanun pozuntusu yoxdursa, məhkəmə öz qərarını açıqlayacaq. İki əməkdaşın sonrakı aqibəti məhz ondan sonra müəyyənləşəcək.

**– Onların istintaqın şəaf` aparılması, eləcə də Azərbaycan hakimiyyətindən izahat tələb etməsi peşə etikası ilə bir araya sığırmı?**

` Bir qayda olaraq, belə hallarda istintaq şəaf` şəkildə aparılır. Amma istintaq sirri deyilən bir anlayış da var. gər` istintaq imkan verdiyi təqdirdə araşdırmanın necə aparıldığı barədə ictimaiyyətə məlumat veriləcək. Konkret bu halda Rİ-nin` Azərbaycan hökumətindən hansısa izahatı tələb etməyə haqı yoxdur. Hər şey istintaqın gedişində məlum olacaq.

**– Kəşfiyyat fəaliyyətində şübhəli bilinən agentlik əməkdaşlarının saxlanılmasının iki ölkə arasında münasibətləri pisləşdirəcəyi iddiası nə dərəcədə məntiqidir?**

` Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlıların vəhşicəsinə döyülərək saxlanılması nə dərəcədə məntiqidirsə, Rusiya urnalistlər` İttifaqının iddiası da o dərəcədə məntiqidir. Belə çıxır ki, orada soydaşlarımızın başına min oyun aça bilərsiniz, biz də susmalıyıq` Yada salaq ki, təxminən bir ay bundan əvvəl Moskvada qırğızların da başına oxşar oyunlar açılmışdı. Amma onlar ağızlarına su alıb oturdular. Görünür, nədənsə ehtiyat ediblər. Hər halda Bakıda iki rus agentinin saxlanılmasının iki ölkə arasındakı münasibətlərə, təbii ki, müəyyən qədər təsiri olacaq. Amma dövlətlərarası münasibətlər bir bu hadisəyə görə kökündən dəyişə bilməz.

**– Sizcə, beynəlxalq təşkilatlara müraciət edənlərin niyyəti bu yolla Azərbaycana siyasi təzyiq göstərməkdir?**

` Bəli, beynəlxalq təşkilatlara müraciətin məqsədi Azərbaycana siyasi təzyiq göstərməkdir. Amma bu zaman rəsmi Moskva unutmamalıdır ki, bu gün Rusiyanın özünü beynəlxalq idman yarışlarına buraxmırlar. Yəni, müxtəlif növlər üzrə beynəlxalq idman federasiyalarının təşkil etdikləri yarışlarda Rusiya yığması vahid komanda kimi təmsil oluna bilmir. gər` onlar beynəlxalq təşkilatlara bu qədər hörmətlə yanaşırlarsa, nəyə görə Rusiya beynəlxalq hüququ tapdayır` Bu ölkə müharibə elan etmədən Ukraynaya hücum həyata keçirib və onun torpaqlarını işğala məruz qoyur. Yəni, Moskva özünü quldurbaşı kimi aparır, amma özünə qarşı kiçik bir hərəkət olanda dərhal beynəlxalq təşkilatlar, beynəlxalq hüquq yadına düşür. Axı, bu, heç də belə deyil...

**– Ümumiyyətlə, Kremlin ayrı-ayrı media subyektlərindən, jurnalistlərdən siyasi oyunlarda alət kimi yararlanması sirr deyil. Bu “təcrübəyə” münasibətiniz necədir?**

` Son illər bizim gəldiyimiz qənaət ondan ibarətdir ki, Rusiyada jurnalistika adına heç nə qalmayıb. Peşəkar, obyektiv, öz sözlərini demək istəyənlərin başlarına elə oyunlar açdılar ki, bəxti gətirənlər Rusiyadan xaricə qaça bildilər. Onlar ölkədən kənarda nəsə eləməyə çalışırlar. Daxildə isə Kremlin təbliğat və təşviqatından başqa jurnalistika fəaliyyəti sıfıra bərabərdir. Həm də buna görə Rusiya urnalistlər` İttifaqının başqalarından nəsə ummağa haqqı yoxdur. İndi onların missiyası Azərbaycana qarşı yalana və dezinformasiyaya söykənən ideoloji təbliğatla məşğul olmaqdan ibarətdir. Və sifarişlə apardıqları informasiya müharibəsində dövlətimizi, millətimizi aşağılamaqdan belə çəkinmirlər. Kremlə yaxın yüksək rütbəli bəzi məmurlar danışıqlarında küçə jarqonundan istifadə edirlər. Həm media mənsublarının, həm də siyasilərin belə “zəngin təcrübədən” istifadə etmələri artıq heç kəsi təəccübləndirmir.

*Söhbəti hazırladı:*
*İmran BƏDİRXANLI*
*XQ*

# Vətənə, xalqa xidmətin təntənəsi

**Azərbaycan olisinin` yaranmasının 107-ci ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.**

vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təh-







Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Polis Günü"nə və 2024-2025-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər liyevin,` habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Sonra peşə bayramı münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham liyevin` təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 107 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən ulu öndər Heydər liyevin` respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham liyevin` xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, zamanın çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini və əməliyyat-xidməti fəaliyyətin lükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilən polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyini qeyd edib.

Xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyi, cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, orqan və hissələrin mürəkkəb şəraitdə xidmət aparmaq bacarıqlarının artırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

Müzəər` Ali Baş Komandan cənab İlham liyevin` rəhbərliyi altında möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yarandığı vurğulanaraq işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdış"ın gerçəkləşməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığı, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyi, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyi qeyd olunub.

Xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinə təşəkkür ifadə olunub.

Qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının rolunu xüsusi qeyd edən daxili işlər naziri məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini baş leytenant rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

General-polkovnik V.Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham liyevi` əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

***XQ***

# Baş Prokurorluqda brifinq

## *Yekaterinburq cinayəti ölkəmizdə dərindən araşdırılır*

**İyulun 1-də Azərbaycan Respublikasının Baş Prokurorluğu Rusiya Federasiyasının hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən iki azərbaycanlının – Hüseyn və Ziyəddin Səfərov qardaşlarının Yekaterinburqda xüsusi amansızlıqla qətlə yetirilməsi faktı üzrə cinayət işi başladığını açıqlayıb. Hadisə ilə bağlı ilkin istintaq materialları və mediada yayılan məlumatlar əsasında genişmiqyaslı araşdırma aparılır.**





Baş Prokurorluğun İstintaq İdarəsinin rəisi Nemət vəzovun` dünən keçirilən brifinqdə verdiyi məlumata görə, iyunun 27-də səhər saatlarında Rusiya Federasiyasının Milli Qvardiyasının Sverdlovsk vilayəti üzrə idarəsi, Daxili İşlər Nazirliyinin Cinayət Axtarış İdarəsi və Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları Yekaterinburq şəhərində birgə əməliyyat-axtarış tədbirləri həyata keçirib. Bu tədbirlər zamanı müxtəlif ünvanlarda yaşayan Azərbaycan Respublikası vətəndaşları və Azərbaycanəsilli şəxslər əvvəlki dövrlərdə törədilmiş qəsdən adamöldürmə cinayətlərində iştirak etməkdə şübhəli bilinərək saxlanılıblar.

Nemət vəzov` bildirib ki, saxlanılan şəxslərə ` o cümlədən Səfərov qardaşlarına qarşı əməliyyat qurumlarının əməkdaşları tərəfindən saxlanma zamanı və sonrakı mərhələlərdə bərk küt alətlərlə çoxsaylı zərbələr endirilib. Onlar həm nəqliyyat vasitələrində, həm də inzibati binalarda işgəncələrə məruz qoyulub, nəticədə ağır bədən xəsarətləri alıblar.

1966-cı il təvəllüdlü Hüseyn Səfərov həmin gün ` iyunun 27-də, saat 15 radələrində daxili işlər orqanının inzibati binasında aldığı xəsarətlər nəticəsində vəfat edib. Onun qardaşı, 1970-ci il təvəllüdlü Ziyəddin Səfərov isə səhər saatlarında əməliyyat qurumuna məxsus avtomobildə keçinib. Məhkəmə-tibbi ekspertizasının nəticələrinə görə, Hüseyn Səfərovun ölümünə çoxsaylı travmalar fonunda yaranmış posttravmatik və posthemorragik şok, Ziyəddin Səfərovun ölümünə isə posttravmatik şok səbəb olub.

İyunun 30-da Səfərov qardaşlarının cənazələri Bakıya gətirilib. lüm` səbəblərinin dəqiq müəyyənləşdirilməsi məqsədilə Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən təkrar ekspertiza təyin olunub.

Baş Prokurorluq beynəlxalq hüquq normalarına uyğun olaraq, Rusiya Federasiyası da daxil olmaqla müvafiq dövlətlərə hüquqi yardım sorğuları göndərib. Cinayət işinin eektiv` araşdırılması, məsul şəxslərin müəyyən edilərək hüquqi məsuliyyətə cəlb olunması üçün zəruri beynəlxalq əməkdaşlıq təmin ediləcək.

Nemət Əvəzov, eyni zamanda, qeyd edib ki, meyitlərlə bağlı Rusiyada müvafiq ekspertizalar keçirilib: "Bu ekspertizaların keçirilməsi onu göstərir ki, Rusiyada da artıq araşdırmalara başlanılıb. Dövlət qurumlarının səlahiyyətli şəxsləri tərəfindən belə bir zorakılığın tətbiqi nəticəsində dilindən, dinindən, vətəndaşlığından, milliyətindən asılı olmayaraq, hər hansı bir şəxs işgəncələrə məruz qalaraq öldürülürsə, bu xüsusilə ağır cinayətdir. Bununla bağlı ilkin dəlillər və sübutlar bizim istintaqçılar tərəfindən toplanılıb və Rusiyanın aidiyyəti qurumlarına, 2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq, beynəlxaq hüquqi yardım haqqında tapşırıq göndərilib. Həmin tapşırıqda da geniş və əhatəli şəkildə rusiyalı həmkarlarımızdan, ölkənin səlahiyyətli orqanlarından müvafiq istintaq hərəkətlərinin aparılmasını, materialların təqdim edilməsini, müvafiq ekspertizaların aparılmasını, baxışların keçirilməsini, sorğuların verilməsini, sənədlərin toplanmasını xahiş etmişik. Törədilmiş cinayətin obyektiv şəkildə istintaqının aparılması və bütün təqsirli şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi üçün Rusiyanın səlahiyyətli orqanları ilə qarşılıqlı təmas yaradaraq səylərimizi daha sürətli davam etdirəcəyik. mid` edirik ki, bizim bu səylərimiz nəticə verəcək və təqsiri olan şəxslər cinayət məsuliyyətinə cəlb olunacaq".

Baş Prokurorluğun Beynəlxalq Hüquqi məkdaşlıq` İdarəsi rəisinin müavini Samirə Nəcəfzadə brifinqdə çıxışı zamanı bildirib ki, qəsdən adamöldürmə, işgəncə və qeyri-insani rəftar beynəlxalq müqavilələrin tələblərinin kobud şəkildə pozulmasına gətirib çıxarır. Həm Azərbaycan, həm də Rusiya bir çox beynəlxalq müqavilələrin və konvensiyaların üzvüdür.

S.Nəcəfzadə, vurğulayıb ki, bunlardan Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Konvensiyasını, "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt"ını qeyd edə bilərik: "Son hadisə zamanı bu konvensiya və paktların tələbləri pozulub. Bundan başqa, Avropa İnsan Hüquqları Konvensiyasını qeyd etmək olar. Azərbaycan hazırda da bu konvensiyanın üzvüdür. Rusiya isə 2022-ci ilə qədər sözügedən konvensiyasının üzvü olub. Bu konvensiyanın tələblərinə əsasən də, Rusiyada yaşayan Azərbaycan vətəndaşlarının və Azərbaycanəsilli şəxslərin hüquqları pozulub".

Nemət Əvəzov, ötən ilin dekabrında Aktau yaxınlığında baş verən AZAL-a məxsus mülki təyyarənin qəzası ilə bağlı istintaqla bağlı son məlumatları da açıqlayıb. Onun sözlərinə görə, cinayət işi üzrə, təxminən, 100-ə yaxın ekspertiza təyin olunub və onların əksəriyyəti artıq icra olunub. Ekspertiza qrupunun bir hissəsi yaxın günlərdə Qazaxıstana ezam olunub və burada müvafiq orqanlarla əhatəli müzakirələr aparılıb.

Hazırda ekspertiza nəticələrinin toplanması və yekunlaşdırılması prosesi hər iki ölkənin aidiyyəti qurumlarının əməkdaşlığı çərçivəsində davam etdirilir. Gözlənilir ki, yaxın müddət ərzində nəticələr əldə olunacaq və ictimaiyyətə təqdim ediləcək.

***Səbuhi MƏMMƏDOV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Laçında İƏT Qadınlar Forumu

**İyulun 2-də Laçın şəhərində İƏT Həftəsi çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının Qadınlar Forumunun açılış mərasimi keçirilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Prezident İlham Əliyevin təşəbbüsü ilə İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ilk dəfə olaraq İƏT Həftəsinin və Qadınlar Forumunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda təşkil edilməsini tarixi hadisə adlandırıb.**






Qadınların iqtisadi imkanlarının artırılması və sosial rifahının təmin olunmasının cəmiyyətin ümumi inkişaf səviyyəsinin göstəricisi olduğunu vurğulayan komitə sədri bildirib ki, Azərbaycan daim bu sahədə mühüm təşəbbüslərlə çıxış edir və müsbət təcrübəsini paylaşmağa hazırdır. lkəmizdə` qadın sahibkarlığının inkişafı ilə yanaşı, qadınların təhsilə çıxışı, elmdə, texnologiyada, innovasiyada fəallığının artırılması sahəsində də ciddi nəticələr əldə edilir. Laçın da daxil olmaqla azad edilmiş bölgələrdə qadınların bilavasitə iştirakı ilə müxtəlif sosial-iqtisadi layihələr həyata keçirilir.

Tarixən də Azərbaycan qadınının güclü ictimai mövqeyə malik olduğunu vurğulayan Bahar Muradova hələ 1919-cu ildə Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququnu tanıyan dövlət olduğunu bildirib. O qeyd edib ki, "Cəmiyyətin inkişafını qadınsız təsəvvür etmək olmaz"` deyən ulu öndər Heydər liyev` müasir Azərbaycanda dövlət qadın siyasətinin müəllifi və banisidir.

Qadın problemlərinin köklü həlli ilə bağlı ümummilli lider Heydər liyevin,` Prezident İlham liyevin,` Birinci vitse-prezident Mehriban xanım liyevanın` gerçəkləşdirdikləri davamlı tədbirlər ölkəmizdə qadınların ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakını təşviq edən nümunəvi dövlət siyasəti formalaşdırçışdır.

Azərbaycanın digər çoxtərəfli formatlar çərçivəsində olduğu kimi, İƏT müstəvisində də qadınların dayanıqlı inkişaf sahəsində əməkdaşlığın tərəfdarı olduğunu vurğulayan sədr, bu platformanı 2025-ci ildə başa çatan İƏT-in Baxış sənədinin davamı kimi və 20262035-ci` illəri əhatə edəcək yeni inkişaf strategiyasının işlənib hazırlanmasında mühüm rol oynaya bilər.

İqtisadi məkdaşlıq` Təşkilatının Baş katibinin müavini Silapberdi Nurberdiyev ev sahibliyinə və forumun yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib. İƏT rəsmisi forumun həm üzv dövlətlərin öz təcrübələrini bölüşməsi, həm də beynəlxalq təşkilatların töhfə verməsi baxımından mühüm platforma olduğunu qeyd edib. O, güclü iqtisadiyyatın və inklüziv cəmiyyətin qurulmasında, eləcə də dayanıqlı müqavimətin formalaşdırılmasında qadınların vacib rolunu vurğulayıb. İƏT rəsmisi qadınların elmi, texnoloji və riyazi sahələrdə iştirakı artırılmasını və gender əsaslı zorakılığın qarşısının alınması sahəsində daha tutarlı tədbirlər görülməsinin prioritet istiqamətlər olduğunu da diqqətə çatdırıb.

Daha sonra BMT Baş katibinin müavini, qurumun Dayanıqlı İnkişaf Qrupunun sədri Amina .` Mohammed və BMT Baş Katibinin müavini, BMT Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibi Armida Salsiah Alisjahbananın videomüraciətləri dinlənilib.

zbəkistan` Respublikasının Ailə və Qadın Komitəsinin sədri Zulayxo Maxkamova çıxışında bildirib ki, forum İƏT regionuna daxil olan ölkələrin və beynəlxalq tərəfdaş dövlətlərin qadın rəhbərləri arasında konstruktiv dialoq, eləcə də gələcək əməkdaşlıq üçün etibarlı platformaya çevriləcək. O qeyd edib ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq Mərkəzi Asiyada "Eco-hub" vahid mərkəzinin yaradılması vacibdir.

"Qızların təhsilinə dəstək gələcəyə sərmayədir" adlı filmin nümayişindən sonra forum panel sessiyalarla davam edib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Rusiya, Şvıdkoy və mədəni yoxsullaşma

## *Yaxud işğalçılıqdan utanmayanlar haqqında nekroloq*

**Rusiya Prezidenti Vladimir utinin` beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy "İnterfaks" agentliyinə müsahibəsində Azərbaycanda Rusiya mədəniyyəti tədbirlərinin ləğvi məsələsi ilə bağlı mövqeyini bildirib. O, ümumən, bir çox məqamların üzərində dayanıb. Yazımızda həmin məqamlardan yalnız birinə diqqət yetirəcəyik. Beləliklə, cənab Şvıdkoy deyib ki, Rusiya mədəniyyəti tədbirlərinin ləğvinə dair qərar "Azərbaycanın mədəniyyət mühitini və mənzərəsini yoxsullaşdıracaq".**



lkəmizin` Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə sırf üzərində dayandığımız məsələyə toxunub və bildirib ki, cənab Şvıdkoy Azərbaycanda dəfələrlə səfərdə olub və yüksək mədəniyyətimizə heyranlığını bildirib. "Şvıdkoyun təbirincə desək, Basta kimi Rusiya müğənnilərinin konsert proqramlarının ölkəmizin mədəniyyət mənzərəsini yoxsullaşdırdığını düşünmürük. Minilliklər boyu inkişaf edən Azərbaycan mədəniyyəti bir çox dövlətlər və xalqlar üçün nümunədir. Azərbaycan haqlı olaraq, özünün unikal tarixi və maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqisi ilə fəxr edir".

Bəli, M.Şvıdkoyun dilə gətirdiyi ifadə adi sayıla bilməz və sırf imperialist yanaşma tərzinin məhsuludur. zü` də zay məhsulu. Məsələ ondadır ki, öz xalqını daim yüksəkdə tutan rus imperializmi zaman-zaman ayrı-ayrı məmləkətlərə mədəniyyət və incəsənət, bir sözlə, insan kimi yaşamaq aurası gətirdiyini iddia edib. Daha doğrusu, bu fikri başa qaxınc kimi gündəmə gətirib. n` başlıcası, rus imperializminin nümayəndələri və qulbeçələri bizlərə, o cümlədən, imperiya boyunduruğundakı digər xalqlara, loru dildə desək, təxminən, belə bir sual veriblər: Siz kim olmusunuz`

Ağzımızı açmağa qoymayıb, suala cavabı da özləri səsləndiriblər: Vandal, köçəri həyat tərzi sürən, daxmalarda gecələyən, evsiz-eşiksiz, dünyagörüşü dar tüfeylilər idiniz, sizləri adam etdik.

Qeyd edək ki, haqqında söz açdığımız həyasız baxış müxtəlif üsullarla sovet dövrü kinematoqrafiyasında da yer alıb. Məsələn, "Babək" filmindəki eşq səhnəsini götürək. Aydındır ki, Sovetlər Birliyinin üzdə bəyan edilmiş normaları özündə intim tabusu yaşadırdı. Axı, kommunist adını daşıyan şəxs əxlaqlı olmalı idi. lqərəz,` təsəvvür edin, Azərbaycan tamaşaçısı xalqın qəhrəmanı olan Babəki, az qala, açıq cinsi əlaqəyə girərkən görür. Bu, qəhrəmanın obrazını heçə endirir, habelə, şüuraltı şəkildə həmin qəhrəmanın mənsub olduğu xalqın, guya, mənəvi kasadlığına dair rəy formalaşdırırdı. Beləliklə, beyni kommunist ideologiyası ilə doldurulmuş azərbaycanlı düşünməli idi ki, sovet quruluşu ona düzgün yaşamaq qaydası gətirib. Hər halda, həmin dönəmin stereotiplərini nəzərə alıb, məlum filmə Babəki, müəyyən mənada, məişət pozğunu kimi göstərən səhnəni daxil etməmək də olardı. Amma nə stereotiplər nəzərə alındı, nə də filmin gerçək mahiyyəti.

Bəli, SSRİ "palitbüro"sunun kluarlarında, ölkənin ali rəhbərliyində tam əxlaqsızlığın hökm sürdüyü, müxtəlif eybəcərliklərin pərdələndiyi bir zamanda sovet quruluşunun Azərbaycana, guya, mənəvi zənginlik gətirdiyi iddia olunurdu. lbəttə,` zaman keçdikcə təkcə Azərbaycan kinosu deyil, ümumən incəsənəti dövrün saxtalıqlarına qarşı cəbhə açan yaradıcılıq nümunələrinə üstünlük verdi. Prosesi başladan isə xalqımızın ümummilli lideri Heydər Əliyev oldu. Ulu öndərin 1969-cu ildə respublikamıza rəhbərliyə gəlişindən sonra SSRİ-nin dövlət "mahiyyətinin" ədəbiyyat və incəsənət müstəvisindəki total ifşasına start verildi. Heydər liyev` bu ifşanın, belə demək mümkünsə, zehin müəlliflərin despotizmin pəncəsindən qorudu.

Bəli, sovet dövründə yaradıcılıq adamlarımız məhz ulu öndər Heydər liyevin` səriştəsi sayəsində özlərinin potensiallarını düzgün reallaşdırmaq şansı qazandılar və nəticə etibarilə ərsəyə gəlmiş sənət əsərləri milli özünüdərkimizə müstəsna töhfələr verdi. O milli özünüdərk ki, yekunda XX əsrdə ikinci dəfə dövlət müstəqilliyimizə qovuşmamız üçün açar rolunu oynadı...

Ancaq SSRİ-yədək, daha doğrusu, sovet Rusiyasının ölkəmizi işğalınadək yaşanmış zaman kəsiyi var. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki il ömür sürdü. Amma o iki il qədim mədəniyyətimizin incəsənət müstəvisində tərənnümü baxımından çoxsaylı sənət nümunələrinə şahidlik etdi. Yəni, Stalin vaxtilə "Azərbaycan yarımpatriarxal feodal ölkəsidir" deyib xalqımızı məsxərə predmetinə çevirəndə, yumşaq desək, düz eləmirdi.

lbəttə,` AXC-yədək olan müddətin təhlili göstərir ki, Azərbaycan cəmiyyətində mədəni inqilab məhz xurafatla mübarizə zəminində baş verdi. Mirzə Cəlilin, Sabirin, li` bəy Hüseynzadənin, zeyir` Hacıbəylinin və digər fikir dühalarımızın baxışlarında xalqımızın çoxəsrlik tarixi, adət-ənənələri, dəyərləri canlandı, nəticədə 1918-ci il müstəqilliyi üçün ideoloji baza formalaşdı. Başlıca sual isə budur: həmin vaxt Azərbaycan cəmiyyətindəki geriliyi hansı amil doğurmuşdu` lbəttə` ki, işğal amili və əlbəttə ki, rus işğalı. Buna bənzər sualın üzərinə sonda yenidən gələcəyik. Hələlik isə bəzi deyimlərin üzərində dayanaq.

Müəyyən fikirlər var ki, 1813 və 1828-ci illərin Gülüstan və Türkmənçay müqavilələri olmasaydı və Arazın bu tayı rusların nəzarətinə keçməsəydi, hazırkı azərbaycanlı İrandakı dini xurafatın təmsilçilərindən biri olardı. Hesab edirik ki, bu mövzudakı istənilən mübahisə özündə müəyyən zahiri həqiqət payı kimi, ciddi qüsur seqmentini də daşıyır. ünki` müasir Azərbaycan dövlətçiliyi və onun tapındığı dəyərlər, mahiyyətcə, rus işğalçılığına qarşı mücadilə zəminində ortaya çıxmış və nəticə etibarilə mübarizə uğur qazanmışdı. Uğurun təntənəli göstəricisi həm 1918-ci il, həm də 1991-ci il müstəqilliyidir. Yəni, parçalanmış olsa belə, xalqımız, daha doğrusu, Arazın bu tayı özündə dirəniş nümayiş etdirməyi bacarmış, nəhəng imperiyanın buxovlarından qurtularaq azadlığına qovuşmuşdu. O zaman sual olunur: Rus imperializmini yenən xalq bütöv olsaydı, fars imperializminin dominantlığına imkan verərdimi` lbəttə` ki, yox` stəlik,` hazırkı İran indi daşıdığı adı daşıyardımı`

Ancaq tarixin acı reallıqları var və həmin reallıqları doğurmuş işğal amili milli genefondumuzla yanaşı, mədəniyyətimizə son dərəcə ağır təsir göstərdi. arizm,` belə demək mümkünsə, qaymaqlarımıza göz açdırmadı, onlara məhrumiyyətlər və məşəqqətlər yaşatdı və nəticədə ortaya dahi Sabirin, Mirzə Cəlilin personajları çıxdı. Məsələn, novruzəlilər məktubları poçt qutusuna atmağı bacarmadılar, əcnəbi seyrə balonlarda çıxanda biz hələ avtomobil minmədik və sair. Bu nümunələrə nəzər salan Mixail Şvıdkoyun nəzəri qohumları, yəni arizmin` "pristavları" əllərini əllərinə vurub gülüşdülər. Onu da deyək ki, onların boş başları, ədabazlıqları mirzə cəlillərin, sabirlərin, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə dühasının əslində, xalqı qəflət yuxusundan ayıltdığının fərqinə varmağa imkan vermədi...

Beləliklə, mədəniyyətimizin, adət-ənənələrimizin tərəqqisi ilə milli özünüdərkimizə doğru inamla addımladıq. Ancaq bu yol heç də asan başa gəlmədi. mumən,` əvvəl çarizmin timsalında rus imperializminin, sonra SSRİ-nin timsalında rus totalitarizminin məngənəsində sıxıldıq. 1930-cu illərin repressiyaları milli aydınlarımızı, həm də mədəniyyətimizin daşıyıcılarını əlimizdən aldı. Bəlkə, işğalın ağır yük kimi boynumuzdan asıldığının da fərqinə varmadıq. Necə deyərlər, dərd gələndə Allah da dözüm verir...

Bütün bunların fonunda incəsənətimizin ayrı-ayrı sahələri inkişaf etdi. Deyək ki, əsrin əvvəllərində "oxutmuram əl çəkin" deyən azərbaycanlının övladı təhsil gördü. Niyə görə` Axı kimsə və ya kimlərsə imperializmə xidmət etməli idi. Görəsən, hansısa azərbaycanlıya həmin xidmətin parametrlərindən kənara çıxmaq imkanı verildimi` Xeyr` Eynilə Azərbaycanda teatrların, kinoteatrların, başqa mədəniyyət müəssisələrinin sayının artması heç də rus imperializminin və totalitarizminin xalqımıza lütfü yox, qaçılmaz prosesin nəticəsi idi.

lqərəz,` bütün bunların fonunda ortaya bir neçə vacib sual çıxır: Rusiyanın, rus varlığının Vətənimizdə, torpağımızda nə işi var idi` Biz tutalım, daxmada yaşayırdıq, mədəniyyətsiz idik, ondan Rusiyaya nə` Məgər biz mədəniyyətsiz olub ruslara nə isə etmişdik` Bu və buna bənzər digər suallara heç bir cavab yoxdur. Heç gözləmirik də olsun. Amma Rusiya Prezidenti Vladimir Putinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoya deyəcək sözümüz var. Cənab Şvıdkoy bilsin ki, ən böyük mədəniyyətsizlik işğalçılıqdır. Onu da biz yox, onun hazırda təmsil olunduğu dövlət edib.

Nəhayət, Azərbaycan otuz ildən çoxdur ki, müstəqildir, işğal və istila dövrü geridə qalıb. lkəmiz` dünyaya özünü, öz mövcudiyyətini, sözün əsl mənasında, bəyan edib. Bu gün dövlətimiz, eyni zamanda, mədəniyyətimizin beynəlxalq aləmdəki ardıcıl təbliğatçısıdır. Bir sıra mənfi stereotipləri geridə qoyaraq, tarixi ənənələrimizlə müasirliyin vəhdətinə nail olmuşuq. Yəni, bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də irəlidəyik və irəliyə gedirik. Yolumuzda maneə yaratmaq istəyənlərə isə yerlərini göstərmək üçün iradəmiz, əzmimiz və prinsipiallığımız var. Cənab Şvıdkoy da yazımızı ona və onun kimi düşünənlərin hər birinə yerlərini göstərmək niyyətimiz kimi qəbul etsə, ancaq məmnunluq duyarıq.

İrəliləyişdən söz düşmüşkən, hazırkı Rusiya, rus təfəkkürü və ictimai fikri irəli gedə bilmir. Səbəb çox sadədir. Şvıdkoylar ölkələrinin imperialist ab-havasından, zahiri mütərəqqiliklə pərdələnmiş saxta mahiyyətindən qopa bilmirlər. n` pisi isə odur ki, belələrinin xəstə təxəyyülləri keçmişin çürüklüklərini müasir dövrə daşımaq psixopatlığına əsaslanır. Hazırda Rusiyada azərbaycanlılara qarşı başlanmış kampaniya da məhz bu psixopatlıqdan qaynaqlanır.

Sonda onu deyək ki, mədəniyyətli, mədəniyyət daşıyıcısı olan dövlət sevilir. Bu gün Rusiyanı dünyada sevən yoxdursa, yaxşı olar ki, cənab Şvıdkoy ölkəsinin məsul rəsmi şəxsi kimi, ilk növbədə, vəziyyətin nə üçün indiki şəklə düşməsinin köklərini araşdırsın, onun öz təbirincə desək, yoxsulluğun səbəblərini müəyyənləşdirsin. Yox, əgər bunu bacarmırsa, sussun və "böyük, mədəni Rusiya"nın xırda, cılız oyunbazlıqlarından utansın. lbəttə,` utanmaq hissi yoxsullaşmayıbsa.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# İrəvanın yeni təhlükəsizlik oyunu

## *Ermənistan Avropa İttifaqı çevrəsinə sürüklənir*

**Ermənistan rəhbərliyinin müxtəlif ölkələrlə hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində atdığı addımlar Azərbaycanda diqqətlə izlənilir və təhlil olunur. Bu da səbəbsiz deyil. Çünki burada söhbət ölkəmizə qarşı işğalçı müharibə aparmış, minlərlə azərbaycanlının ölümünə, yüz minlərlə soydaşımızın doğma yurdlarından qaçqın düşməsinə səbəb olmuş, işğalı 30 ilə yaxın davam etdirmiş, bu müddət ərzində həmin yerlərdə daşı daş üstə qoymamış dövlətdən gedir. Həmin dövlət bu gün də sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəi` saziş layihəsinin imzalanması üçün zəruri olan iki şərti yerinə yetirməkdən yayınır. Bu isə Ermənistan siyasi isteblişmentinin başqa xəyallarla yaşadığının göstəricisidir.**





Bütün bunlar fonunda Ermənistan və Avropa İttifaqının (Aİ) müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirməyə başlamasına dair "Nyus.am"ın yaydığı məlumat maraq doğurur. Məlumata görə, iyunun 30-da Ermənistan və Aİ arasında məsləhətləşmələr çərçivəsində təhlükəsizlik və müdafiə məsələləri üzrə ilk iclas keçirilib. İclasın gündəliyi bir çox məsələləri əhatə edib.

Məsləhətləşmələr zamanı Ermənistanla Aİ arasında təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı məsələlər müzakirə edilib, o cümlədən regional gündəliyin aktual məsələləri üzrə fikir mübadiləsi aparılıb. Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, tərəflər Aİ-nin böhranların idarə olunması əməliyyatları çərçivəsində gələcək əməkdaşlığın perspektivlərini, qurumun Ermənistandakı Monitorinq Missiyasının fəaliyyətini, Avropa Sülh Aləti (European Peace FacilityEPF)` çərçivəsində uzunmüddətli qarşılıqlı fəaliyyət imkanlarını, Avropa Təhlükəsizlik və Müdafiə Kolleci (ESDC) ilə Ermənistanın müvafiq təhsil müəssisələri arasında əməkdaşlığın perspektivlərini, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

İlk növbədə qeyd etmək lazımdır ki, ErmənistanAİ` məsləhətləşmələri çərçivəsində təhlükəsizlik və müdafiə məsələləri üzrə ilk iclas İrəvanın geosiyasi kursunda mühüm dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Aİ ilə bu formatda dialoqun qurulması təkcə texniki deyil, siyasi cəhətdən də önəm daşıyır. Ermənistan son dövrlərdə Rusiyaya olan etimadsızlığını konkret addımlarla nümayiş etdirir. Aİ ilə keçirilən bu iclas da həmin tendensiyanın daha bir nümunəsidir. İclas zamanı müzakirə olunan məsələlərin geniş spektri isə tərəflər arasında strateji tərəfdaşlıq istiqamətində atılan addımların gələcək konturlarını göstərir. Aİ bu yolla Ermənistana daha sıx inteqrasiya vədləri verir, əvəzində regiondakı təsirini artırmağa çalışır. Ermənistan hakimiyyəti isə bu prosesi həm daxili ictimai rəyə, həm də Qərb dairələrinə müstəqil təhlükəsizlik siyasəti kimi təqdim edir. Lakin bu cür təmaslar təkcə Ermənistanın deyil, bütövlükdə regionun sabitliyi və güc balansı baxımından da diqqətlə izlənməlidir. ünki` bu cür addımlar Cənubi Qafqazda yeni geosiyasi düzən formalaşdırmaq iddiasının tərkib hissəsinə çevrilməkdədir.

İclas zamanı Ermənistan və Aİ arasında təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsi barədə aparılan müzakirələr İrəvanın Qərbə inteqrasiyanı gücləndirmək cəhdlərinin tərkib hissəsidir. Bu, Ermənistanın Rusiya ilə hərbi-siyasi müttəfiqliyinə alternativ axtarışlarını daha da aktuallaşdırması deməkdir. Tərəflər regional təhlükəsizlik məsələlərinə də toxunmaqla, Cənubi Qafqazda baş verən proseslərə dair qarşılıqlı mövqeləri dəqiqləşdirməyə çalışıblar. Güman etmək olar ki, bu dialoq Aİ üçün regionda təsir imkanlarını artırmaq məqsədi daşıyır. Ermənistan isə bu platformanı həm xarici dəstək qazanmaq, həm də daxili siyasi manevr imkanlarını genişləndirmək üçün istifadə edir.

İclas zamanı İrəvan və Brüssel arasında böhranların idarə olunması sahəsində əməkdaşlığın perspektivlərinin müzakirə olunması Aİ-nin regionda təhlükəsizlik aktoru kimi çıxış etmək istəyini göstərir. Bu, xüsusilə Ermənistanın Rusiya təhlükəsizlik sistemindən uzaqlaşmaq cəhdləri fonunda diqqəti cəlb edir. İrəvan Aİ-nin mülki adlansa da, əslində, yarımhərbi missiyası vasitəsilə öz sərhədlərini necə deyərlər, müdafiə zəmanətçisi ilə təmin etməyə çalışır. Lakin bu yanaşma da bölgədə balansı dəyişə bilər və digər oyunçuların reaksiyasına səbəb olur. Bu bir faktdır ki, Aİ-nin Ermənistandakı Monitorinq Missiyası (EUMA) son dövrlərdə Brüsselin regiona marağının simvoluna çevrilib. Elə iclas zamanı bu missiyanın fəaliyyəti və gələcək rolu barədə fikir mübadiləsinin aparılması da təsadüfi deyil. Ermənistan məlum missiyanı öz təhlükəsizliyi üçün siyasi təminat kimi təqdim etməyə çalışır. Aİ isə bu formatla həm Ermənistana dəstək verir, həm də Cənubi Qafqazda möhkəmlənmək istəyir. Missiyanın fəaliyyəti, demək olar ki, bütün regional güclər tərəfindən tənqidlə qarşılanır.

Məlumatda əksini tapan Avropa Sülh Alətinə gəldikdə isə demək lazımdır ki, bu, Aİ-nin 2021-ci ildən fəaliyyətə başlayan xüsusi maliyyə mexanizmidir. Onun əsas məqsədi Aİ-nin təhlükəsizlik və müdafiə sahəsində tərəfdaş ölkələrə dəstəyini gücləndirməkdir. Bu alət vasitəsilə Aİ hərbi təlimlər, texniki avadanlıq, təhlükəsizlik islahatları və digər müdafiə yönümlü təşəbbüslər üçün tərəfdaş ölkələrə maliyyə vəsaiti ayıra bilir. Ermənistan da bu alətə çıxış əldə etməyə çalışır. "Avropa Sülh Aləti çərçivəsində uzunmüddətli qarşılıqlı fəaliyyət imkanları" dedikdə, Aİ-nin Ermənistana hərbi texnika yox, daha çox sərhəd təhlükəsizliyi, müşahidə texnologiyaları, hərbi kadrların təlimi, sülhməramlı potensialın artırılması kimi istiqamətlərdə yardım göstərməsi nəzərdə tutulur. Bu isə Ermənistan üçün həm təhlükəsizlik zəmanəti, həm də Qərbə daha sıx bağlılıq deməkdir.

Bu məsələ Ermənistanın təhlükəsizlik sahəsində Qərbə inteqrasiyasının bir başqa mühüm göstəricisidir. Avropa Təhlükəsizlik və Müdafiə Kolleci Aİ çərçivəsində fəaliyyət göstərən və üzv, həmçinin tərəfdaş ölkələrin hərbi və mülki kadrlarının hazırlanmasına yönəlmiş ixtisaslaşmış təhsil platformasıdır. Ermənistan bu əməkdaşlıqla öz zabit və hərbi təlimatçılarının Aİ standartlarına uyğun təlimlərə cəlb olunmasına çalışır. Bu isə ölkənin təhlükəsizlik qurumlarında Qərb yanaşmalarının tədricən güclənməsi ilə nəticələnə bilər. Belə əməkdaşlıq Rusiya təsirindən uzaqlaşma siyasətinin həm simvolik, həm də praktik təzahürüdür.

**Mövzuya dair fikirlərini XQ ilə bölüşən politoloq Ramiyə Məmmədova** bildirdi ki, Ermənistan və Azərbaycan arasında sülh sazişi imzalanmadığı üçün İrəvandan ölkəmizə qarşı təxribatlar gözlənilənədir. Onun sözlərinə görə, Ermənistan istənilən ölkənin və təşkilatın yanında dayanıb ona həvalə edilən hər cür tapşırığı icra etməyə hazırdır: "Bu gün Ermənistan daxilində gedən prosesləri diqqətdən qaçırmaq olmaz. Eyni zamanda, İrəvanın həm Avropa, həm də Türkiyə ilə yaxınlaşmaq siyasəti yürütdüyünü nəzərə almaq lazımdır. Bundan əlavə, məlumdur ki, Ermənistanda hər zaman revanş meyilləri olub, bundan sonra da olacaq. Düşünürəm ki, sülh sazişi imzalandıqdan sonra da haylarda bu düşüncə qalacaq".

Politoloq qeyd etdi ki, Ermənistan, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra regionda özünə yer tapa bilmir: "lkə` rəhbərliyi müharibədən, xüsusilə antiterror əməliyyatından sonra üzünü Qərbə çevirib və ondan nicat istəyir. Gah Avropa İttifaqından, gah Fransadan, gah Hindistandan, gah da ABŞ-dan, lobbi qurumlarından imdad diləyir. Amma istədiyi dəstəyi ala bilmir. vəzində,` Ermənistanın iddialarını qızışdırırlar".

R.Məmmədova onu da bildirdi ki, Ermənistan bütün bu cəhdlərinin əbəs olduğunu başa düşüb Azərbaycanın sülh sazişinin imzalanmasına dair iki şərtini yerinə yetirməlidir: "gər` Ermənistan bu bölgədə inkişaf etmək istəyirsə, ilk növbədə, Azərbaycan və Türkiyə ilə münasibətlərini qaydaya salmalıdır. Bütövlükdə Ermənistanla Aİ arasında keçirilən təhlükəsizlik və müdafiə məsləhətləşmələri rəsmi İrəvanın xarici siyasət kursunu birtərəfl şəkildə yönləndirməsinin növbəti nümunəsidir. Bu yanaşma balanslı diplomatiyadan çox, siyasi vəziyyətdən istifadə edərək Qərbin himayəsini qazanmaq cəhdidir. Təhlükəsizlik və müdafiə kimi həssas sahələrin xarici aktorlarla bu qədər asan paylaşılması suverenlik baxımından da suallar doğurur. Ermənistan rəhbərliyi bu prosesləri daxili auditoriyaya alternativ təhlükəsizlik mexanizmi kimi təqdim etsə də, real nəticələr hələlik kağız üzərindədir. stəlik,` belə təmaslar regionda etimad mühitinə yox, daha çox siyasi bloklaşmalara xidmət edə bilər. mumilikdə` isə bu cür məsləhətləşmələr simvolik əhəmiyyət daşısa da, praktik baxımdan ciddi nəticələr doğuracağı hələlik şübhəlidir".

***Səxavət HƏMİD***
***XQ***

**Azərbaycanın təbii qaz ehtiyatlarının Türkiyə bazarına ixracına başlanmasından 18 il ötür. İlk dəfə 2007-ci il iyulun 3-də Cənubi Qafqaz boru kəməri (Bakı – Tbilisi – Ərzurum) ilə nəql edilən "mavi yanacaq" Gürcüstan sərhədini aşaraq qardaş ölkənin qaz kəmərləri sisteminə daxil olub. Bununla da iki ölkə arasında enerji əməkdaşlığı yeni mərhələyə qədəm qoyub.**

# Azərbaycan qazı 18 ildir Türkiyədə alovlanır

## *İndiyədək qardaş ölkəyə 120 milyard kubmetr "mavi yanacaq" nəql olunub*




Azərbaycan qazının Qərb istiqaməti ilə nəqli ideyasını isə ilk dəfə ulu öndər Heydər liyev` irəli sürüb. Belə ki, 1999-cu il iyulun 12-də "Şahdəniz" yatağında aparılan qazma-kəşfiyyat işləri üzrə əldə edilmiş nəticələrin təqdimatına həsr olunmuş mərasimdə iştirak edən mummilli` lider təbii qazın ixracı məsələsinə də münasibət bildirib. Azərbaycanın karbohidrogen ehtiyatlarının daha çox Qərb istiqaməti ilə ixracına üstünlük verən Heydər liyev` "Bizim üçün ən əlverişli bazar Türkiyədir" bəyanatı ilə çıxış edib. Bununla da, Azərbaycan qazının hansı istiqamətdə ixrac olunması məsələsi öz həllini tapıb.

Həmin il avqustun 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Şahdəniz" yatağından təbii qazın dünya bazarlarına ixracının təşkil edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün işçi qrupunun yaradılması haqqında" sərəncam imzalayıb. Sənəddə Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün potensial imkanların araşdırılması, qazın nəqli və bununla əlaqəli məsələlərin öyrənilməsi mühüm vəzifə kimi qarşıya qoyulub.

Cənubi Qafqaz boru kəmərinin Azərbaycan ərazisində fiziki olaraq tikinti işlərinə 2004-cü ilin oktyabr ayında start verilib. 2006-cı ilin sonlarında istismara verilən kəmərlə təbii qazın əvvəlcə Azərbaycan və Gürcüstana, 2007-ci ilin yayından isə Türkiyəyə çatdırılmasına başlanılıb. Uzunluğu 692 kilometr olan Cənubi Qafqaz boru kəməri Bakı şəhəri yaxınlığında yerləşən Səngəçal terminalından başlayır. Boru kəmərinin 443 kilometri Azərbaycan, 249 kilometri isə Gürcüstan ərazisindən keçir. Hər iki ölkənin ərazisində 42 düymlük borularla çəkilən kəmərin illik daşıma qabiliyyəti 7,41 milyard kubmetr təşkil edir.

Azərbaycanın 13 rayonundan (Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa), Gürcüstanın isə 7 bölgəsindən keçir. Marşrut boyunca 1 kompressor stansiyası (Azərbaycan), 3 təmizləyici tərtibatın buraxılma kamerası (Azərbaycanda 1, Gürcüstanda 2), 2 təmizləyici tərtibatın qəbulu kamerası (Gürcüstanda) və digər çoxsaylı quğular inşa olunub. Gürcüstan bazarına qaz AzərbaycanGürcüstan` sərhədində yerləşən boru kəmərindən ayrılan qol vasitəsilə çatdırılır. Son nöqtədə isə boru kəməri Türkiyədə bu ölkənin qazpaylama sisteminə qoşulub. Boru kəmərinin istismar əməliyyatlarına və tikintisinə Cənubi Qafqaz Boru Kəməri Şirkəti ("South Caucasus Pipeline Company Limited") cavabdehdir.

2025-ci ilin yanvar-may aylarında Cənubi Qafqaz boru kəməri vasitəsilə 9 milyard 272 milyon kubmetr qaz nəql olunub. Hesabat dövründə Azərbaycanın magistral qaz kəmərləri ilə nəql olunmuş 17 milyard 129 milyon kubmet qazın 54,1 faizi məhz bu kəmərin payına düşüb. Bütövlükdə isə, ötən 18 ildə Cənubi Qafqaz boru kəməri və onun genişləndirilmiş hissəsi, eləcə də Trans-Anadolu qaz boru kəməri sistemləri ilə Türkiyəyə 120 milyard kubmetrdən artıq "mavi yanacaq" ixrac olunub.

Yeri gəlmişkən, "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi çərçivəsində hasilatın artması Cənubi Qafqaz boru kəmərinin də genişləndirilməsinə zərurət yaradıb. Qeyd edək ki, Genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri (GCQBK) "Şahdəniz-2" layihəsinin əsas tərkib hissələrindəndir. Bu barədə investisiya qərarı 2013-cü ilin dekabr ayında qəbul olunub. Genişləndirmə nəticəsində Cənubi Qafqaz boru kəməri sisteminin ötürmə qabiliyyəti 24 milyard kubmetr səviyyəsinə çatdırılıb. Bununla da, kəmərlə ümumi qaz nəqletmə qabiliyyəti 3,2 dəfə artırılıb. Sonrakı genişləndirilmə mərhələsində isə boru kəməri sisteminin ötürmə qabiliyyəti 31 milyard kubmetrədək artırıla bilər. GCQBK sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanıb.

**Ekspert rəyi**



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Cənubi Qafqaz boru kəməri "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstan  Türkiyə sərhədinə nəql etmək məqsədilə inşa edilib. Boru kəməri Bakı şəhəri yaxınlığında yerləşən Səngəçal terminalından başlayır. Kəmərin Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı ` Tbilisi ` Ceyhan neft kəməri ilə paralel olaraq eyni marşrutdadır və Türkiyədə bu ölkənin qazpaylama sisteminə qoşulub. Gürcüstana nəql edilən qaz sərhəddə yerləşən Cənubi Qafqaz boru kəmərindən ayrılan qol vasitəsilə təmin edilir. traf` mühitə və sosial sahəyə təsirlərin minimuma endirilməsi, eləcə də layihələrin birləşdirilməsi sayəsində əsaslı və əməliyyat xərclərinə qənaət edilməsinə nail olmaq məqsədilə boru kəməri BTC ilə birlikdə və eyni tikinti dəhlizində inşa olunub.

Cənubi Qafqaz Boru Kəmərinin ərsəyə gəlməsi Azərbaycanın enerji sektorunda yeni inkişaf mərhələsinə daxil olan qaz sənayesinin XX` əsrdə gerçəkləşdirdiyi ən böyük nailiyyətdir. Bu irimiqyaslı layihənin həyata keçirilməsi həm Azərbaycan, həm də layihədə təmsil olunan şirkətlər, o cümlədən "Cənub Qaz Dəhlizi"nin əsas resurs mənbəyi hesab edilən "Şahdəniz" yatağının işlənməsinə operatorluq edən BP şirkəti üçün əlamətdar hadisədir. ünki` bütün maraqlı tərəflərin səyləri nəticəsində əfsanədən reallığa çevrilən "Cənub Qaz Dəhlizi" bundan sonra neçə onilliklər belə ətraf mühitə ziyan vurmadan, səmərəli və təhlükəsiz şəkildə işlənilməsi nəticəsində təkcə regionda deyil, həm də keçdiyi ölkələr boyunca yeni iqtisadi imkanlar yarada bilən bir layihədir.

# Şuşada İƏT Biznes Forumu

## *Birlik ölkələri Azərbaycana 22 milyard dollar sərmayə yatırıb*



**Dünən Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) "İnvestisiya və ticarətin təşviqi İƏT regionunda davamlı inkişaf üçün katalizator kimi" mövzusunda biznes forumu keçirilib. Toplantının keçirilməsində məqsəd İƏT regionunda investisiyalar və ticarətin təşviqi, işgüzar dairələr arasında əməkdaşlığın gücləndirilməsi və dayanıqlı iqtisadi inkişafın dəstəklənməsidir.**

Açılış mərasimində çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bildirib ki, Azərbaycanın İƏT ölkələri ilə ticarət dövriyyəsi 10 faiz artaraq 3,5 milyard dollara çatıb. Nazir müavininin sözlərinə görə, hazırda Azərbaycanda İƏT ölkələrinin 10 mindən çox şirkəti fəaliyyət göstərir. Qeyd olunub ki, ötən dövrdə Azərbaycana 22 milyard dollardan çox yatırım edən İƏT ölkələri artıq işğaldan azad olunmuş ərazilərin bərpasında da iştirak edirlər. Ortaq baxışların birlikdə dayanıqlı inkişafa çevrilməsinin mümkünlüyünü vurğulayan nazir müavini Azərbaycanın birgə potensialın xalqlarımızın mənafeyi naminə istifadə etməyə hazır olduğunu bildirib.

İqtisadi məkdaşlıq` Təşkilatının baş katibi səd` Məcid Xan qeyd edib ki, İƏT ölkələrinin dünya iqtisadiyyatında çəkisi 4,4 faizdir ki, bu da real potensialdan aşağıdır. Baş katib İƏT ölkələri arasında ticarəti asanlaşdıracaq memorandumun iyulun 25-dək imzalanması üçün ölkələri daxili prosedurları sürətləndirməyə çağırıb. O daha sonra deyib: "İƏT ölkələri arasında gömrük sahəsində sənəd imzalanmağa da hazırdır. Bu, üzv ölkələr arasında gömrük sahəsində prosedurları sürətləndirəcək. Bu, tarixi bir sammitdir. Biz Prezident İlham liyevə` təşəkkür edirik, onun təşəbbüsü ilə İƏT Həftəsi keçirilir, bir yerə toplaşmışıq".

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev dövlət və özəl sektor arasında əlaqələrin genişləndirilməsini zəruri sayıb. Rəhbərlik etdiyi qurumun İƏT regionunda yeni gündəlik üzərində çalışacağını bildirən icraçı direktor bu məqsədlə kiçik və orta biznes üçün logistik dəstək mexanizmi kimi yeni alətlərin təşviq edilməsinin vacibliyini önə çəkib.

Onun sözlərinə görə, İƏT regionunda əməkdaşlığı şaxələndirmək üçün ticarət əlaqələrinin cəmləşdirilməsini, eləcə də bərpa olunan enerji, rəqəmsal texnologiyalar, infrastruktur və aqrobiznes sahələrində dayanıqlı sərhədlərarası investisiyaları artırmaq lazımdır.

İƏT Ticarət və Sənaye Palatası, Pakistan Ticarət və Sənaye Palataları Federasiyasının prezidenti Atif İkram Şeyx çıxış edərək uğurlu ev sahibliyinə görə Azərbaycana təşəkkür edib.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti Məmməd Musayev İƏT ölkələri arasında ticarət dövriyyəsinə dair göstəricilər barədə danışıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov isə İƏT ölkələri arasında kənd təsərrüfatı, tekstil və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar olduğunu söyləyib. Azad olunmuş ərazilərdə fəaliyyətlə bağlı 3 min 700-dən çox müraciət daxil olduğunu diqqətə çatdıran KOBİA sədri İƏT ölkələri şirkətlərinin də bu təşəbbüsə qoşulmasını zəruri sayıb.

mumilikdə` isə, forumda ərzaq, kənd təsərrüfatı, tekstil, İKT, turizm, nəqliyyat və dairəvi iqtisadiyyat sektorlarında işbirliyinin şaxələndirilməsi imkanları, eləcə də digər məsələlər müzakirə olunub. Tədbir çərçivəsində "biznes ` dövlət", "biznes ` biznes" formatlarında görüşlər keçirilib. Forumda lət` Azad İqtisadi Zonası barədə də iştirakçılara ətarflı məlumat verilib.

Xatırladaq ki, İqtisadi məkdaşlıq` Təşkilatı (İT)` 1985-ci ildə İran, Pakistan və Türkiyə tərəfindən üzv dövlətlər arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı təşviq etmək məqsədilə hökumətlərarası regional təşkilat kimi yaradılıb 1964-cü ildən 1979-cu ilə qədər isə İnkişaf üzrə Regional məkdaşlıq` Təşkilatı kimi fəaliyyət göstərib.

1992-ci ildə bu təşkilat fqanıstan,` Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və zbəkistan` kimi 7 yeni üzvün daxil olması ilə daha da genişlənib. İƏT ticarət perspektivlərinin zənginliyi ilə daim diqqət çəkib. Təşkilat qısa müddətdə inkişaf etməkdə olan regional təşkilata çevrilib və beynəlxalq aləmdəki nüfuzu getdikcə güclənib. Buna baxmayaraq, İƏT öz məqsəd və vəzifələrinin həyata keçirilməsi ilə bağlı çoxsaylı çətinliklərlə üzləşib.

Son illərdə İƏT regional inkişaf tempini sürətləndirməyi qarşıya mühüm vəzifə kimi qoyub. Qurum əməkdaşlığın prioritet istiqamətləri üzrə, o cümlədən enerji, ticarət, nəqliyyat, kənd təsərrüfatı və narkotiklərə nəzarətlə bağlı bir sıra layihələrə başlayıb.

Təşkilata üzv olan ölkələrdə, ümumilikdə, 550 milyon əhali yaşayır. Bu, o deməkdir ki, qurum həm region, həm də istehlakçı potensialı baxımından mühüm önəm daşıyır. İƏT-in üzvləri arasındakı ticarət dövriyyəsi illik 76 milyard dollara çatır. Rəqəmlər göstərir ki, təşkilata üzv olan ölkələr həm onun daxilində, həm qarşılıqlı əlaqə və ticarətdə mühüm çəkiyə malikdirlər.

# BP-nin istedadlı gənclər üçün ingilis dili layihəsi



**BP şirkəti Azərbaycanda icra etdiyi neft-qaz layihələrindəki tərəfdaşları adından Bakıda və ətraf ərazilərdə ingilis dilini öyrənən istedadlı gəncləri dəstəkləməyə yönəlmiş yeni bir təhsil layihəsini uğurla başa çatdırıb.**

BP və tərəfdaşlarının Azərbaycanda təhsilin və gənclərin inkişafına davamlı dəstək vermək öhdəliyinin bir hissəsi olan layihə yüksək keyfiyyətli və intensiv ingilis dili tədrisindən istifadə imkanı olmayan ailələrin uşaqları ilə yanaşı, bu sahədə yüksək akademik göstəricilərə malik şagirdlər üçün nəzərdə tutulub.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Misli görünməmiş qlobal dəyişikliklər və sürətli rəqəmsallaşma dövründə ingilis dili rəqəmsal dünyada düzgün istiqamət almaq, dəyişən şəraitə və proseslərə uyğunlaşmaq üçün vacib vasitəyə çevrilib. İngilis dili öyrənən istedadlı Azərbaycan gənclərinin daha əminliklə bu transformasiya ilə ayaqlaşmasına və məktəb proqramlarının qoyduğu bünövrənin üzərinə yeni bilik bazası əlavə edə bilməsinə dəstək verməkdən məmnunluq duyuruq. mid` edirik ki, öyrəndikləri biliklər onların gələcək elmi və ixtisas uğurları üçün möhkəm zəmin yaradacaq, eləcə də onların qlobal imkanlardan daha dolğun faydalanmaq və öz cəmiyyətlərinə dəyərli töhfələr vermək bacarıqlarını gücləndirəcək."

Qeyd edək ki, proqram vasitəsilə 2024-2025-ci tədris ili ərzində 6-17 yaş arası 60 şagirdə əyani ingilis dili dərsləri təqdim edilib. Dərslər 6-10 yaşlı uşaqlar üçün "Primary Plus" və 11-17 yaşlılar üçün "Secondary Plus" proqramları əsasında keçirilib. Müvafiq kurs səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə 8-17 yaşlı şagirdlər üçün onlayn qiymətləndirmə əsasında seçim və yerləşdirmə aparılıb. 6-7 yaşlı uşaqlar isə yaşlarına əsasən yerləşdiriliblər. Proqram çərçivəsində hər dərs 90 dəqiqə olmaqla, ümumilikdə, 32 həftə ərzində 96 saatlıq tədris həyata keçirilib. Layihə dövründə bütün iştirakçılara 2025-ci ilin fevral və iyun aylarında öz irəliləyişləri ilə bağlı hesabatlar təqdim olunub. Kursu uğurla bitirən iştirakçılara sertifikatlar verilib.

"British Council" təşkilatının icraçısı olan layihənin ümumi dəyəri, şagirdlərin seçilməsi və yerləşdirilməsi testləri, qeydiyyat, dərs materialları və 96 saatlıq ingilis dili kursunun tam keçirilməsi xərcləri daxil olmaqla, 99 min 153 manat (təxminən 58 min 325 ABŞ dolları) təşkil edib.

# Sumqayıt KSP-yə 39-cu rezident qoşulub

**"Nun" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye arkının` rezidenti statusu verilib, bununla da parkın rezidentlərinin sayı 39-a yüksəlib. Agentliyin məlumatına görə, yeni rezident tərəfindən sənaye parkının ərazisində polimer kisə istehsalı layihəsinin həyata keçiriləcəyi nəzərdə tutulub.**

Hindistanın "Lohia Corp Ltd." şirkətinin texnologiyası əsasında investisiya dəyəri 11,2 milyon manat təşkil edən müəssisədə il ərzində 3120 ton laminatlı və polipropilen kisə istehsalı planlaşdırılır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 186** **Bakı şəhəri, 23 iyun 2025-ci il**

***“Dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı layihələrə texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəy verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VQD` nömrəli Qanununun tətbiqi və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 149 nömrəli Fərmanının 2.1.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dövlət informasiya ehtiyatları və sistemləri, habelə elektron xidmətlərlə bağlı layihələrə texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəy verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 187** **Bakı şəhəri, 30 iyun 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı ilə təsdiq edilmiş “Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, ` 12 (II kitab), maddə 2531 (Cild ) Ḁ2024, ` 5 (II kitab), maddə 602` Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli 181 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı”nın “2. Azərbaycan Milli Elmlər Akademiyası üzrə” hissəsinə aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

“2.9-1. Respublika Seysmoloji Xidmət Mərkəzi;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 188** **Bakı şəhəri, 30 iyun 2025-ci il**

**“Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun ştat sayı və aylıq vəzifə maaşlarının təsdiq edilməsi haqqında” 2001-ci il 25 sentyabr tarixli 156 nömrəli və “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” 2022-ci il 14 yanvar tarixli 10 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 aprel tarixli 153 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 536 nömrəli Fərmanı ilə təsdiq edilmiş “sir` və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası haqqında sasnamə”də` dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyun tarixli 409 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “sir` və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “sir` və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun ştat sayı və aylıq vəzifə maaşlarının təsdiq edilməsi haqqında” 2001-ci il 25 sentyabr tarixli 156 nömrəli və “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” 2022-ci il 14 yanvar tarixli 10 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 aprel tarixli 153 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, ` 4, maddə 400 (Cild )` aşağıdakı dəyişikliklər edilsin:

1.1..4.2-ci bənddə “1 (bir) xidməti minik avtomobili” sözləri “5 (beş) xidməti avtonəqliyyat vasitəsi” sözləri ilə əvəz edilsin`

1.2..həmin Qərarla təsdiq edilmiş “sir` və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun ştat sayı” cədvəlinin 3-cü və 4-cü hissələri aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 3. | Baş məsləhətçi | 6 |
| 4. | Böyük məsləhətçi | 7 |

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 190** **Bakı şəhəri, 30 iyun 2025-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nda dəyişiklik edilməsi və “Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2006-cı il 26 oktyabr tarixli 231 nömrəli Qərarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “mək` pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 198-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, ` 4, maddə 421 (Cild ) Ḁ2024, ` 1, maddə 98, ` 3, maddə 301, ` 7, maddə 892, ` 10, maddə 1160, ` 11, maddə 1247` 2025, ` 2, maddə 200) ilə təsdiq edilmiş “mək` pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.2. Qanunun 9.3-cü və 22.3-cü maddələrinə uyğun olaraq mülki aviasiyanın uçuş və uçuş-sınaq heyətində işləyən və güzəştli şərtlərlə pensiya almaq hüququ olan şəxslərin sığorta stajı aşağıdakılar nəzərə alınmaqla hesablanır:

4.2.1. təyyarədə çalışan sıravi heyət üzvləri, avia-kimyəvi işlərdə, aerofotoçəkilişlərdə, keşikçəkmə, atmosferi zondla tədqiqetmə zamanı və digər xüsusi xarakterli iş növlərində helikopterlərin sıravi heyət üzvləri, habelə komanda-uçuş, inspektor, təlimatçı heyətlərinin bu Qaydanın 5.12-ci bəndində göstərilən üzvləri üçün ümumi sığorta stajı ` uçuş işinin bütün dövrü ərzində faktiki uçuş saatı 18-ə, alınan nəticə isə 12 aya bölünməkləḀ

4.2.2. hava gəmiləri uçuş heyətinin qəza-xilasetmə (axtarış-xilasetmə) bölmələrinin tərkibində ` işlədiyi hər bir ilə görə il yarım sığorta stajıḀ

4.2.3. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə ağırış` üzrə Dövlət Xidmətinin tabeliyində “Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyət ləğv edilənədək həmin qurumun idman aviasiya təşkilatlarının uçuş heyəti vəzifələrində ` bir il işə görə il yarım sığorta stajı, bu şərtlə ki, onlar uçuş hazırlığının tədris planını yerinə yetirmiş olsunlar. Bir il ərzində mürəkkəb və ya ali pilotaj elementlərinin yerinə yetirilməsinə görə ` iki il sığorta stajı`

4.2.4. paraşütçü bölmələrinin rəhbərləri, paraşütçülər, xilasedici paraşütçülər, axtarış və xilasetmə ilə məşğul olan paraşütçülər, ən azı 10 metr hündürlükdə helikopterdən asılan xüsusi enən (qalxan) qurğudan paraşütlə tullanan, ştatda olan və ştatdankənar paraşüt-desant qruplarının bir illik işinə görə il yarım sığorta stajı, bu şərtlə ki, onlar porşenli təyyarələrdən, helikopterlərdən, ən azı 10 metr hündürlükdə olan helikopterlərdən xüsusi enən (qalxan) qurğulardan illik tullanma normasını yerinə yetirmiş olsunlar. Reaktiv təyyarə və helikopterlərdən illik tullanma norması bir il ərzində yerinə yetirildikdə isə iki il sığorta stajıḀ

4.2.5. imtiyazlı sığorta stajının hesablanması şərtləri yerinə yetirilmədikdə bu Qaydanın 4.2.3-cü və 4.2.4-cü yarımbəndlərinə uyğun olaraq bir illik işə görə ` bir il sığorta stajıḀ

4.2.6. Silahlı qüvvələrin uçuş heyəti vəzifələrində və uçuş-sınaq heyətində xidmət müddəti (müvafiq olaraq hərbi qulluqçular və uçuş-sınaq heyəti üçün müəyyən edilmiş qaydada)Ḁ

4.2.7. məcburi dövlət sosial sığorta haqları ödənilməklə xarici mülki aviasiyanın uçuş heyəti vəzifələrində xaricdəki iş müddəti (müvafiq uçuş işləri üçün bu Qaydanın 4.2.1 ` 4.2.4-cü yarımbəndləri ilə müəyyən edilmiş qaydada)`

4.2.8. ali və orta aviasiya tədris müəssisələrinin əyani şöbələrindəki təhsil müddəti (faktiki davamiyyət üzrə).”.

1.2. aşağıdakı məzmunda 5.12-ci bənd əlavə edilsin:

“5.12. Qanunun 9.3-cü maddəsinə uyğun olaraq mülki aviasiyanın uçuş və uçuş-sınaq heyətində işləyən şəxslər ` hava gəmisinin və digər uçuş aparatlarının heyət üzvləri (kapitan, ikinci pilot, naviqator (şturman), bort mühəndisi, bortmexanik, bortradist), uçuş-təlimatçı heyət üzvləri (təlimatçı kapitan, böyük təlimatçı pilot, təlimatçı pilot, təlimatçı naviqator (şturman), təlimatçı bort mühəndisi, təlimatçı bortmexanik, təlimatçı bortradist), komanda-uçuş heyəti, müvafiq qanunvericiliyə uyğun yaradılmış hüquqi şəxslərin və onların struktur bölmələrinin tərkibində uçuş zamanı hava gəmilərinin uçuş heyətinin və ya digər uçuş aparatlarının heyətlərinin hazırlığını, onlara rəhbərliyi, nəzarəti və müfəttiş yoxlamasını həyata keçirən inspektorlar, paraşütçü bölmələrinin rəhbərləri, paraşütçülər, xilasedici paraşütçülər, axtarış və xilasetmə ilə məşğul olan paraşütçülər, ən azı 10 metr hündürlükdə helikopterdən asılan xüsusi enən (qalxan) qurğudan paraşütlə tullanan, ştatda olan və ştatdankənar paraşüt-desant qruplarının üzvləri güzəştli şərtlərlə pensiya almaq hüququna malikdirlər.”.

2. “Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 oktyabr tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2006, ` 10, maddə 907 (Cild ) Ḁ2024 ` 2, maddə 233` 2025, ` 2, maddə 187) ləğv edilsin.

3. Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyən şəxslərə güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının təyin edilməsi və ya yenidən hesablanması zamanı bu Qərarın qüvvəyə mindiyi tarixədək olan dövr üçün sığorta stajının hesablanmasına münasibətdə həmin tarixədək qüvvədə olmuş “Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 oktyabr tarixli 231 nömrəli Qərarı tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# “Solovyov üçün cəhənnəmdəki VİP qazanda yer hazırlanıb”

## *Xalq yazıçısı Anarın açıq məktubu*

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar “Trend” informasiya agentliyinə “Əyri güzgüdə” adlı məktub ünvanlayıb. Məktubda Rusiya teleaparıcısı Vladimir Solovyovun anti-Azərbaycan isteriyası ilə bağlı fikirlərini bölüşüb.**

Rus dilində yazılmış məktubun tərcüməsini təqdim edirik:



“İçimdə yaranan ikrah hissini güclə boğaraq, yenə də Vladimir Solovyovun verilişlərini izləməyə məcbur oluram.

Vladimir Solovyov, şübhəsiz ki, savadlı, ağıllı insandır. Elə bu səbəbdən də belə bir jurnalistin bu dərəcədə riyakar olması daha da təəccüblüdür. Solovyov mütəmadi yalan danışır və özü də çox gözəl bilir ki, yalan danışır. Onun tok-şoularında tamaşaçılarına yedirtməyə d̀ çalışdığı bütün mövzulara toxunmaq istəmirəm.

Şəxsi qənaətim odur ki, bu adamın, əslində, rus xalqına dərin nifrəti var. Yoxsa o, qonşu, hətta uzaq ölkələri bütövlükdə məhv etmək, ya da ən pis ehtimalda işğal etmək kimi planlarla hədələməz, təhqir etməzdi. Bu cür davranışla isə o, həmin xalqları Rusiyaya qarşı potensial düşmənə çevirməyə çalışır ` sanki onların mövcudluğunu təhdid kimi təqdim edir.

Hər hansı bir dövlətin siyasəti ilə razılaşmaya bilərsən, rəhbərlərini sərt şəkildə tənqid edə bilərsən, amma küçə söyüşlərinə əl atmaq, bütöv xalqları tərbiyəsizcəsinə alçaltmaq, onların milli ləyaqətini tapdalamaq, mənəvi dəyərlərini, düşüncə tərzini, dil xüsusiyyətlərini məsxərəyə qoymaq olmaz.

Solovyov gah finlərin, gah Baltikyanı xalqların, gah da almanların və müsəlmanların dilini təqlid edərək məsxərəyə qoyur. Az qala komediya ustası kimi, gah Leninə, gah Stalinə, gah Qorbaçova, Yeltsinə, gah da azğın və qəzəbli tonla danışan Hitlerə bənzəməyə çalışır. Bu cür artistik bacarıqları ilə etdiyi parodiyalar bir yana qalsın, əsas məsələ odur ki, o yalnız dillə məsxərə etmir, həm də açıq şəkildə xalqları təhqir edir, adlarını hallandıraraq alçaldır.

Bu ksenofob adam dəfələrlə bütün bir xalqın, ölkənin, qitənin fiziki cəhətdən məhv edilməsinə çağırışlar edir. O, adamyeyən tərzindəki çıxışlarında ən böyük arzularından birini, Böyük Britaniyanın dəniz altında qaldığını görmək istəyini açıq-aşkar dilə gətirir. Təkcə bir şey bəlli deyil: görəsən, İngiltərə və Şimali İrlandiya suyun altında qalsa, günahı olmayan İrlandiya Respublikası da eyni aqibəti yaşayacaq, yoxsa salamat qalacaq?

n` qorxulusu isə budur ki, Solovyov bu dəhşətli çağırışları yalnız öz adından deyil, guya dövlətin mövqeyi kimi səsləndirir, hakimiyyəti də təhrik etməyə çalışır. Yenə də Kreml siyasətçilərinin vəziyyəti soyuqqanlılıqla qiymətləndirməsinə ümid edə bilərik.

n` dözülməzi isə budur ki, bu cəfəng ideyaları Solovyov guya bütün rus xalqının arzusu kimi təqdim edir. Halbuki bu xalqı və ölkəni sevdiyini deyə-deyə, onlara bundan böyük ziyan vura bilməz. ıxışlarında` təkidlə Parisə, Berlinə, Varşavaya, hətta Bayden dövründə (Tramp vaxtında hələ qərar verə bilməyib) ABŞ-a da atom bombası atmaq çağırışları edir. Heç düşünmür ki, cavab zərbəsi də ola bilər, Rusiya şəhərləri də dağıla bilər, hər iki tərəfdən milyonlarla günahsız insan həlak ola bilər. Solovyov elə bilir ki, atom Apokalipsisindən özü sağ çıxacaq, ya da ən pis halda da cənnətə düşəcək. Halbuki onun üçün artıq çoxdan cəhənnəmdəki VİP qazanda yer hazırlanıb.

Hər dəfə dünyanın çüncü` Dünya müharibəsində nüvə` intiharı` ilə məhv olacağını narahatlıq keçirmədən, şirin təbəssümlə proqnozlaşdırır. Görəsən, İtaliyadakı villasını itirməyin əvəzini bütün bəşəriyyətin məhvi ilə çıxmağa dəyərmi?

Söhbət villadan düşmüşkən ` Qorbaçov və Yeltsinə qarşı gecikmiş qəzəblə çıxış edən, Stalinin repressiya rejimini ` Qırmızı Terroru, СМЕРШ-i, .. ЛАГ-ı bərpa etməyi arzulayan Solovyov düşünmür ki, o dövrdə Avropada villa sahibi olmaq nəinki mümkünsüz idi, hətta onun özünü Solovetskiyə sürgünə göndərərdilər, o da əgər bu ölüm hökmü tərəfdarı əvvəlcədən güllələnməsəydi.

Vladimir Solovyov şəxsiyyəti “yəhudi-faşist” anlayışının nadir nümunəsidir. Daim öz yəhudi mənsubiyyətini vurğulayan bu şəxs, dünya elm və mədəniyyətinə dahilər bəxş etmiş müdrik yəhudi xalqının adına ləkədir. Azad fikirə, demokratiya və azadlıq dəyərlərinə nifrətində Solovyov sırf Gebbels üsullarına əsaslanır: “Daim yalan danış, xalqın heç olmasa bir hissəsini aldada bilərsən”.

Lakin tarixdə ədalət də var. Müqəddəs rus ədəbiyyatı ilə tərbiyə almış böyük rus xalqı gec-tez bu Qrişka Rasputinlərini tanıyacaq.

Solovyovun verilişlərində iştirak edənlər hər şeydə onunla razılaşırlar. Yalnız bir professor hərdən bir-iki fikir bildirməyə macal tapır. Amma elə ilk cümləsindən sonra Solovyov onu çıxışını kobudcasına yarımçıq saxlayır və dediklərinə dərhal etiraz edir ki, professor fikrini tamamlaya bilməsin.

Solovyovun verilişlərinə dərin etirazımı bildirərkən, onun toxunduğu bütün mövzulara münasibət bildirmək fikrində deyiləm. Amma onun Azərbaycan-Ermənistan münasibətləri, Qarabağla bağlı hadisələr barədə səsləndirdiyi təxribatçı bəyanatlara susmaq mümkün deyil. Onun Azərbaycan haqqında söylədiyi düşmənçilik dolu fikirlər məni heyrətə gətirir.

Solovyovun verilişlərində daim bir neçə erməni çıxış edir (onların içində normal təfəkkürlü rejissor Karen Şahnazarov da var) və Solovyov bu verilişlərdə daim ermənilərə sevgisini dilə gətirir. Vladimir Rudolfoviçi bir milləti sevdiyinə və ya onun oliqarxlarına rəğbət göstərdiyinə görə qınamaq olmaz. Amma sual budur: o, sevdiyini dediyi erməni xalqına da, rus xalqına da niyə ancaq şər arzulayır?

Niyə Ermənistanın qonşuları ilə münasibətlərində azacıq istiləşmə Solovyovu bu qədər qıcıqlandırır?

Otuz il işğal altında qalmış Azərbaycan torpaqları, xarabaya çevrilmiş şəhərlərimiz, minalarla örtülmüş tarlalar, öz doğma yurdunda bir milyon qaçqın, Ermənistandan qovulmuş 200 min azərbaycanlı, Xocalı soyqırımı, "yeni ərazilər uğrunda müharibə" çağırışları – bunların heç biri Solovyovu maraqlandırmayıb. Guya heç nə eşitməyib, heç nə görməyib.

Amma ermənilər heç bir zorakılıq olmadan, sadəcə illərlə aparılmış yalan təbliğatın təsiri altında könüllü şəkildə Qarabağı tərk edəndə və bu zaman bircə nəfər də dinc sakin zərər görməyəndə, Solovyov birdən mifik "Artsax"ı xatırladı.

Halbuki bu faciəvi münaqişə zamanı dünyanın hər yerində, eləcə də Rusiyada, Ermənistanın özündə belə bu hadisələr "Qarabağ hadisələri" kimi adlandırılırdı. İndi isə Solovyov “Artsax” sözünü diriltməyə çalışır.

Azərbaycana hədə-qorxu gələn Solovyov unudur ki, Cənubi Qafqazın üç ölkəsi arasında rusların ən çox yaşadığı ölkə Azərbaycandır. Onlar bizim çoxmillətli ölkəmizdə digər vətəndaşlar kimi bütün hüquqlardan yararlanırlar. Bakıda yüzlərlə rusdilli məktəb, rus teatrı, Rus Pravoslav Kilsəsi fəaliyyət göstərir. Rus dilində qəzetlər, jurnallar çap olunu.

O cümlədən Azərbaycan Yazıçılar Birliyinin rusdilli qəzeti və jurnalı. Rusdilli televiziya kanalı da var. Bunu monoetnik Ermənistanda təsəvvür etmək olarmı?

Azərbaycan Rusiya ərazisində sərnişin təyyarəmiz vurulmağına (hansında ki, rus pilotlar da həlak olmuşdu), Yekaterinburqda iki azərbaycanlının məhkəməsiz-filansız öldürülməyinə etirazını bildirir. Bəs Solovyovun azərbaycanofobiyası nədən qaynaqlanır? Erməni sevgisindən?

Amma məsələ bundadır ki, Solovyov sevdiyini dediyi Ermənistana da yalnız zülm, müharibə, qan tökülməsi, məğlubiyyət arzulayır. Çünki Ermənistan rəhbərliyi nəhayət dərk etdi ki, qonşularla sülh şəraitində yaşamaq qarşılıqlı qırğına hazır olmaqdan daha yaxşıdır.

Qarabağdan ermənilərin köçünü erməni xalqı yox, korrupsiyalaşmış erməni siyasətçiləri istədi. Onlar deyirdi ki, ermənilər və azərbaycanlılar bir yerdə yaşaya bilməz. Bəs necə olur ki, onlar Gürcüstanda, Rusiyada, Türkiyədə, İranda birlikdə dinc yaşayırlar?

Mən inanıram ki, erməni xalqının yalan təbliğatla zəhərlənməmiş sağlam düşüncəli adamları, ziyalıları bütün maneələri və xarici müdaxilələri dəf edərək, azərbaycanlılarla mehriban qonşular kimi yaşamağın yolunu tapacaq.

Vladimir Rudolfoviç isə öz əyri teleguzgüsündə millətlərarası nifaq toxumu səpmək üçün başqa “nöqtələr” axtarmalı olacaq”.

# Milli özünüdərk və istiqlal şairi

**Prezident İlham Əliyevin sərəncamı ilə Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin keçirilməsi yalnız böyük bir elmi-ədəbi tədbir deyil, eyni zamanda dərin ictimai-siyasi və ideoloji məzmun daşıyan hadisədir. Çünki Bəxtiyar Vahabzadənin həyat və mübarizə fəlsəfəsi güclü idi.**

O, sovetlər dövründə də kommunist ideologiyası çərçivəsinə sığışmırdı, ən müxtəlif ədəbi üsullar və fəndlərlə ideyasını ötürməyi bacarırdı. Milli mövzularda hissiyatsız danışa bilmir, laqeydliyə, biganəliyə qarşı cəbhə açır, qətiyyət və cəsarətlə sözünü deyirdi. Universitet auditoriyasında da, parlamentdə, ya ictimaiyyət qarşısında çıxışlarında da, şeir və məqalələrində də daxili yanğı hiss edilirdi:

**Yaşamaq yanmaqdır yanasan gərək,**
**Həyatın mənası yalnız ondadır,**
**Şam əgər yanmırsa, yaşamır demək,**
**Onun yaşamağı yanmağındadır.**

Bəxtiyar Vahabzadə müasir dövrdə ölkəmizdə və onun hüdudlarından kənarda ən çox müraciət edilən, tədqiq olunan böyük fikir adamı, şair-filosof, ədəbiyyatşünas alim, qüdrətli dramaturq, mübariz ictimai-siyasi xadimdir. Son illərdə akademik İsa Həbibbəyli, professorlar Əlizadə Əsgərli, Bədirxan Əhmədli, filologiya elmləri doktoru Esmira Fuad, dosent Aida Mirzəyeva və bir sıra başqa tədqiqatçılarımız bu görkəmli mütəfəkkirin yaradıcılığına dair qiymətli əsərlər yazmışlar. Azadlıq, istiqlal, ana dili, milli kimlik kimi məsələlərə dair şairin hər bir əsəri dərin ictimai-siyasi məzmuna malikdir və bu gün də təhlilinə



böyük ehtiyac vardır. Onun 1960-cı illərdə yazdığı və o dövr təfəkküründə böyük təlatüm doğuran "Latın dili" şeiri, "Təzadlar" poeması kimi əsərlərində başqa ölkələrdən söz açılsa da, əslində, Azərbaycan xalqının dərdləri dilə gətirilirdi. Bəxtiyar Vahabzadəni Azərbaycan ədəbiyyatının milli-poetik istiqlalnaməsinin qüdrətli yaradıcılarından hesab edən akademik İsa Həbibbəyli filologiya elmləri doktoru Əlizadə Əsgərlinin "Bəxtiyar Vahabzadə. Həyatı, mühiti və yaradıcılığı" adlı fundamental monoqrafiyasına yazdığı ön sözdə vurğulamışdır: "Bəxtiyar Vahabzadənin "Latın dili" şeiri XX əsrdə nəinki Azərbaycan ədəbiyyatında, hətta keçmiş Sovet İttifaqı miqyasında milli istiqlalın vacib şərtlərindən olan ana dili uğrunda söz açan ən cəsarətli əsər hesab olunmağa layiqdir".

Bəxtiyar Vahabzadə əksər şairlərimiz kimi gənclik çağlarında daha çox eşq, məhəbbət, hicran, vüsal, ülvi arzulardan yazmış, şeirlərinin səmimiliyi, özünəməxsus üslubu ilə özünü sevdirmişdi. Təsadüfi deyildir ki, ölkəmizin tanınmış bəstəkarları onun şeirlərinə bir-birindən gözəl onlarla mahnı yazmışlar və bu həmişəyaşar mahnılar indi də oxunur və gələcəkdə də oxunacaqdır. Şeirə layiq musiqidən əlavə, bu mahnıların hər sətrindən sevən və sevilən şairimizin ruhu duyulur:

**Özün bir aləmsən eşqin bir aləm,**
**Sən olan könüldə nə qüssə, nə qəmÈ**
**Sənsiz bu dünyanın ən bədbəxtiyəm,**
**Səninlə dünyada bəxtiyaram mən.**

Lakin 1950-ci illərin sonlarından Bəxtiyar Vahabzadənin poeziyasında ictimai-siyasi mövzular önə çıxmış, onun yaradıcılığına olan marağı daha da artırmışdır. 1950-ci illərin sonlarından, onun "Gülüstan" poemasından başlanan istiqlal poeziyası kommunist ideologiyasının qadağalarına baxmayaraq, yazarına geniş ümumxalq məhəbbəti qazandırmışdır. Rejimin şairi həbs etməsi məsələsi artıq gündəlikdə idi. O zaman Azərbaycanın dövlət təhlükəsizlik sistemində məsul vəzifə daşıyan Heydər Əliyev onunla görüşmüş, həbs edilmək təhlükəsindən qorumuş, onun kommunist ideologiyası şəraitində də xalqa və Vətənə xidmətini uyğun məcraya yönəltmişdir.

Bəxtiyar Vahabzadə həm ədəbiyyatda, həm də ictimai fəaliyyətində əqidə və dönməzlik nümunəsi olmuşdu. 1988–1990-cı illərdə xalqımızın azadlıq mübarizəsinin öncülləri sırasında yer almış, 1990-cı ilin 20 Yanvar şəhidlərinin qəhrəmanlığını nəzmə çəkərək xalqımızı ruh düşkünlüyündən çıxarmağa səy göstərmiş və mübarizəyə səsləmişdi. Öldürülmək təhlükəsinə baxmayaraq, Azərbaycan televiziyasının ötürücü stansiyasını partladan, milli hərəkata qalxan xalqın gözünü qorxutmağa çalışan rus generalının üzünə tüpürərək xalqımıza bu vəhşi rejimə itaət göstərməmək dərsi aşılamışdı. O, həmin günlərdə yazdığı şeirlərinin birində deyirdi:

**Dilək bir çiçək də bitirə bilməz,**
**Bu gündən sabaha körpü olmasa.**
**Azadlıq ağacı bar verə bilməz,**
**Şəhidlər qanıyla suvarılmasa.**

Yenicə istiqlalını bərpa etmiş Azərbaycan Respublikasına qarşı xaricdən dəstəklənən erməni təcavüzü başlayanda Bəxtiyar Vahabzadə Vətən mücadiləsinin ön cərgələrində yer almış, 1992-ci ildə məşhur "Vətən marşı"nı yazmışdır. Bu marşı Mehmet Akif Ərsoyun yazdığı Türkiyə Cümhuriyyətinin dövlət himni ilə müqayisə etmək olar:

**Ey Vətən oğlu, bil ki,**
**sənindir bu Vətən,**
**Sabahın, həm bu günün,**
**həm dünənindir bu Vətən.**
**Sənin öz dövlətin, öz millətin,**
**öz səddin var,**
**Vətən uğrunda ölənlər**
**ölümündən doğular.**

**...Ey Azərbaycanımız,**
**türkün oğuzlar vətəni,**
**Ər oğullar, ər igidlər,**
**kişi qızlar Vətəni.**
**Sənin haqqındır azadlıq,**
**sənin eşqindir iman,**
**Tapınar haqqa və insanlığa**
**haqdan doğulan.**

Bəxtiyar Vahabzadə müstəqilliyin qazanılması ərəfəsində və ilk illərində həm mənfur qonşu Ermənistanın işğalı, həm də Kremlin buyruq quluna çevrilmiş qeyri-milli və səbatsız vəzifəli şəxslərin xalqazidd siyasətlərinə poeziyası ilə yanaşı, sinəsini qabağa verərək qorxmaz şəxsiyyəti ilə də mübarizə aparırdı. 1980-ci illərin sonlarında bir-birini əvəz edən bəsirətsiz rəhbərlərin fərasətsiz siyasətləri nəticəsində ölkəmizdə yaranmış acınacaqlı vəziyyət hər kəsdən daha çox, şübhəsiz ki, milli qeyrət sahibləri olan şəxsləri narahat edirdi. O zaman kommunist rəhbərliyini ittiham etmək nədir, heç tənqid etmək də asan məsələ deyildi. Hakimiyyətdə olanların hər biri Bəxtiyar Vahabzadənin xalq arasındakı nüfuzundan öz mənfəəti üçün istifadə etmək istəyirdi. Şair isə öz sözünü deməkdən çəkinmirdi. 1992-ci ilin aprelində artıq müstəqilliyin yarım ilinin arxada qaldığı bir dönəmdə Vətənin və millətin dərdini çəkməyib vəzifə kürsüsündən bərk-bərk yapışan başçılara xitabən yazdığı bir şeirində deyirdi:

**Gün kimi bəllidir: yeddi milyonun**
**Dərdini köksündə yaşatmayan kəs**
**Bu boyda millətə baş ola bilməz.**
**...Bu Vətən mənimdir, bu Vətən sənin,**
**Səngərdə əsgərə dəyən güllənin,**
**Ağrısı qəlbində göynəməyən kəs,**
**Bu boyda millətə baş ola bilməz.**

Bəxtiyar Vahabzadə hələ 1991-ci ilin fevralında Ali Sovetin XII çağırış 1-ci sessiyasındakı məşhur çıxışında Heydər Əliyevə qarşı qərəzli və tamamilə haqsız "mübarizə"yə qoşulanları kəskin şəkildə ittiham edirdi. Azərbaycan tarixində və dövlətçiliyində Heydər Əliyevin müstəsna xidmətlərini bu yüksək kürsüdən ucadan deyir, xalqı bu dahi şəxsiyyətin ətrafında sıx birləşməyə, milli birliyə çağırırdı. Bəxtiyar Vahabzadə həmin çıxışında deyirdi:



"Unutmayın ki, ermənilər yalnız Əliyev vəzifədən gedəndən sonra bizim başımıza bu oyunu aça bildilər. Əliyev sipər kimi onların qabağında dayanmışdı. Biz bu gün böyük həyat təcrübəsinə və siyasi, diplomatik biliyə malik olan, bütün ömrü boyu siyasət qazanında qaynayıb bərkiyən bu vətən oğlunun ağlından, təcrübəsindən istifadə etmək əvəzinə, Vətənin taleyinə tüpürüb şəxsi ambisiyamızı qabağa çəkdik... Bu gün biz bütün qüvvələrimizi birləşdirib Qarabağ məsələsinin həllinə yönəltməli ikən, zirvədən enən adamdan intiqam və zirvədəkindən pay almaq üçün mikrofon qarşısında növbəyə durmuşuq. Budurmu bizim etikamız, əxlaqımız?" Televiziyada canlı yayımlanan, 16 fevral 1991-ci il tarixində qəzetlərdə dərc olunan bu geniş çıxışında Bəxtiyar Vahabzadə həm millət vəkillərinə, həm də bütün Azərbaycan xalqına taleyüklü ismarışlar verir, xalqımızı müstəqillik ideallarından çəkindirməyə çalışanları ittiham edirdi.

O zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi bu sətirlərin müəllifinə məlum idi ki, Bəxtiyar Vahabzadə Naxçıvana gələrək Heydər Əliyevlə görüşmüşdü, millətin və dövlətin taleyi ilə əlaqədar uzanan söhbət 4 saat çəkmişdi. Bəxtiyar Vahabzadənin Ulu öndərlə görüşlərinə dair yazılarında bu söhbətlər barəsində geniş məlumat verilmişdir.

Böyük şairin şəxsiyyətini, yaradıcılığını və milli istiqlal mübarizəsini ulu öndər Heydər Əliyev yüksək qiymətləndirirdi. O, 1995-ci ildə xalqımızın milli təfəkküründə və müstəqillik hərəkatında dəyərli xidmət göstərmiş istiqlalçı şairimizə müraciətlə demişdi: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmısınız". – Bu yığcam dəyərləndirmə, əslində, bir güzgü kimi şairin şəxsiyyətini və yaradıcılığını əks etdirir. Bu, həm də Bəxtiyar Vahabzadəni qərəzli şəkildə xalqın gözündən salmağa, ona qara yaxmağa cəhd edənlərə kəskin cavab deməkdir. Elə qarayaxanlar meydana çıxmışdı ki, hətta milli şairimizin etnik mənşəyinə dair şübhə toxumu səpməyə cəhd edirdilər. Belələrinə şair tutarlı cavab vermişdi:

**...Əslimi, kökümü tanıyıram mən,**
**Qarışıq deyiləm özümdən hürkəm.**
**Sən kimsən, naçisən – özün bilərsən**
**Mən ilk qaynağımdan türk oğlu türkəm.**

Bəxtiyar Vahabzadənin mübariz poeziyası Cənubi Azərbaycanın vətənsevər ziyalılarının və ədəbiyyat aşiqlərinin də ilham qaynağı idi. Bu da təbii idi. Bəxtiyar Vahabzadənin azadlıq, milli istiqlal düşüncəsi Bütöv Azərbaycanı ehtiva edirdi. 1950-ci illərin sonlarında yazdığı "Gülüstan" poemasından başlayaraq qələmə aldığı onlarla şeirində xalqımızın bölünməzliyini vurğulayırdı:

**Bəxtiyar, sinəndən neçə "mən" keçir,**
**Biri dərdli keçir, biri şən keçir.**
**Məftilli çəpərlər sinəmdən keçir,**
**Bakıyla Təbrizin arasındayam.**

Bəxtiyar Vahabzadə 1970-ci ildə Cənubi Azərbaycanın ünlü şairi Səhəndlə (Bulud Qaraçorlu) Bakıda görüşəndən sonra bu bütöv Vətən yanğısı daha da göynəmişdi. Səhənd o zaman İran yazıçılarının nümayəndə heyətində Moskvaya səfər etmişdi, hansısa vasitə ilə yol tapıb bir günlüyə Bakıya gələ bilmişdi. Səhənddən ayrılandan sonra Bəxtiyar yazdığı şeirində deyirdi:

**...Məni görən kimi sən hönkürərək**
**Açdın qollarını, qucaqlaşdıq biz.**
**Bu gün qucaqlaşan qollarımız tək**
**Nə vaxt birləşəcək bəs Vətənimiz?**



Böyük şairimiz Məhəmmədhüseyn Şəhriyara Azərbaycanda keçirilən Vaqif günlərinə qatılmaq üçün rəsmi dəvət göndərilməsinə baxmayaraq, Pəhləvi rejimi onun səfərini əngəlləmişdi. O zaman Şəhriyarla bu tayın şairləri Süleyman Rüstəm, Məmməd Rahim, Bəxtiyar Vahabzadə qiyabi olaraq şeirlərində dərdləşirdilər. Ömrünün ahıl çağlarını "şimallı qardaşları"yla görüşə naumid şəkildə keçirən Şəhriyar:

**...Süleymanın sözündən öp,**
**Bəxtiyarın gözündən öp,**
**Mən də təkəm sizə qurban,**
**tək canım hamuuza qurban, –**

deyərək həsrətdən yanırdı.

Azərbaycan xalqının, eləcə də bütün türk dünyasının böyük mütəfəkkiri Doktor Cavad Heyətin və yaxın məsləkdaşlarının Tehranda 1979-cu ilin aprelində nəşr etdikləri "Varlıq" jurnalının ilk sayına Bəxtiyar Vahabzadənin "Ana dili" şeirinin ustad Şəhriyarın "Azadlıq quşu "Varlıq" şeiri ilə yanaşı dərc edilməsinin dərin mənası var idi. Ana dili bir millətin milli varlığının təməl sütunudur və Bəxtiyar Vahabzadənin dil mücadiləsinin Güney Azərbaycanda və bütün İran türkləri arasında təbliğinin milli şüurun və kimlik mənsubiyyətinin aşılanmasında əhəmiyyətli təsir gücünə malik olacağına inam var idi. Doktor Cavad Heyət sahibi və naşiri olduğu "Varlıq" dərgisində hissə-hissə dərc etdirdiyi və 1990-cı ildə Tehranda bir kitab halında çıxan "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış" əsərində onu İran türklərinə tanıdaraq yazmışdı: "Bəxtiyar Vahabzadə məşhur şair, dramaturq, publisist və ədəbiyyatşünas alimlərimizdəndir.Onun lirik və fəlsəfi şeirləri təzadlarla dolu əsrimizin nəbziylə həmahəngdir. Kiçik və böyük əsərlərində Bəxtiyar Vahabzadə həyat, ölüm, qəhrəmanlıq, vətəndaşlıq məsuliyyəti kimi məsələlərə cavab verməyə çalışmışdır".

Bəxtiyar Vahabzadə irsi, onun istiqlalçı poeziyası, həmçinin onun tarixi yaddaşımızın təzələnməsinə xidmət edən, milli ruhu daim diri tutan "Özümüzü kəsən qılınc", "Fəryad", "Dar ağacı", "Hara gedir bu dünya" kimi dram əsərləri, Türk dünyasının, türkçülüyün və turançılığın tarixinə, ədəbi, fəlsəfi qaynaqlarına dair çoxsaylı elmi-publisistik əsərləri qardaş Türkiyədə, Cənubi Azərbaycanda, bütün Türk respublikalarında bilinir və sevilir. Bəxtiyar Vahabzadə barəsində Türkiyədə daha çox yazılmış və yazılmaqdadır, dram əsərləri orada da səhnələşdirilir, şeirlərinə musiqi bəstələnir. Onun nəğmə qanadlı aşağıdakı misraları hər iki ölkədə dillər əzbəridir:

**...Bir millətik, iki dövlət**
**Eyni arzu, eyni niyyət.**
**Hər ikisi Cümhuriyyət,**
**Azərbaycan–Türkiyə.**

Bəxtiyar Vahabzadə bütün Türk dünyasının ehtiram etdiyi istedadlı filosof-şair olaraq, həm də böyük fikir adamı kimi sağlığında heykəlləşmiş və bir simvola çevrilmişdi. O, təkcə Azərbaycan xalqının deyil, digər dünya xalqlarının da azadlıq ideyalarının carçısı və dəstəkçisi idi. Onun xalqların tarixi yaddaşını silkələyən, ictimai-siyasi şüurunu oyadan şeirləri 1960-cı illərdən üzü bəri diqqət çəkirdi və şeirlərinin bir çoxu dünyanın müxtəlif dillərinə tərcümə edilib yayılırdı.

Prezident İlham Əliyev Bəxtiyar Vahabzadənin irsinə böyük qiymət verərək demişdir: "Siz yaradıcılığınızı Vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdansınız".

Fikrimizcə, Bəxtiyar Vahabzadə XX əsrin 2-ci yarısında Azərbaycan xalqının ədəbi-bədii-fəlsəfi fikrinin və ictimai-siyasi düşüncəsinin yetşdirdiyi təkrarsız mütəfəkkir və fədakar mübariz kimi xalqımızın, bütün dünyadakı türklərin, xüsusən də, bu sətirlərin müəllifi də daxil olmaqla, onu yaxından tanıyan və onunla ünsiyyətdə olan hər bir vətəndaşımızın qəlbində və yaddaşında həmişə yaşayacaqdır.

***Eynulla MƏDƏTLİ,***
***tarix elmləri doktoru,***
***fövqəladə və səlahiyyətli səfir***

Yeni kitablar

# “Leyla Əliyevanın poetik dünyası”

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda tanınmış ədəbiyyatşünas alim, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru Salidə Şərifovanın “Leyla Əliyevanın poetik dünyası” kitabının təqdimatı keçirilib.**



Ziyalılar, jurnalistlər, sənət adamları və şeirsevərlərin qatıldığı təqdimatı giriş sözü ilə AYB-nin katibi, yazıçı-dramaturq İlqar Fəhmi açıb. Sonra məclisin aparıcısı, AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, tənqidçi Əsəd Cahangir kitabın məziyyətlərini səciyyələndirib. O, monoqrafiyanı filologiya elmimizə gözəl bir töhfə kimi dəyərləndirib: “Bu kitab həm də dövlətçilik idellarımıza xidmət edir. Belə bir işi hasilə gətirmək həm məsuliyyətli, həm də şərəflidir. Leyla Əliyevanın poeziyasını hərətərəfli araşdırma predmetinə çevirən S.Şərifova onun fəlsəfəsi, obrazlar sistemi, bədii təsvir, dil-üslub xüsusiyyətləri, müxtəlif dillərə tərcümələri barədə müasir dünya filologiyası səviyyəsində söz deməyə nail olub. “Leyla Əliyevanın poetik dünyası” şairənin yaradıcılığına ilk monoqrafik yanaşmadır. İnanıram ki, müasir Azərbaycan filoloji düşüncəsinin yüksək elmi səviyyəsini bütün genişliyi ilə ortaya qoyan bu iş həm Leyla Əliyevanın yaradıcılığı, həm də ümumən müasir poeziyamız barədə gələcək tədqiqatlara öz təsirini göstərəcək”.



Təqdimat mərasimində söz alan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu, AMEA Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya eımləri doktoru, professor Asif Rüstəmli, “Vəhdət” partiyası sədrinin müavini Tərlan Ərəbli, kitabın rəyçiləri, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Vüqar Əhməd və filologiya üzrə fəlsəfə doktoru Müşfiq Borçalı, Leyla Əliyevanın şeirlərinin tərcüməçisi, “Ədəbiyyat qəzeti” baş redaktorunun müavini Adil Cəmil, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi işcisi Mənzər Niyarlı, yazıçı və şairlərdən Sabir Şahtaxtlı, Yusif Nəğməkar, Vəli Qaraçaylı, Güləmail Murad, Kəmalə Abiyeva, Hüseynbala Mirələmov, Nüşabə Məmmədli və digərləri çıxış edərək S.Şərifovanı bu təqdirəlayiq işinə görə təbrik edib, gələcək fəaliyyətində ona uğurlar arzulayıb. Xalq artisti Məleykə Əsədova və Əməkdar artist Elza Seyidcahanın çıxışları tədbirə xüsusi ovqat verib.

Qeyd edək ki, “Leyla Əliyevanın poetik dünyası” adlı monoqrafiyası Ədəbiyyat İnstitutu Elmi Şurasının 28 mart 2024-cü il tarixli 2 saylı qərarı ilə çapa tövsiyə olunaraq, “Elm və təhsil” nəşriyyatında nəşr edilib. Təhlillərdən də göründüyü kimi, poetik nümunələr mövzu müxtəlifliyi və rəngarəngliyi ilə seçilir. Şairənin yaradıcılığında heca vəzninə, sərbəst şeir şəklinə, həmçinin Avropa ədəbiyyatında formalaşan elegiyaya müraciət etməsinin əksini tapmasına diqqət cəlb olunub. Leyla Əliyevanın poeziyasında doğma insanların bədii obrazları, müəllif “mən”i, lirik qəhrəmanın tərənnümü ilə yanaşı, qadın obrazlarına və körpə dünyasına poetik baxışı və s. əks etdirməsi monoqrafik tədqiqatın elmi yeniliyi kimi maraq doğurur.

***Ə.ƏLİYEV***
***XQ***

# zbəkistanın mədəniyyət naziri Bakıda`

**Mədəniyyət naziri Adil Kərimli ilə Azərbaycanda səfərdə olan Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov arasında ikitərəi` görüş keçirilib.**

Nazirlikdən verilən məlumata görə, A.Kərimli Azərbaycan və Özbəkistan xalqları arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin qədim tarixi köklərə əsaslandığını qeyd edib. O, hazırda iki ölkə arasında mədəni əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və bu istiqamətdə əməkdaşlığın genişlənməkdə olduğunu vurğulayıb.

Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək iki ölkə arasında mədəni əməkdaşlığın hər gün yeni məzmun qazandığını, münasibətlərin davamlı şəkildə dərinləşdiyini qeyd edib.



Görüş çərçivəsində tərəflər mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlıq perspektivləri, qarşılıqlı layihələr və təşəbbüslər ətrafında fikir mübadiləsi aparıblar.

***XQ***

# Tarzən soydaşımız mədəniyyət elçisidir



**Beynəlxalq Muğam Mərkəzinin direktoru, Əməkdar artist, tarzən Sahib aşazadə` zbəkistan` Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən “zbəkistanın` mədəniyyət elçisi” medalı ilə təltif olunub.**

Təqdimat mərasimi iyulun 1-də Azərbaycan Mədəniyyət Nazirliyində keçirilib. Görüş zamanı medalı və onun sertifikatını ifaçıya ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov təqdim edib. Nazir tarzən Sahib Paşazadənin iki ölkə arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələri, həmçinin Özbəkistanda keçirilən beynəlxalq festival və müsabiqələrdə fəal iştirakını yüksək qiymətləndirib, sənətkara yeni uğurlar arzulayıb.

Qeyd edək ki, Sahib Paşazadə 2017-ci ildə Səmərqənd şəhərində keçirilən ənənəvi “Şərq təranələri” Beynəlxalq Musiqi Festivalında Qran-pri mükafatına, 2018-ci ildə isə Şəhrisəbz şəhərində təşkil olunan I Beynəlxalq “Makom” Festivalında 1-ci yerə layiq görülüb. O, həmçinin 2024-cü ildə Özbəkistan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun fəxri professoru adına layiq görülüb.

***XQ***

Zöhrab Adıgözəlzadə – 85

**Azərbaycan pianoçusu, Xalq artisti, professor Zöhrab Adıgözəlzadə mədəniyyət tariximizdə silinməz izləri olan böyük bir nəslin nümayəndəsidir. Musiqi onun ruhunda, qanında idi. Amma uşaq yaşlarından pianonun şirmayi dillərini “canlandırmağa” olan həvəsi gələcəyin böyük bir musiqiçisinin yetişməkdə olduğundan soraq verirdi. Həm də adı Azərbaycan musiqi sənəti tarixinə yazılacaq qədər məşhur bir musiqiçi. Elə də oldu. Azərbaycan Dövlət Konservatoriyasına qəbul edildi və gözəl pianoçu və pedaqoq M.Brenerin fortepiano sinfini uğula bitirdi.**

# Gözəl musiqi ifaçısı, unudulmaz müəllim

O, 1962-ci ildə ali təhsil diplomunu aldıqdan sonra N. Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasının aspirantura bölməsində P.Serebryakovun sinfində ifaçılıq məharətini təkmilləşdirdi. Doğma konservatoriyada müəllim, dosent, professor kimi fəaliyyət göstərdi. Pedaqoji fəaliyyətlə yanaşı, həm də müntəzəm konsertlər verirdi Zöhrab müəllim. Keçmiş SSRİ-nin müxtəlif respublikaları, Polşa, Almaniya, Çexoslovakiya və digər ölkələrdə klassiklərin əsərlərini özünəməxsus şəkildə ifa edərək bol alqış qazanırdı. Əlbəttə, fitri istedadı idi onu dünyada tanıdan. Emosional, mənalı ifası nüansların dəqiq dinamikası və yüksək səs mədəniyyəti ilə seçilirdi. Q.Qarayev, F.Əmirov, C.Hacıyev, T.Quliyev, S.İbrahimova, A.Sayqunun əsərlərinin təfsiri intonasiya ifadəliyi, faktura və tematik inkişafın xüsusi prosessuallığı ilə səciyyələnirdi.





...Bir gün, daha doğrusu, 1998-ci ilin aprelində tanınmış opera müğənnisi, dramatik tenor, SSRİ Xalq artisti L.İmanov “İstiqlal” ordeni ilə təltif ediləndə ondan televiziya üçün müsahibə almaqdan ötrü evinə qonaq getmişdik. Söhbət zamanı dönə-dönə vurğuladı ki, Zöhrab Adıgözəlzadə ilə illər ərzində müxtəlif ölkələrdə böyük uğurlu çıxışları olub. Avropa və rus bəstəkarlarının əsərlərini ifa edib, eyni zamanda, Azərbaycan bəstəkarlarını dünyada tanıdıblar. Duetin konsert proqramlarında xalq mahnısı “Küçələrə su səpmişəm”, “Ay Dilbər”, Ə.Zeynallının “Mənim ölkəm” romansı, C.Cahangirovun “Məzlum” və “Ana”, S.Rüstəmovun “Alagöz” və “Məhəbbət nəğməsi”, T.Quliyevin “Sənə də qalmaz” mahnıları daim səsləndirilib. Eləcə də Ü.Hacıbəylinin “Koroğlu” operasından “Koroğlunun ariyası”, “Arşın mal alan” operettasından “Əsgərin ariyası” həmişə dinləyiciləri heyran edib (Bu barədə həvəslə danışan Lütfiyar İmanov axırda “Bu badələri də Zöhrabın sağlığına içək” – deyəndə onu nə qədər ürəkdən sevdiyinin bir daha şahidi olduq).

Qeyd edək ki, Zöhrab Adıgözəlzadə, L.İmanovla yanaşı, Azərbaycanın xalq artistləri, violino ifaçıları S.Qəniyev, Z.Quliyeva ilə səhnəni bölüşüb. Bir gün Türkiyədən gələn təklif isə onu ömrünün qalan illərini qardaş torpağa bağlamağa vadar edib. Savadına, musiqisinə orda daha çox ehtiyac olduğunu nəzərə alaraq razılaşıb və 1990-cı ildən ömrünün sonuna qədər – düz 22 il Əskişehir Anadolu Universitetinin Dövlət Konservatoriyasında kafedra müdiri vəzifəsində çalışıb Zöhrab Adıgözəlzadə çoxsaylı konsert proqramları ilə çıxış etməklə yanaşı, mütəmadi olaraq ustad dərsləri verib. Respublikamızda keçirilən musiqi müsabiqələrində münsiflər heyəti tərkibində təmsil olunub. Yaradıcılıq fəaliyyəti Türkiyə və Azərbaycan sərhədlərində məhdudlaşdırmayıb, işlədiyi müddətdə tez-tez Avropaya gedib, orada müasir musiqinin bugünkü inkişaf və uğurları ilə tanış olub.

Qəlbən kamera musiqisinə bağlı olan, parlaq solo, duet və ansambl ifaçısı kimi tanınan Zöhrab Adıgözəlzadə milli musiqi mədəniyyəti sahəsindəki xidmətlərinə görə Azərbaycanın Xalq artisti fəxri adlarına layiq görülüb. Amma bir adı da var idi ki, Zöhrab müəllim bunu Tanrının lütfü kimi qəbul edirdi. Bu, xoşbəxt ata adı idi: Murad və Fərid adlı iki oğlu Zöhrab Adıgözəlzadənin ocağında onun yolunu, işini layiqincə davam etdirir.

***Haqqında söylənilənlərdən...***

**Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə:** “Zöhrab Adıgözəlzadə Türkiyədə böyük piano məktəbi yaradıb, ondan əvvəl isə Azərbaycanda çox istedadlı pianoçular yetişdirib”.

**Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli:** “O, gözəl musiqiçi, ailə başçısı, əsl azərbaycanlı idi. Türkiyədə yaşadığı dövrdə Azərbaycan incəsənətini çox yüksək səviyyədə təmsil edib”.

“Qaya” Dövlət Ansamblının yaradıcılarından biri və sonralar direktoru olmuş müğənni, Əməkdar artist Rüfət Babayev isə konservatoriyada Zöhrab müəllimin fortepiano sinfində oxuduğunu fəxrlə qeyd edir, onun pedaqoji ustalığını, sənəti gənclərə sevdirməyi bacardığını söyləyirdi.

Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadənin bir çox ifaları məşhurdur. Amma onun pianoda çaldığı “Noktürn” (müəllifi Vasif Adıgözəlov) lirik, xəyalpərəst təbiətli musiqi parçaları olaraq, təsəvvürümüzdə ata xatirəsinə çevrilir və hər kəsi bir başqa cür duyğulandırır.

Bütün varlığı ilə Vətənə bağlı olan Zöhrab Adıgözəlzadə soydaşlarımızın uğurlarına qəlbən sevinərdi. Xatırlayırıq ki, ömrünün son vaxtlarına təsadüf edən “Eurovision–2011”də Eldar Qasımov və Nigar Camalın “Running scared” (“Ürküb qaçan”) mahnısı ilə qələbəsindən vəcdə gələrək bunu Azərbaycanın musiqi mədəniyyətinin zəfəri sayaraq demişdi: “Bu, ilk növbədə Eldarla Nigarın milyonlarla avropalının qəlbini fəth etməsinin, həmçinin ictimai və dövlət işçilərinin, yaradıcı insanların gördüyü böyük işlərin nəticəsidir. Buna görə doğma və istedadlı Azərbaycan torpağı qarşısında baş əyirəm!”

Zöhrab Adıgözəlzadə 2012-ci ilin mayında dünyasını dəyişib. Xatirəsi daim ehtiramla yad edilir. Sağlığında dəfələrlə tanınmış orkestrlərlə birgə konsertlər verdiyi Vyanada növbəti musiqili gecə onsuz keçirilib. Hələ 1998-ci ildə buradakı ilk konsertində birgə səhnəyə çıxdığı Eskişehir Anadolu Universitetinin “Yunus Emre” kvarteti və pianoçu Fərid Adıgözəlzadə ifaları ilə mərhumun ruhunu şad ediblər.

Görkəmli musiqiçi Zöhrab Adıgözəlzadə sevənlərinin ürəyində, pərəstişkarlarının xatirələrində yaşayır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

## QƏRAR

**№ 3-27/3-7-1/2025**
**Bakı şəhəri 11 mart 2025-ci il**

### Dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərin tariflərinin tənzimlənməsi barədə

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərin tarifləri" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 11 mart tarixli 3-27/3-7-1/2025 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

### Dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərin tarifləri

1. Beynəlxalq səfərlər həyata keçirən gəmilərə dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı göstərilən xidmətlərin tarifləri aşağıdakı düsturlar əsasında hesablanır:

1.1. Sərnişin-nəqliyyat və yük-sərnişin gəmiləri, gəmibərələr, eləcə də təkərli nəqliyyat vasitələrinin, yaxud konteynerlərin daşınması məqsədi ilə layihələndirilən yük gəmiləri (quru yük gəmiləri istisna olmaqla) üçün:

$$T=(GT \times Ə) \times S$$

T – tarifin məbləği (manat, ƏDV-siz)
GT – gəminin ümumi tutumu (gross ton ilə)
Ə – gəminin ümumi tutumuna əsasən tətbiq olunan əmsal
S – dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı göstərilən xidmətlər üzrə müvafiq olaraq limana və dəniz əməliyyatları bazasına giriş-çıxışın, saatın, milin və ya təqvim gününün sayı

1.2. Tankerlər üçün:

$$T= (GT_1 \times Ə_1 + GT_2 \times Ə_2) \times S$$

T – tarifin məbləği (manat, ƏDV-siz)
$GT_1$ – gəminin ümumi tutumunun 6 min gross tona qədər (6 min gross ton daxil olmaqla) hissəsi
$GT_2$ – gəminin ümumi tutumunun 6 min gross tondan artıq hissəsi
$Ə_1$ – gəminin ümumi tutumunun 6 min gross tona qədər (6 min gross ton daxil olmaqla) olan hissəsi üzrə tətbiq olunan əmsal
$Ə_2$ – gəminin ümumi tutumunun 6 min gross tondan artıq olan hissəsi üzrə tətbiq olunan əmsal
S – dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı göstərilən xidmətlər üzrə müvafiq olaraq limana və dəniz əməliyyatları bazasına giriş-çıxışın, saatın, milin və ya təqvim gününün sayı

1.3. Quru yük gəmiləri də daxil olmaqla digər gəmilər üçün:

$$T= (GT_1 \times Ə_1 + GT_2 \times Ə_2) \times S$$

T – tarifin məbləği (manat, ƏDV-siz)
$GT_1$ – gəminin ümumi tutumu (gross ton ilə) 3 min gross tona qədər (3 min gross ton daxil olmaqla)
$GT_2$ – gəminin ümumi tutumu (gross ton ilə) 3 min gross tondan artıq
$Ə_1$ – gəminin ümumi tutumunun 3 min gross tona qədər (3 min gross ton daxil olmaqla) olan hissəsi üzrə tətbiq olunan əmsal
$Ə_2$ – gəminin ümumi tutumunun 3 min gross tondan artıq olan hissəsi üzrə tətbiq olunan əmsal
S – dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı göstərilən xidmətlər üzrə müvafiq olaraq limana və dəniz əməliyyatları bazasına giriş-çıxışın, saatın, milin və ya təqvim gününün sayı

1.4. Bu Tariflərin 1.1-1.3-cü bəndlərində qeyd edilən tariflər üzrə aşağıdakı əmsallar tətbiq edilir:

| № | Dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı göstərilən xidmətin adı | Tankerlər | | Sərnişin-nəqliyyat və yük-sərnişin gəmiləri, gəmibərələr, eləcə də təkərli nəqliyyat vasitələrinin, yaxud konteynerlərin daşınması məqsədi ilə layihələndirilən yük gəmiləri (quru yük gəmiləri istisna olmaqla) | Quru yük gəmiləri də daxil olmaqla digər gəmilər | |
|---|---|---|---|---|---|---|
| | | ümumi tutumu 6 min gross tona qədər olan hissə üçün (6 min gross ton daxil olmaqla) | ümumi tutumu 6 min gross tondan artıq olan hissə üçün | hər gross ton üçün | ümumi tutumu 3 min gross tona qədər olan hissə üçün (3 min gross ton daxil olmaqla) | ümumi tutumu 3 min gross tondan artıq olan hissə üçün |
| I | II | III | IV | V | VI | VII |
| 1. | Gəminin limana giriş-çıxışının rəsmiləşdirilməsi (limana və dəniz əməliyyatları bazasına hər bir giriş-çıxış üzrə) | 0,275 | 0,137 | 0,091 | 0,28 | 0,14 |
| 2. | Dəniz üzgüçülüyü üçün təhlükəli olan dəniz rayonlarında, limanda və liman akvatoriyasında, dəniz əməliyyatları bazasında, habelə məntəqələr arasında gəminin bələdçi vasitəsilə keçirilməsi üzrə xidmətlərin həyata keçirilməsi və bələdçinin fəaliyyətinin təşkili: | | | | | |
| 2.1. | liman daxili (hər saat üzrə) | 0,061 | 0,031 | 0,026 | 0,056 | 0,056 |
| 2.2. | limandan xaric (hər mil üzrə) | 0,0052 | 0,0026 | 0,0013 | 0,0084 | 0,0084 |
| 3. | Gəmilərə məlumatların çatdırılması, radar müşahidəsinin, naviqasiya təminatının və gəmilərin uzaq məsafədən tanınmasının həyata keçirilməsi (limana və dəniz əməliyyatları bazasına hər bir giriş-çıxış üzrə) | 0,123 | 0,061 | 0,059 | 0,224 | 0,056 |
| 4. | Gəmilərin lövbər ərazilərində yerləşdirilməsi, gəmilərin lövbərdə dayandığı dövrdə dəniz üzgüçülüyünün təhlükəsizliyi baxımından daimi müşahidədə saxlanılması (hər təqvim günü üzrə) | 0,0012 | 0,0006 | 0,0005 | 0,0006 | 0,0006 |

2. Azərbaycan Respublikasının ərazi suları daxilində səfərlər həyata keçirən gəmilərə dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı göstərilən xidmətlərin (bu Tariflərin 1.4-cü bəndində qeyd edilən) tarifləri xətti üzmə marşrutuna malik müntəzəm sərnişindaşıma həyata keçirən və ya eyni iki liman və liman akvatoriyası, dəniz əməliyyatları bazası və ya məntəqələr arasında səfərlər edən gəmilər üzrə giriş-çıxışın sayından asılı olmayaraq hər bir təqvim günü üzrə, digər gəmilər üzrə isə limana və liman akvatoriyasına, dəniz əməliyyatları bazasına və ya məntəqələrə hər bir giriş-çıxış üzrə aşağıdakı məbləğlərlə müəyyən edilir:

| № | Gəminin ümumi tutumu | Tarif (manat, ƏDV-siz) |
|---|---|---|
| I | II | III |
| 1. | Gəminin ümumi tutumu 200 gross tonadək olduqda (200 gross ton daxil olmaqla) | 30,00 |
| 2. | Gəminin ümumi tutumu 200 gross tondan 400 gross tonadək olduqda (400 gross ton daxil olmaqla) | 80,00 |
| 3. | Gəminin ümumi tutumu 400 gross tondan 1400 gross tonadək olduqda (1400 gross ton daxil olmaqla) | 200,00 |
| 4. | Gəminin ümumi tutumu 1400 gross tondan 3400 gross tonadək olduqda (3400 gross ton daxil olmaqla) | 275,00 |
| 5. | Gəminin ümumi tutumu 3400 gross tondan 7500 gross tonadək olduqda (7500 gross ton daxil olmaqla) | 350,00 |
| 6. | Gəminin ümumi tutumu 7500 gross tondan yuxarı olduqda | 625,00 |

**Prezident sərəncamının işığında**

# Üzeyir Hacıbəyli və Gəncə



**Gəncədə bu mövzuda müzakirə Üzeyir Hacıbəylinin 140 illik yubileyi münasibətilə təşkil olunmuşdur.**

Dəyirmi masanı giriş sözü ilə AMEA Gəncə Bölməsinin sədri, Əməkdar elm xadimi, akademik Fuad Əliyev açaraq ölkə başçısının sərəncamını tariximizdə və mədəniyyətimizdə böyük izi olan Üzeyir Hacıbəylinin xatirəsinə və irsinə yüksək diqqət və ehtiram nümunəsi, eləcə də milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsinə xidmət edən mühüm addımlardan biri kimi dəyərləndirmişdir. O, həmçinin Üzeyir Hacıbəylinin Azərbaycan Elmlər Akademiyasının üzvü və incəsənət üzrə ilk akademik olduğunu diqqətə çatdırmışdır.

Əməkdar müəllim, sənətünaslıq doktoru, professor Sevda Qurbanəliyeva "Üzeyir Hacıbəyli və Gəncənin musiqi mədəniyyəti" mövzusunda elmi məruzə ilə çıxış etmişdir. Natiq böyük şəxsiyyət, ictimai xadim, Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin həyat və fəaliyyətini, yaradıcılığını xalqımızın milli sərvəti kimi qiymətləndirmişdir.

Gəncə Dövlət Universitetinin tələbə kamera xorunun qızları, musiqi fənləri kafedrasının baş müəllimi Leyla Nəbiyevanın rəhbərliyi və dirijorluğu ilə görüşə Üzeyir musiqisinin sehrli ruhunu qatmışlar. "Leyli və Məcnun" operasının 4-cü pərdəsindən və "Arşın mal alan" operettasının 2-ci pərdəsindən qızların xoru ifa olunmuşdur.

Sonra AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, GDU-nun mədəniyyət və incəsənət şöbəsinin dosenti İradə Abdurəhmanova, AMEA-nın Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutunun ədəbiyyat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ruziyə Quliyeva, Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Aynur Şıxıyeva və AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Samirə Qasımova mövzu ilə bağlı çıxış etmişlər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə**

# Ağstafada bərəkət təntənəsi

**Ağstafa şəhər Heydər Əliyev adına istirahət parkında keçirilən məhsul bayramında heyvandarlıq, əkinçilik, arıçılıq və digər kənd təsərrüfatı, eyni zamanda, yerli şirkətlərin istehsalı olan məhsulların sərgi-satış yarmarkası təşkil edilib.**



Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Seymur Orucov bildirib ki, Ağstafa aqrar rayon olmaqla yanaşı, burada müxtəlif növ kənd təsərrüfatı məhsullarını yetişdirmək üçün münbit torpaq və iqlim şəraiti var. İqtisadi göstəriciləri ildən-ilə artan



Ağstafada məhsul bayramını qeyd etmək bütün zəhmətkeşlərin və rayon sakinlərinin ürəyincədir.

Yerli fermerlərin və aqrar şirkətlərin təqdim etdikləri 20-dən artıq stenddə məhsullar alıcılara bazarlarla müqayisədə sərfəli qiymətə təklif olunub.

***XQ***

"Tərtər Kəndkimya" ATSC səhmdarlarının nəzərinə!

9 avqust 2025-ci il saat 10.00-da "Tərtər Kəndkimya" ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:
1. 2024-cü ilin maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada qəbul edilməsi.
3. Müşahidə şurasının, icra orqanının və təftiş müfəttişinin seçilməsi.
4. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 17.00-dək cəmiyyətin icra orqanına müraciət edə bilərlər.
Əlaqə nömrəsi- 051-654-51-47.
Ünvan- Tərtər rayonu, Hüsənli kəndi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 133 (30827) 3 iyul 2025-ci il, cümə axşamı

## İDMAN



### Azərbaycan UEFA reytinqində 29-cudur

**Azərbaycan 2025/2026 mövsümünə UEFA reytinqi üzrə 29-cu pillədə başlayacaq. Bu, Avropa futbol qurumunun əmsallar cədvəlində ölkələrin yenilənmiş reytinqi açıqlananda sonra məlum olub.**

Azərbaycan hazırda 17.125 əmsala malikdir. Ukrayna (17.600) 28-ci, Bolqarıstan (15.875) 30-cu olub. Qeyd edək ki, siyahıya İngiltərə (90.839) başçılıq edir.

### Asiya Kubokunda ölkəmizi 4 cüdoçu təmsil edir



**Qazaxıstanın Almatı şəhərində keçirilən yeniyetmələr arasında Asiya Kubokunda Azərbaycanı 4 cüdoçu təmsil edəcək. Bu barədə mətbuata Azərbaycan Cüdo Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Qızlardan Fatimə Abdullayeva (44 kq), Könül Eyvazlı (52 kq), oğlanlardan Nicat Şıxızadə (60 kq) və İlkin Qarayev (66 kq) tatamiyə çıxacaqlar. Onlar ACF prezidentinin müşaviri Natiq Bağırovun rəhbərliyi altında yarışa qatılacaqlar.

Qeyd edək ki, turnirdə 10 ölkədən 459 idmançı qüvvəsini sınayacaq.

### İtaliyalı tennisçi "Böyük dəbilqə" liderlidir



**İtaliyalı tennisçi Yannik Sinner Böyük Dəbilqə turnirlərinin tarixinə düşüb. Belə ki, o bu nüfuzlu yarışlarda 75 qələbə qazanan ilk italiyalı tennisçi olub.**

Y.Sinner bunu "Uimbldon"un açılış turunda, ATP reytinqində 95-ci olan həmyerlisi Luka Nardini 3:0 (6:4, 6:3, 6:0) hesabı ilə məğlub edərək reallaşdırıb.

Qeyd edək ki, hazırda dünyanın 1 nömrəli tennisçisi sayılan Yannik Sinner ikinci turda ATP reytinqində 93-cü olan avstraliyalı Aleksandr Vukiçlə üz-üzə gələcək.

*M.HACIXANLI*
*XQ*

Futbol tariximizdən

# Unudulmayan "bürünc-66"

## *6 oyun "Neftçi"nin xeyrinə 25:1*



**"Neftçi" 88 illik tarixində ən böyük nailiyyət – 1966-cı ildə SSRİ çempionatının güclülər dəstəsində qazandığı bürünc medallarla yanaşı, onu fəxri kürsüyə aparan yolda daha hansı maraqlı göstəricilərlə yadda qalıb? Həmin mövsümdən artıq 59 il ötsə də, futbolumuzun yaşlı nəsil və ya stajlı pərəstişkarlarının o vaxtlar böyük zövq aldıqları çempionat – 66-dan daha bir neçə məqam yaddaşlardan silinmir. Bu gün özümüzü bir daha həmin 28-ci turnirlə üz-üzə hiss edək.**

Azərbaycan futbolunun flaqmanı Sovet İttifaqı çempionatlarında ən böyük uğuruna 45 xalla nail olmuşdur. Komanda bu nəticəni 18 kollektivin rəqabətində göstərmişdir. Bakılılar 34 oyunda 68 mümkün xaldan 45-ni toplayaraq, bürünc medalları respublikamıza təmin etmişlər.

Köhnə azarkeşlərin yadında olar, o uzaq illərdə hər dəfə çempionat ərəfəsində ölkənin müxtəlif təşkilatları, qəzet və jurnallar ən yaxşılar üçün mükafatlar təsis edirdilər. Onların arasında "Böyük hesabla" və "Qələbə əzminə görə" mükafatları da var idi.

"Neftçi" 1966-cı il çempionatında 6 oyunda rəqiblərini böyük hesabla məğlubiyyətlə barışmağa məcbur etmişdi. Komandamızın bu görüşlərdə OİK-ə (Rostov) 4:1, Moskvanın "Spartak", Alma-Atanın "Kayrat" və Leninqradın "Zenit" kollektivlərinə 3:0, "Paxtakor"a (Daşkənd) 5:0 və Kutaisi "Torpedo"suna 7:0 hesabı ilə qalib gəlməsi onun mükəmməl hücumlarının nəticəsi idi. Təəssüf ki, 6 böyük hesablı qələbə xüsusi mükafatı qazanmaq üçün kifayət etmədi. Kiyev "Dinamo"sunda bu göstərici daha üstün oldu.

1966-cı il mayın 19-da kutaisililər üzərində 7 top üstünlüklə qazanılmış qələbə SSRİ çempionatlarının güclülər dəstəsində çıxışlarının bütün tarixi ərzində "Neftçi"nin ən böyük fərqlə ifadə olunmuş uğurudur.

"Qələbə əzminə görə" mükafatını xatırladıq. Həmin çempionatda bu mükafat hamıdan çox, eyni sayda əzmkar qələbə qazanan "Neftçi" ilə "Kayrat"a təqdim olundu.

Bundan əlavə, mövsümün yekunlarına görə Anatoli Banişevski ilə Kazbek Tuayevin ölkənin ən yaxşı 33 futbolçusu sırasına daxil edilməsi də bakılı hücumçuların ustalığına verilən yüksək qiymət idi.

Paytaxtımızda bir çox oyunda Respublika stadionunun tribunalarının tamaşaçılarla tam dolması, mübarizənin gedişini 35-40 min azarkeşin izləməsi də komandamıza olan böyük inam və məhəbbətin təzahürü idi. İndi keçmişi xatırladan qəzet, jurnal və kitab materiallarını bir daha nəzərdən keçirərkən görürük ki, 1966-cı il oktyabrın 4-də "Paxtakor"la görüşdə komandamızı 40 min azarkeş dəstəkləmişdir. Futbolçular da bu etimada cavab olaraq moskvalı hakim Aleksandr Menşikovun idarə etdiyi oyunda daşkəndli qonaqların qapısına 5 cavabsız top vurmuş və qollardan 3-nün müəllifi sağ cinah hücumçusu Kazbek Tuayev olmuşdur.

Statistika onu da təsdiqləyir ki, 1966-cı il çempionatında "Neftçi" ən məhsuldar komandalar arasında 56 qolla 3-cü olmuşdur. Azərbaycan paytaxtı futbolçuları bu göstəriciyə görə yalnız çempion Kiyev "Dinamo"sundan (66 qol) və 5-ci yerin sahibi OMİK-dən (60) geri qalmışlar.

Bax belə, bu gün məmnuniyyətlə xatırladığımız çempionat bizi təkcə bürünc medallarla deyil, həm də komandanın məhsuldar oyunu və ümumi 25:1 hesablı 6 gurultulu qələbə ilə sevindirmişdir.

Bir də "Qələbə əzminə görə" mükafatı ilə. Adından da göründüyü kimi, bu mükafat möhkəm iradəli insanların üzünə gülür. O illərdə "Neftçi"nin oyunçuları meydanda əzmkar, döyüşkən olmasaydılar, qələbəyə həsrət qalar, nə bürünc medal qazana bilərdilər, nə də "Qələbə əzminə görə" mükafatı…

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Səyyar "ASAN xidmət" bölgələrdə

**Səyyar "ASAN xidmət" iyul ayı ərzində Hacıqabul, Gədəbəy, Oğuz, Qusar, Yardımlı, Tərtər, Göyçay, Zaqatala və Xırdalanda vətəndaşlara xidmət göstərəcək.**




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən mətbuata bildirilib ki, səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

Qeyd edək ki, hazırda Gədəbəydə səyyar "ASAN xidmət"in iş qrafiki saat 11-dan 17-dəkdir.

*XQ*

# Azərbaycanlı musiqişünasın Almaniyada 3 hissəli konserti

**Almaniyanın Hamburq Universitetində azərbaycanlı musiqişünas, pianoçu, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının sənətşünaslıq üzrə fəlsəfə doktoru, Hamburq Konservatoriyasının dosenti Cəmilə Abdullayevanın təşəbbüsü ilə məktəbyaşlı uşaqlar üçün "Animals in Music" adlı 3 fərqli möhtəşəm konsert keçirilib.**



Xəbərdə qeyd olunur ki, bu üç fasiləli konsert Cəmilə Abdullayevanın Hamburq Universitetində magistr dissertasiyası çərçivəsində aparılan elmi-tədqiqat işinin əsas mərhələsini təşkil edib. Layihənin məqsədi məktəbyaşlı uşaqlar arasında klassik musiqiyə marağı artırmaq, vizual təqdimatların və proqram bukletlərin onların musiqi qavrayışına, dünyagörüşünə, estetik zövqünə və emosional reaksiyalarına necə təsir etdiyini araşdırmaqdır.



Konsertlərdə fortepianoda Cəmilə Abdullayeva, onun həmkarı Kəmalə Bağırova isə violinda çıxış ediblər. Hər konsertin sonunda sadə və maraqlı suallardan ibarət sorğuların keçirilməsi vizual, mətn və ya şifahi müşayiətlərin konsert zamanı uşaqların diqqətini cəmləməyə, assosiativ düşüncələrini aktivləşdirməyə, baş verənlərə emosional şəkildə qoşulmaqla fəal qavrayış iştirakçılarına çevrilmələrinə kömək göstərib.

Cəmilə Abdullayeva bu təşəbbüsü ilə Azərbaycan musiqi irsini beynəlxalq elmi və pedaqoji mühitə təqdim etməklə yanaşı, doğma yurduna olan mənəvi bağlılığını da bir daha sübut edib.

*XQ*

# Külək şimal-qərbdən əsəcək...

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**



Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, havanın temperaturu gecə 19-22, gündüz 26-29 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.

Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 22-23, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25 dərəcə isti olacaq.

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman gözlənilir. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-23, gündüz 28-33, dağlarda gecə 6-11, gündüz 13-18 dərəcə isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*✓ 2013-cü il iyulun 23-də "AFF PARK" MMC tərəfindən Abşeron rayonunun Xırdalan şəhəri, küçə 1, 7 nömrəli binanın 18-ci mənzilinin sahibi Novruzov Taleh Tacəddin oğlunun adına verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2860
SİFARİŞ 1256
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00